Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 14 (6156) 17 aprel 2026-cı il | Qiyməti 40 qəpik

# Rusiya Azərbaycana təzminat ödəyəcək



**Azərbaycan Respublikası və Rusiya Federasiyası Prezidentlərinin Düşənbə şəhərində 9 oktyabr 2025-ci il tarixli görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq, tərəflər 25 dekabr 2024-cü il tarixində Rusiya Federasiyasının hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus Embraer 190 tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər.**

**Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin birgə bəyanatında deyilir.**

**Bildirilib ki, atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir.**

**"Əminik ki, Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafı bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcək.**

**Təyyarə qəzası nəticəsində həyatını itirmiş şəxslərin ailələrinə və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir və faciədən zərər çəkmiş hər kəslə bu əvəzolunmaz itkinin ağrı-acısını bölüşürük", - bəyanatda qeyd olunub.**

# Əli Əsədov büdcə ilə bağlı tapşırıqlar verdi



**Aprelin 14-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Bu barədə Adalet.az-a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, İqtisadi Şuranın iclasda 2027-2030-cu illər üzrə Ortamüddətli Büdcə Çərçivəsi (OMBÇ), büdcə siyasətinin əsas istiqamət və hədəfləri, prioritet xərc istiqamətləri, ortamüddətli dövr üçün ilkin makroiqtisadi proqnozlar və makro-fiskal çərçivə, büdcə dayanıqlığı, 2027-ci il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin proqnoz göstəriciləri, sosial siyasət və əsas göstəriciləri və digər cari iqtisadi məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələlər üzrə maliyyə naziri Sahil Babayev, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzələri dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər. İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla gündəlikdə olan məsələlərə dair müvafiq qərarlar qəbul olunub.

Maliyyə Nazirliyinə və digər aidiyyəti qurumlara növbəti ilin büdcə zərfinin və OMBÇ sənədinin hazırlığı ilə bağlı müvafiq tapşırıqlar verilib.

*Əbülfət MƏDƏTOĞLU*

# MƏN NECƏ İTİRDİM XOŞBƏXTLİYİMİ?!

Bax:səh-8

# Aqil Abbas Türkiyə səfirinə başsağlığı verdi

**Millət vəkili Aqil Abbas Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgünə başsağlığı verib.**

**Hörmətli cənab səfir!**

**Qardaş Türkiyədə orta məktəblərdə baş vermiş silahlı hücum hadisələri bizi dərindən kədərləndirdi.Həlak olanlara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.Bu ağır günlərdə qardaş Türkiyə xalqına səbir və güc arzulayırıq.**

**Allah rəhmət eləsin.**

**Başın sağ olsun, Türkiyə.**

**Aqil ABBAS,**
**Milli Məclisin deputatı**

Aqil ABBAS
aqilabbas@rambler.ru



# "ÇİNAR ÖMRÜ" SERİALINA BAXMAĞA DƏYƏR

*Son illər ölkəmizdə xeyli seriallar çəkilib və çəkilməkdədir. Adətən mətbuatda bu seriallar çox vaxt tənqid olunur. Bu tənqidlərin də haqlı tərəfləri var. Bu hələ yeni sahədi, görünür, hələ yetişməmişik. Bunun səbəblərindən biri mövzuların bəsit olması, peşəkar aktyorların az qonorar verildiyinə görə seriallara çəkilmək istəməməsidirsə, başqa bir səbəbi isə hələ ölkədə serial çəkəcək rejissorların azlığı və ssenaristlərin qıtlığıdı.*

*Serial rejissorları və ssenaristlər hələ tam təkmilləşməyiblər. Məktəb yeni yaranıb, bunları da qınamaq olmaz, hələ ibtidai sinifdəyik.*

*Rac Kapurun oğlu bir film çəkir, neçə milyon pul xərcləyir, amma film alınmır, Rac Kapur gülümsəyib deyib ki, eybi yox, ikinci film yəqin alınar. Düzdür, bizim elə pulumuz yoxdur, hər halda inanıram ki, yaxın zamanlarda bizdə də güclü, xüsusilə də tarixi seriallar çəkiləcək, çəkə biləcəyik.*

Bax:səh-2

# SƏNƏ İKİ ELƏ YUMRUQ VURMUŞAM Kİ...

İki nəfər dalaşır, biri o birisini yerə yıxıb döyür. Adamlar tökülüb aralaşdırır. Döyülən ağzının-burnunun qanını silə-silə deyir:

**- Sənə altdan iki elə yumruq vurmuşam ki, ağrısını bir həftədən sonra hiss edəcəksən.**

İndi ABŞ-İsrail-İran müharibəsi də ona oxşayır.

İslamabaddakı danışıqlar bir nəticə verмədi, hər kəs öz sözünün üstündə durdu.

İran nümayəndələrinin rəhbərləri ABŞ-ın vitse-prezidentini yola salanda dedi:

**- Gedin, gedin, sizə iki dənə elə yumruq qoymuşam ki, istisini bir həftədən sonra biləcəksiniz.**

Və ya başqa cür yanaşın. Yenə iki nəfər dalaşır. Biri o birisini altına yıxıb döyür, döyə-döyə də ağlayır. Kənardan baxanlar deyir:

**- Həm döyürsən, həm də ağlayırsan, niyə?**

**- Bilmirsiz ey, bu ayağa durandan sonra məni öldürəcək.**

İndi deyəsən, Amerika da İranın ayağa durmasından qorxur və vaxt qazanmaq istəyir.

**Aqil ABBAS**

# Hüquq-mühafizə orqanları əməkdaşlarının NƏZƏRİNƏ!

**"Ədalət" qəzetinin regionlar üzrə redaktor müavini, Azərbaycanın tanınmış jurnalisti, yazıçı-publisist Məzahir Əhmədoğlunun imzası hər kəsə məlumdur. Təəssüf ki, dələduzluq edən bir şəxs Məzahir Əhmədoğlunun adından və nüfuzundan istifadə edərək ayrı-ayrı idarə və müəssisə rəhbərlərinə, iş adamlarına, millət vəkillərinə, hətta hüquq-mühafizə işçilərinə telefonla müraciət edərək pul dilənir!!!**

**Həmin dələduz öz müraciətində "60 illik yubileyini" qeyd etmək, "qəzaya düşdüyü üçün" yardıma ehtiyacı olduğunu və digər bəhanələri dilə gətirərək həyasızcasına pul istəyir.**

**Sonuncu dəfə həmin şəxs 070-200-58-16 nömrəsindən istifadə edib. "Ədalət" qəzeti olaraq bildiririk ki, Məzahir Əhmədoğlunun adından istifadə edən həmin şəxs mətbuata yad bir şərəfsizdir və hüquq-mühafizə orqanlarına üz tuturuq:**

**BU ŞƏRƏFSİZİ TAPIN VƏ QANUNLA CƏZALANDIRIN!**

# Prezident İlham Əliyev Türkiyədə səfərdədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 16-da Türkiyəyə işgüzar səfərə gəlib.**

Adalet.az xəbər verir ki, Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşıladılar.

# Nazirlər Kabinetinin bəzi səlahiyyətləri ləğv edilib

**Nazirlər Kabinetinin bəzi səlahiyyətləri ləğv edilib, hərbi xidmət sahəsində isə yeni tənzimləmələr tətbiq olunub.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Əmək Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Qanunlara edilən dəyişikliklərdə əksini tapıb. Dəyişikliklərə əsasən, bir sıra hallarda "hərbi komissarlıq" anlayışı "müvafiq icra hakimiyyəti orqanı" ilə əvəz edilib, həmçinin "həqiqi hərbi xidmət" anlayışı ilə bağlı dəqiqləşdirmələr aparılıb. Bundan əlavə, hərbi qeydiyyat, çağırış və xidmətə qəbul qaydaları yenilənib, bəzi maddələr ləğv olunub və yeni normalar müəyyən edilib. Dövlət başçısı müvafiq Qanunun icrası ilə bağlı Fərman imzalayıb.

# Prezident Kolumbiyanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nelsi Rakel Munar Xaramiyonu qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Kolumbiyanın coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, ikitərəfli münasibətlərin yaxşı səviyyədə qurulduğunu dedi və müxtəlif sahələrdə əməkdaşlığı genişləndirməyin əhəmiyyətinə toxundu. Prezident İlham Əliyev siyasi əlaqələrimizə əsaslanaraq iqtisadi, investisiyalar, turizm və digər sahələrdə münasibətləri dərinləşdirməyin önəmini vurğuladı. Azərbaycan Prezidenti İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Ölkəmizdə Kolumbiyanın ilk qadın səfiri olmasından şərəf hissi duyduğunu deyən Nelsi Rakel Munar Xaramiyo siyasi dialoqu və əlaqələrimizi möhkəmləndirmək, həmçinin əməkdaşlıq üçün yeni imkanların aşkarlanması istiqamətində səylə çalışacağını bildirdi.

Səfir Kolumbiya tərəfindən Azərbaycanda ispan dilinin təşviqi məqsədilə bu dilin tədrisi üzrə kursların təşkil olunduğunu, azərbaycanlı tələbələrin və mütəxəssislərin bu proqramda fəal şəkildə iştirak etdiyini məmnunluqla vurğuladı.

Söhbət zamanı ötən il Azərbaycanla Kolumbiya arasında "ASAN xidmət" modelinin bu ölkədə tətbiqi ilə bağlı anlaşma memorandumunun imzalandığı xatırlandı. Görüşdə Azərbaycan ilə Kolumbiya arasında kənd təsərrüfatı, ərazilərin minalardan təmizlənməsi, təhsil, mədəniyyət və digər sahələrdə münasibətləri genişləndirməklə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycanla Kolumbiyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığına toxunuldu, bu xüsusda hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda bir-birini dəstəklədiyi məmnunluqla vurğulandı. Söhbət zamanı parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi, qarşılıqlı təmasların, həmçinin səfirlərin sayının artırılması və maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

# Sahibə Qafarova İstanbulda özbəkistanlı həmkarı ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın (PAİ) İstanbulda keçirilən 152-ci Assambleyası çərçivəsində Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş zamanı iki qardaş ölkə arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə edilib.**





Eyni zamanda, parlamentlərin də bu əməkdaşlığa verdiyi töhfə xüsusi vurğulanıb.

Söhbətdə parlamentlər arasında həm ikitərəfli qaydada, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətinə toxunulub.

Tərəflər parlament təşkilatları çərçivəsində həmrəylikdən və qarşılıqlı dəstəkdən məmnunluqlarını ifadə ediblər.

Bu çərçivədə PAİ-nin mühüm platforma olduğu diqqətə çatdırılıb, eyni zamanda qeyd edilib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi də iki ölkə parlamentinin əməkdaşlığı üçün mühüm önəm daşıyır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# "Əgər İslamabadda ikinci görüş və danışıqlar da uğursuz nəticələnərsə"

**"28 fevralda başlayan ABŞ-İsrail müharibəsi qlobal iqtisadiyyatda xeyli stress yaradıb. İran Hörmüz boğazından mal və neft axınını dayandırdığı üçün ölkələrin bir çoxu enerji şoku ilə üzləşib. İran müharibə zamanı xeyli canlı itki verib, hərbi və mülki obyektləri dağıdılıb, bir çox Körfəz ölkəsi də mülki müəssisələrinə, enerji və digər iqtisadi infrastrukturlara hücumlara məruz qalıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, 7 aprel 2026-cı il tarixində atəşkəs və sonrakı sülh danışıqları Fars körfəzində davamlı sülhə ümidlər yaratdı:

"Atəşkəsin əsas təşəbbüskarlarından biri Çin idi. Ancaq ABŞ Çini rəqib hesab etdiyindən, Pekinin rəsmi vasitəçilik və ya yardımçı roluna razılaşmadı. Hindistan ABŞ ilə yaxşı münasibətlərə malik olsa da, iki ölkə arasında ticarətdə xeyli gərginlik olub. Son bir ildə Tramp administrasiyasının bəzi yüksək vəzifəli şəxsləri Hindistana qarşı istifadə edilən sərt ritorika münasibətlərə mənfi təsir edib. Buna görə də, Hindistanın hazırkı İran müharibəsində birinci seçim vasitəçisi olması ehtimalı az idi. Halbuki, Hörmüz boğazındakı gərgin vəziyyət Çinlə yanaşı Hindistanın da iqtisadi maraqlarına mənfi təsir edir. Doğrudur, Hindistan tankerləri Hörmüz boğazından keçidə görə İrana rüsum ödəməyiblər. Bu barədə İranın Yeni Dehlidəki səfirinin açıqlaması var. Ancaq ABŞ Hörmüz boğazını mühasirədə saxlamaqda davam edərsə, Hindistanın İrandan neft alması çətinləşəcək. ABŞ buna imkan verməyəcək. Bu arada, Hindistan bayrağı altında üzən 15 gəmi gəmi Fars körfəzində ilişib qalıb. Hindistanın xam neft və sıxılmış qazının təxminən yarısı isə Hörmüz boğazından keçir".

O, bildirib ki, Pakistan hökuməti ABŞ və İran nümayəndələrinin növbəti görüşünü də İslamabadda keçirmək istəyir: "Ancaq bunun üçün Tehran Hörmüz boğazına nəzarət etməyəcəyinə dair Vaşinqtona mesaj göndərməlidir. İran bu nəzarətdən imtina etməlidir ki, ABŞ da boğazdan çıxan gəmilərin yoxlanılmasına son qoysun. Əgər İslamabadda ikinci görüş və danışıqlar da uğursuz nəticələnərsə, bu müharibənin yenidən alovlanmasına gətirib çıxaracaq. Bütün hallarda İslabamaddakı son danışıqlar gözlənilən nəticəni verməsə də, sülh prosesini irəlilətməyə ehtiyac var. Avropa İttifaqı da vəziyyətin sabitləşməsini səbirsizliklə gözləyir. Çünki Hörmüz boğazı ətrafındakı gərginlik Avropa ölkələrinin iqtisadiyyatlarına da mənfi təsir edir. Hörmüz boğazı ətrafındakı gərginlik Körfəz ölkələrinin enerji resurslarını alternativ yollarla dünya bazarlarına daşınmasına vadar edəcək. Misal üçün Körfəz ölkələri boru xətlərinin tikintisi barədə düşünə bilərlər. Ancaq bu xətlərin tikintisinə uzun illər sərf olunacağından müharibədən əvvəlki gəlirlər əldə edə bilməyəcəklər".

E.Şahinoğlu deyib ki, Azərbaycan nümunəsi göstərir ki, neft və qaz resurslarının dünya bazarlarına çatdırılmasında şaxələndirilmə mühüm əhəmiyyət kəsb edir: "Azərbaycan 1994-cü ildə "əsrin müqaviləsini" imzaladıqdan qısa müddət sonra neftin dünya bazarlarına daşınması məqsədilə 3 boru xəttinə malik idi. Birində problem yarananda, digər xətdən istifadə etmək mümkündür. İran və Körfəz ölkələri neftin bazarlara alternativ çatdırılma xətlərinə malik deyillər".

**Vasif ƏLİHÜSEYN**

*Aqil ABBAS*

# "ÇİNAR ÖMRÜ" SERİALINA BAXMAĞA DƏYƏR

*Son illər ölkəmizdə xeyli seriallar çəkilib və çəkilməkdədir. Adətən mətbuatda bu seriallar çox vaxt tənqid olunur. Bu tənqidlərin də haqlı tərəfləri var. Bu hələ yeni sahədi, görünür, hələ yetişməmişik. Bunun səbəblərindən biri mövzuların bəsit olması, peşəkar aktyorların az qonorar verildiyinə görə seriallara çəkilmək istəməməsidirsə, başqa bir səbəbi isə hələ ölkədə serial çəkəcək rejissorların azlığı və ssenaristlərin qıtlığıdı.*

*Serial rejissorları və ssenaristlər hələ tam təkmilləşməyiblər. Məktəb yeni yaranıb, bunları da qınamaq olmaz, hələ ibtidai sinifdəyik.*

*Rac Kapurun oğlu bir film çəkir, neçə milyon pul xərcləyir, amma film alınmır, Rac Kapur gülümsəyib deyib ki, eybi yox, ikinci film yaqin alınar. Düzdür, bizim elə pulumuz yoxdur, hər halda inanıram ki, yaxın zamanlarda bizdə də güclü, xüsusilə də tarixi seriallar çəkiləcək, çəkə biləcəyik.*





*Türkiyə öz serialları ilə bütün Avropanı, Rusiyanı, Şərqi, qısası, bütün dünyanı zəbt edib. Amma bu da birdən-birə olmayıb. Serial rejissorları, ssenaristləri yetişdirmək üçün bəlkə Türkiyə məktəbinə müraciət edək? Bu sahədə az-çox imzası görünən şəxsləri Türkiyəyə oxumağa göndərək? Əvvəl Moskva vardı rejissolrlarımız, ssenaritslərimiz, aktyorlarımız gedib təhsil alırdı. İndi Moskva yoxdur, Allaha şükür ki, Türkiyə var, elə də uzaqda deyil.*

*Deyəsən, giriş çox uzun oldu, gələk mətləbə.*

*Bu günlərdə təsadüfən Youtube kanalında "Çinar ömrü" deyilən bir seriala baxdım. Serial hələ davam edir, mən iki bölümünü izlədim. Quruluşçu rejissoru Kənan MM, ssenari müəllifi Elçin Muradov olan bu serial diqqətimi cəlb etdi. Dedektiv üslubda çəkilmiş film əslində bəyəndiyimiz türk seriallarından heç də geri qalmırdı və tamaşaçını hər an həyəcanda saxlayırdı. Hadisələr sürətlə dəyişir və bu hadisələrin necə bitəcəyi tamaşaçıları intizarda saxlayırdı. Ölkəmizdə çəkilən əvvəlki seriallardan bir fərqi də o idi ki, filmin musiqisi əsərlə tam üst-üstə düşür. "Kurtlar vadisi"nin, "Mehmed: Fetihlər sultanı"nın musiqisi kimi həyəcanlı idi. Bəstəkar Toğrul Mahmudova (təbii ki, bütün musiqi onun deyil) əla düşür.*

*Filmdə peşəkar aktyorlar Kənan MM, Aqil M.Quliyev, Əjdər Zeynalov və Zülfiyyə xanım öz rollarının öhdəsindən layiqincə gəlirlər.*

*Serial ARB kanalında yayımlanır, 9 bölümdən ibarətdir. Mənim fikrimcə, bu serial bir yenilikdir, gələcəkdə çəkiləcək filmlərin başlanğıcı ola bilər.*

*Və ümumiyyətlə, bu seriala baxmağa dəyər.*

## *"Türkiyəyə düşmən olan ölkə Azərbaycana da düşməndir"*

**"Türkiyəyə düşmən olan ölkə bizə dost ola bilməz. Türkiyə Ermənistanın Azərbaycana qarşı düşmən və işğalçı siyasətinə görə hələ də bu ölkə ilə sərhədləri açmır. Türkiyə Azərbaycanın qardaş ölkəsidir və biz Türkiyə ilə birgə bir çox uğurlara imza atmışıq. Qarabağ müharibəsində Türkiyə və Pakistan Azərbaycana siyasi dəstək verib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, bildirib ki, İsrailin Baş naziri B.Netanyahu cənab R.T.Ərdoğan barədə xoşagəlməz ifadələr işlədir. Hədəfin Türkiyə olacağı İsrail rəsmiləri tərəfindən daima qeyd edilir:

"Türkiyəyə düşmən olan ölkə Azərbaycana da düşməndir. Türkiyə qədər heç bir ölkə bizə dost və yaxın ola bilməz. 1918-ci ildə bizim Cümhuriyyət qurmağımıza kömək edən, daşnak ermənilərin soyqırımından qurtaran türk qardaşlarımız olub. Keçmiş SSRİ vaxtında Türkiyənin diqqəti Azərbaycana olub. İkinci Qarabağ müharibəsində Türkiyə bəzi dövlətləri neytrallaşdırdı. F16 qırıcıları Azərbaycana göndərdi. 2001-ci ildə İranın aqressiyadan bizi müdafiə edən Türkiyə oldu. Bu gün İsrailin Baş naziri və onun hökumət üzvləri qardaş Türkiyəyə qarşı düşməncəsinə hərəkət edir. İsrail başa düşmür ki, Türklər tarix boyu yəhudiləri qoruyub. Onlara şərait yaradıb. Yəhudilər yalnız Türklərin arasında yaşayanda təhlükəsiz olublar".

**Sübhan**

# Politoloq: "Bu gün biz yeni savaşlar dönəmində yaşayırıq..."

**"Prezident Əliyev Zəfər çıxışları ilə qələbəni xalqla böldü və ya başqa liderlərin xalqa müraciətləri niyə eşidilmir. Bu gün elə bir tarixdən keçirik ki, savaşlar ya öz liderlərini yaradır, ya da liderlərini dəfn edir. Şübhəsiz ki, güc faktoruna arxalanmaq heç də həmişə həlledici olmaya bilər. Çünki əsas məsələ burda haqlı olmaq aspektinə söykənir. Bizim də savaşımızda bu cür yol keçdik".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

O, bildirib ki, ədalət pozulmuş, haqqımız tapdanmış və torpaqlarımız işğal edilmişdi: "Lakin dövlət ağlının prinsipiallığı və bu gedişatı heç zaman qəbul etməməsi əsas qırmızı nöqtələri təşkil edirdi deyə, deyil 30 il, nəsillər də dəyişib, 70 il də keçsə idi, Azərbaycan o torpaqları qaytarmağa can atacaqdı. Sadəcə optimal nəticələr üçün adekvat rəhbərliyə ehtiyac vardı və bu rəhbər Prezident İlham Əliyev idi".



Politoloqun sözlərinə görə, bu gün biz yeni savaşlar dönəmində yaşayırıq:

**"Günümüzdə - 2020-ci il zəfərindən sonra onlarla müharibə baş verib. Son 6 ildə Şimalımızda və Cənubumuzda indi də davam edən savaşlar mövcuddur. Hər iki cəbhənin düşmən rəhbərləri öz xalqlarına, maraq kütlələrinə xitab edirlər. Lakin heç biri bizim müqəddəs savaşımızın nəticələrinə gətirmir. Hətta günümüzdə - ABŞ və İranın özünü qalib etdiyi qəribə müharibədə də liderlər xalqlarına müraciət etməkdədirlər. Amma ovuda bilmirlər, çünki ilahi ədalət müharibə meydanlarını çoxdan tərk edib. Faktiki olaraq, keçirilən rəy sorğuları liderləri olduqca mübahisəli bir vəziyyətə salıb və onları ictimai dəstəkdən məhrum olduqlarını aşkar edibdir".**

**Vasif ƏLİHÜSEYN**

# "Belə olan halda ABŞ vətəndaşlarının qəzəbi Trampa yönəlib"

**"Pakistanın baş naziri Şahbaz Şərif və bu ölkənin digər rəsmiləri ABŞ və İran nümayəndələrinin İslamabadda müzakirələrdə nəticə əldə edəcəyinə ümidli idilər. Pakistan paytaxtında yüksək səviyyədə qarşılanan ABŞ və İran rəsmiləri üçün hər cür şərait yaradılmışdı. Ancaq tərəflər güzəştə getmədilər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, ABŞ və İranın bir-birlərinə təqdim etdikləri tələblər ətrafında ortaq məxrəcə gələ bilmədilər:

"Halbuki, iki məsələ - uranın zənginləşdirilməsi və Hörmüz boğazıyla bağlı razılaşma əldə etmək mümkün olsaydı, digər məsələlərin razılaşdırılmaması böyük əhəmiyyət kəsb etməyəcək və digər bəndlər danışıqların sonrakı mərhələsinə saxlanılacaqdı. Ancaq İran əvvəlkitək uranın zənginləşdirilməsindən tamamən imtina etmək istəmir. Müharibədən əvvəl beynəlxalq aləmin Hörmüz boğazının təhlükəsizliyi kimi problem yox idi".

Politoloq bildirib ki, bu haribə dövründə və sonrasında yaranan problemdir:

"Tehran Hörmüz boğazına nəzarətdən imtina etmək istəmir. ABŞ Prezidenti Donald Tramp bir sıra açıqlamalarında Hörmüz boğazının İranın nəzarətində olmasını onu maraqlandırmağıdını, ölkəsinin kifayət qədər nefti və qazı olduğunu söyləsə də, boğazının açılması üçün müxtəlif addımlar atacağını bildirib. Demək, hər halda Hörmüz boğazının İranın nəzarətində qalması Trampı ciddi narahat edir. Çünki, Hörmüz boğazındakı qeyri-sabit vəziyyət dünyada enerji daşıyıcılarının qiymətlərini qaldırıb, bu isə ABŞ vətəndaşlarının ciblərinə təsir edib.

Belə olan halda ABŞ vətəndaşlarının qəzəbi Trampa yönəlib. Pakistanda nəticənin əldə edilməməsi Pekin üçün yaxşı xəbər deyil. Çin ABŞ-la İran arasında atəşkəsin əsas memarıdır. Pakistanın xarici işlər naziri İshaq Dar çinli həmkarı Vanq Yi ilə 5 maddəlik plan irəli sürmüşdü. Bu atəşkəs, mülki infrastrukturun qorunması, Hörmüz boğazından gəmiçiliyin bərpası və BMT Nizamnaməsinə uyğun sülhün əldə olunmasıydı. Bunlardan yalnız atəşkəs qəbul olundu. Ancaq indiki atəşkəs də kövrəkdir.

Yeni müharibə Çinin enerji daşıyıcılarına çıxışını yenə əngəlləyəcək. Görünür, Donald Trampa bu lazımdır.Bu arada, Donald Tramp artıq neçənci dəfədir vitse-prezident Ceyms Vensi pis vəziyyətdə qoyub.

Tramp Vensi İslamabada ona görə göndərmişdi ki, İran tərəfi ABŞ-ın əsas iki tələbini (uranın zənginləşdirilməsinin dayandırılması və Hörmüz boğazının açılması) qəbul etsin. Vens qarşı tərəfi bu iki tələbi yerinə yetirməyə inandıra bilmədi. Bundan əvvəl isə Tramp mitinqlərin birində Vensə işarə edərək, İrana qarşı müharibəni məhz vitse-prezidentin məsləhəti ilə başladığını vurğulamışdı.



Trampın vitse-prezidentə növbəti zərbəsi onu Macarıstana göndərməsiydi. Vens Macarıstana gedib bu ölkədə parlament seçkisində artıq keçmiş baş nazir Viktor Orbana Ağ Evin dəstəyini ifadə etdi.

Halbuki, Macarıstanda keçirilən bütün sorğular seçkidə Viktor Orbanın məğlub olacağını göstərirdi. Tramp bunu bilə-bilə Vensi Orbana dəstək məqsədilə Budapeştə göndərməyə qərar verdi. Tramp bu addımlarıyla gələcəkdə Vensin Respublikaçılar Partiyasından Prezidentliyə namizədliyinə gölgə salmış olur".

**Sübhan**

# "Karapetyanın hakimiyyətə gəlişi yaxşı heç nə vəd etmir..."

**""Güclü Ermənistan" partiyasının lideri, ev həbsində olan iş adamı Samvel Karapetyan İrəvanın Azadlıq meydanında keçirilən mitinq iştirakçılarına göndərdiyi video müraciətində hakimiyyətə gələcəyi halda 300 min iş yeri yaradacağını, Rusiya ilə strateji ittifaqı bərpa edəcəyini, diaspora ilə əlaqələri gücləndirəcəyini, kilsənin rolunu yenidən artıracağını vəd edib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, Samvel Karapetyan baş nazir Nikol Paşinyanın "müxalifət hakimiyyətə gələrsə, sentyabr ayında Azərbaycanla müharibə başlayacaq" tezisinə belə cavab verib ki, o müharibəyə başlamaq fikrində deyil:

"Buna baxmayaraq, Karapetyan müraciətində Azərbaycanla sülh quruculuğu, Ermənistan Konstitusiyasının dəyişdirilməsi məqsədilə referendumun keçirilməsi və "Tramp yolu" barədə heç nə deməyib, əksinə "Artsaxda etnik təmizləmə həyata keçirilib" iddiasını səsləndirib. Paşinyan haqlıdır. Samvel Karapetyan kimi birisinin hakimiyyətə gəlişi sülh quruculuğuna və bölgə ölkələri arasında əməkdaşlıq üçün yaxşı heç nə vəd etmir.



Ermənistanda seçki kampaniyası bu ölkənin daxili işi olsa da, fikrimcə, Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanda müxalifətdən olan namizədlərin təxribatçı açıqlamalarına reaksiya verməsinə ehtiyac var.

Məsələn bəyan edilməlidir ki, Ermənistanda seçkidən sonra formalaşan hökumət sülh quruculuğundan və əvvəlki razılaşmalardan imtina edərsə, bunun həm iki ölkə arasındakı münasibətlərə mənfi təsirləri olacaq, həm də bölgədə yeni müharibə riski yaradacaq. Bu bəyanat ona görə əhəmiyyətlidir ki, Ermənistan vətəndaşları seçkidə doğru seçim etsinlər".

**Vasif**

*Vüqar Abbasov*
*Avropa Xəbər Agentliyinin (European News Agency) əməkdaşı*



# Qalib olmayan qaliblər

*ABŞ ilə İran arasında aparılan danışıqlar nəticəsiz başa çatdı. Əslində bunu gözlənilməz hesab etmək olmaz. Mütəxəssislərin fikrincə, hər iki tərəfin irəli sürdüyü şərtlər qarşı tərəf üçün qəbuledilməz idi. Təsadüfi deyil ki, atəşkəs elan olunarkən hər iki tərəf özünü qalib kimi təqdim edirdi. Azərbaycanda buna "arxı tullanmadan hop demək" deyirlər, yəni nəticə əldə olunmadan uğur elan etmək.*

*ABŞ və İran da məhz belə davrandı. Atəşkəsin tezliklə pozulacağı gözlənilir. Hətta mümkündür ki, mən bu sətirləri yazarkən artıq bu baş verib, baxmayaraq ki, atəşkəsin 22 aprelədək qüvvədə qalması razılaşdırılmışdı.*

*ABŞ İrandan nə istəyir? Məlumdur ki, ABŞ 1995-ci ildən İrana qarşı ticarət embarqosu tətbiq edir və bunun səbəbləri də kifayət qədər aydındır. Son danışıqlarda əsas müzakirə mövzuları Hörmüz boğazı və İranın nüvə proqramı idi. Lakin tərəflər razılığa gələ bilmədi və yaxın zamanda da belə bir razılaşma gözlənilmir.*

*Bu qarşıdurma təkcə ABŞ və İrana deyil, dünyanın bir çox ölkələrinə iqtisadi təsir göstərib. Neft və yanacaq qiymətləri rekord səviyyəyə yüksəlib. Bəzi siyasi şərhçilərə görə, ABŞ-ın bu münaqişəsi yalnız İranla deyil, eyni zamanda Çin və Avropa İttifaqına qarşı da yönəlib.*

*Təsadüfi deyil ki, Prezident Donald Tramp dəfələrlə Avropa ölkələrini NATO çərçivəsində ABŞ-a yetərincə dəstək verməməkdə ittiham edib. Bununla belə, o, hələ də müttəfiqlərin dəstəyinə ümid etdiyini bildirir.*

*Danışıqların uğursuzluğundan sonra Tramp ABŞ Hərbi Dəniz Qüvvələrinin Hörmüz boğazını blokadaya alacağını elan edib. Eyni zamanda, ABŞ İran tərəfindən yerləşdirildiyi iddia edilən minaların təmizlənməsi işlərinə başlayıb. Tramp qeyd edib ki, Böyük Britaniya da daxil olmaqla bir sıra ölkələr bu prosesə mina təmizləyən gəmilər göndərməklə dəstək verir. O, həmçinin beynəlxalq sularda İrana "rüsum" ödəyən gəmilərin saxlanılması barədə göstəriş verib və bunu "qlobal reketlik" kimi qiymətləndirib.*

*Bundan sonrakı proseslərin necə inkişaf edəcəyi olduqca maraqlıdır. Çünki heç bir tərəf geri addım atmaq niyyətində görünmür. ABŞ üçün geri çəkilmək Prezident Tramp və onun siyasi qüvvəsi üçün ciddi nüfuz itkisi demək olardı. İran üçün isə bu, həm mövcud rejimin zəifləməsi, həm də regiondakı təsir imkanlarının azalması ilə nəticələnə bilər.*

*Müharibənin başa çatması üçün İranın nüvə silahı proqramından imtina etməsi və Hörmüz boğazını açması, ABŞ-ın isə İran neftindən asılılığı azaltması tələb olunur. Lakin bunun üçün neftin qlobal əhəmiyyətinin azalması lazımdır. Hazırda isə neft hələ də strateji baxımdan böyük dəyərə malikdir.*

*Hillary Clinton "Çətin seçimlər" kitabında "siyasəti ilə razılaşmadığımız, lakin əməkdaşlığına ehtiyac duyduğumuz dövlətlər" anlayışından bəhs edir. Ola bilsin ki, gələcəkdə ABŞ İranla münasibətlərdə də bu yanaşmanı tətbiq etsin.*

*Hələlik isə əsas sual açıq qalır: danışıqlar davam edəcək, yoxsa qarşıdurma daha da dərinləşəcək? Başqa sözlə desək, alova su töküləcək, yoxsa neft?*

***Niderland***

# "Macarıstanda güclü seçki institutu var və əhali ona etimad göstərir"

**"Macarıstanda dünənki parlament seçkilərində, əsl demokratik mübarizə və yüksək seçici fəallığı şəraitində müxalifət lideri qalib gəldi. İndi bütün Avropa bu seçkilərdə baş nazir V.Orban və P.Madyar arasındakı mübarizənin nəticəsindən məmnundur. Demokratiyaya olan ümidlər yenidən dirçəlir".**

Adalet.az xəbər verir ki, bunu professor Qulu Məhərrəmli deyib.

O, bildirib ki, ABŞ, Rusiya və daha bir neçə ölkə lideri Orbana açıq dəstək verirdi, amma xeyri olmadı:

"Nəticə göstərdi ki, Macarıstanda güclü seçki institutu var və əhali ona etimad göstərir. V.Orban Azərbaycanla dost idi, yaxşı əlaqələrimiz vardı, o, öz ölkəsini türk kökənli sayır, Türk dövlətləri təşkilatına dəstək verir, Türkiyə ilə dərin əməkdaşlıq edirdi, 16 illik hakimiyyətinin ilk illərində öz ölkəsində də xeyli populyar idi. Amma son illərdə onun Avropa İttifaqı ilə konfliktə girməsi, yanlış miqrant siyasəti, maliyyə uğursuzluqları, Rusiya yönümlü davranışları, Ukrayna əleyhinə addımları xalqda ciddi narazılıq yaratmışdı. Xalq Orbandan bezmişdi. Əlbəttə, Peter Madyarın hakimiyyətə gəlişi ilə Macarıstanın siyasətində müəyyən korreksiyalar olacaq, amma radikal dəyişikliklər baş verməyəcək. O cümlədən Türkiyə və Azərbaycanla münasibətlər də dəyişiklikdən bu zərər çəkməyəcək".

**Sübhan**

**Bu ilin ilk 3 ayı ərzində yol qəzalarında həlak olan sürücü və sərnişinlərin 33,6 faizi, yaralananların isə 29,1 faizi təhlükəsizlik kəmərini bağlamayan şəxslər olub. Bu barədə Baş DYP İdarəsinin yaydığı məlumatda bildirilib.**



məlumdur: "Amma ilk öncə bu bizim öz təhlükəsizliyimiz üçün çox vacibdir. Statistik rəqəmlərə baxanda biz görürük ki, baş verən qəzaların bir çoxunda əgər sürücü təhlükəsizlik kəmərini taxmayıbsa, onun nəticəsi çox ağır olur. Ya ağır xəsarət alır, ya da ölümlə nəticələnir. Ölümlə nəticələnən belə hadisələr də çox olub".

E.Cəfərovun sözlərinə görə, onu da qeyd etmək lazımdır ki, əvvəlki illərə nisbətən son illər ərzində Azərbaycanda avtomobil sürən insanların böyük əksəriyyəti təhlükəsizlik kəmərinə üstünlük verir:

"Bu maariflənmənin nəticəsi ola bilər, həmçinin də cərimələr də burda tənbeh kimi öz rolunu oynayır. Amma təhlükəsizlik kəməri taxan sürücülərimizin sayı çoxdur. Xüsusən də Bakı şəhərində təhlükəsizlik kəməri daha çox taxılır. Digər

# "Məşhur şəxslərin bu hərəkəti digər insanlar üçün pis örnəkdir"

Mövzuyla bağlı Adalet.az-a danışan nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov bildirdi ki, təcrübəli sürücülər təhlükəsizlik kəmərinin əhəmiyyətini çox yaxşı bilirlər.

Onun sözlərinə görə, belə sürücülər avtomobilə əyləşən kimi təhlükəsizlik kəmərini bağlayırlar və bunu sərnişinə də təklif edilər:

"Əslində sərnişinlərin də təhlükəsizlik kəmərini bağlaması birbaşa olaraq sürücünün vəzifələrindən biridir. Yəni sürücü mütləq qaydada avtomobilə əyləşən bütün sərnişinlərə təhlükəsizlik kəmərinin bağlanması ilə bağlı məlumat verməlidir. Onun bağlanmasının vacibliyini deməlidir".

Ekspert bildirib ki, təhlükəsizlik kəmərinin bağlanmamasına görə sürücüyə inzibati qaydada cərimənin yazılması şəhərlər və bölgələrdə təhlükəsizlik kəmərinin əhəmiyyətinə o qədər də fikir verməyən sürücülər ola bilər. Bunun da göstəricisi statistik göstəricilərdə əks olunub".

Əkspert təəssüflə qeyd edib ki, bəzi sosial şəbəkə fenomenləri, geniş auditoriyası olan şou-biznes simaları, müğənnilər zaman-zaman avtomobil idarə edərək çəkilişlər edirlər:

"Bu çəkilişlərdə də görünür ki, onlar təhlükəsizlilk kəməri taxmayıblar. Bu isə digər insanlar üçün çox pis örnəkdir. Yəni bu məşhur insanlar öz məsuliyyətlərini dərk etməlidirlər. Məlumdur ki, bu məşhur şəxslər qayda pozduqlarına görə Dövlət Yol Polisinə dəvət olunub və onlarla da maarifləndirici söhbətlər aparılıb".

**Vasif ƏLİHÜSEYN**

# "Orban Avropa İttifaqı daxilində ən problemli liderlərdən biri hesab olunurdu"

**"Orban seçkiləri uduzdu. Bu nəticə Macarıstan daxilində siyasi dəyişiklikdən çox geniş geosiyasi balansın göstəricisidir. Orban Donald Trump üçün Avropada uyğun siyasi fiqur idi və açıq şəkildə dəstəklənirdi. Eyni zamanda onun siyasəti Rusiya və Çin üçün də əlverişli idi. Bu baxımdan Orban Qərb daxilində alternativ xəttin daşıyıcısı idi".**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, Azərbaycan üçün isə Orban fərqli mənada əhəmiyyətli idi:

"O, Azərbaycanı Macarıstanın iqtisadi siyasətində prioritet tərəfdaşlardan biri kimi qiymətləndirirdi. Enerji əməkdaşlığında Bakını Avropa üçün mühüm təminatçı kimi təqdim edir, strateji tərəfdaşlıq xəttini ardıcıl şəkildə dəstəkləyirdi. Yüksək səviyyəli təmaslar və siyasi dəstək bu münasibətləri daha da gücləndirirdi. Amma eyni zamanda Orban Avropa İttifaqı daxilində ən problemli liderlərdən biri hesab olunurdu. Bir çox qərarların qəbulunda manеə yaradır, birlik daxilində parçalanma riskini artırırdı. Bu səbəbdən onun hakimiyyətdə qalması Aİ üçün arzuolunan deyildi. Nəticə göstərdi ki, Aİ qlobal miqyasda təsir imkanlarını tam gücləndirə bilməsə də, öz daxilində siyasi nəzarəti hələ də saxlaya bilir və strateji maraqlarını qorumaq qabiliyyətinə malikdir.Orbanın məğlubiyyəti ilk növbədə Avropada Rusiyaya yaxın xəttin zəifləməsi kimi oxunmalıdır".

İqtisadçı bildirib ki, Macarıstan iqtisadiyyatına gəlincə isə, o, Avropa ölkələri ilə müqayisədə orta səviyyədə qiymətləndirilir:

"Amma iqtisadiyyat xarici investisiyalardan və Aİ-dən gələn maliyyə dəstəyindən çox asılıdır.Yeni hökumət Aİ ilə münasibətləri normallaşdırsa, bu, ölkəyə daha çox maliyyə və investisiya cəlb edə bilər və iqtisadi sabitliyi gücləndirə bilər. Azərbaycana gəldikdə isə vəziyyət daha praqmatikdir.

Ölkənin balanslı və strateji xarici-iqtisadi siyasəti, xüsusilə enerji resursları və etibarlı tərəfdaş imici Macarıstanda hakimiyyətə gələcək yeni komanda ilə də yüksək səviyyəli əməkdaşlığı davam etdirməyə imkan verəcək.Çünki bu əməkdaşlıq şəxslərə yox, maraqlara əsaslanır.

Macarıstanla birgə həyata keçirilən strateji layihələr, o cümlədən yaşıl enerji dəhlizi üzrə təşəbbüslər (Rumıniya və Macarıstanla imzalanmış memorandum çərçivəsində) bu münasibətlərin davamlı xarakter daşıdığını göstərir.

Əlqərəz, Orban getdi, amma Azərbaycan və Macarıstan əməkdaşlığı qalacaq".

**Sübhan**

# Millət vəkili: "Artıq bir sıra dövlətlər 35 faizlik hədəfi müəyyənləşdirib"

**"Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatının müzakirə olundu. Müzakirə zamanı qeyd etdim ki, monitorinq göstəricilərində ənənəvi istiqamətlər üzrə hədəflərə nail olunsa da daha innovativ sahələrdə hədəflər reallaşmamışdır".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, səmərəlilik auditlərinin ümumi audit portfelində payı 15 faizdən çox hədəflənsə də, 14.0 faiz nəticə əldə edilib:

"Çox vacib istiqamətlərdən olan İS auditinin elementləri tətbiq edilən auditin ümumi audit portfelində payı 16.0 faizdən çox hədəflənsə də, nəticə 14.0 faiz olub. Monitorinq göstəriciləri ilə bağlı cədvəldə daha məqsədəuyğun olardı ki, ayrıca bir bölmədə nail olunmayan hədəflər üzrə səbəblər ayrıca göstərilsin. Eyni zamanda, istifadə edilən bütün abreviatur və akronimlərin açılışı verilməmişdir. Məsələn, İS audit mətndə qeyd edilsə də onun açılışı verilmir.Səmərəlilik aduitinin sayının artırılması prioritet olaraq qalmaqdadır. INTOSAI, qənaət, səmərəlilik və effektivlik prinsiplərinə uyğun olaraq bu auditin payının artırılması tövsiyyə edir".

O, bir sıra dövlətlərin 35 faizlik hədəfi müəyyənləşdirdiyini bildirib:

"Məsələn, Çexiyada bu göstərici artıq 29.1 faizdir.Palata hesabatda 5 illik fəaliyyət hesabatı da təqdim etmişdir. Bu müsbət haldır. Daha yaxşı olardı ki, palata audit nəticələrinə uyğun olaraq həmin müddətdə təkrarlanan pozuntu və təhrif hallarını və eləcə də irəliləyiş olan istiqamətləri də ayrıca təqdim edərdi.Hesabatda qeyd olunduğu kimi audit və analtik fəaliyyətlər üzrə aşkar edilmiş pozuntuların içərsində büdcə qanunvericiliyinin pozulması halları 51.6 faiz olub. 2024-cü ildə bu rəqəm 45.1 faiz idi. Yəni, 2025-ci ildə büdcə qanunvericiliyi hallarında faiz ifadəsində artım var. Büdcə qanunvericiliyin təkmilləşdirildiyini və rəqəmsallaşmanın genişləndirildiyi halda bunun səbəbləri nədir? 2025-ci ildə başa çatdırılmış auditlərlə uyğunluq elementləri üzrə büdcəyə zərərin məbləği əvvəlki il ilə müqayisədə 50 faizdən çox artaraq 170.4 milyon manat olub".



V.Bayramov deyib ki, bir il ərzində büdcəyə zərərinin məbləğinin 50 faiz artması dövlət vəsaitinin təyinatından yayındırılması hallarının qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsini daha da aktuallaşdırır:

"Eyni zamanda, Hesablama Palatası tərəfindən 2024-cü ildə büdcəyə hesablanmış zərərin 74 faizinin bərpası ilə bağlı qərar qəbul edilsə də bu göstərici 2025-ci ildə 60 faiz olub. Yəni, büdcəyə hesablanmış zərərin hər 100 manatından 40 manatı ilə bağlı bərpa qərarı qəbul edilməyib. Niyə büdcəyə dəymiş ziyanı bərpa etməkdə belə çətinliklər var? Əgər 2024-cü ildə cəmi 8.7 milyon manat hesablanmış zərər üzrə cinayət tərkibinin əlamətlərinin ehtimal olunması ilə əlaqədar müvafiq materiallar hüquq-mühafizə orqanlarına göndərilmişdirsə bu göstərici 2025-ci ildə 40.3 milyon manat olub. Yəni, əvvəlki il ilə müqayisədə Hesablama Palatasının hesablanmış zərər üzrə cinayət tərkibinin əlamətlərinin ehtimal etdiyi məbləğ 4.6 dəfə artıb. Bu isə, büdcə vəsaitlərindən istifadəyə nəzarətin gücləndirilməsi baxımdan ciddi siqnaldır.Hesablama Palatası tərəfindən həyata keçirilən 48 fəaliyyətin (43 audit və 5 analtik fəaliyyət) 75 faizində büdcə qanunvericiliyinin pozulması hallarına rast gəlinib. Eynilə, büdcə vəsaitlərinin idarəedilməsi üzrə nöqsanların aşkar edildiyi fəaliyyətlərin sayı 75 faizdir.

Keçirilən auditlərin 74 faizindən çoxunda dövlət satınalmaları ilə bağlı hüquqi aktların tələblərinin pozulması hallarına rast gəlinib. Bütün bunlar cari maliyyə intizamının daha da gücləndirilməsini aktuallaşdırır.Maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin məbləğində əvvəlki il ilə müqayisədə kəskin azalmalar var. Bu təbii ki, müsbət haldər. Bununla yanaşı, büdcə qanunvericiliyi pozulması halları yüksək rəqəm ilə ifadə olunursa bir il ərzidə maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin 68 faiz, maliyyə hesabatlarında digər qrupa aid edilən təhriflərin 6.3 dəfə azalması nə ilə bağlıdır?".

**Sübhan**

# Politoloq: «Niyə İraqa girən 50 ölkə İranda ABŞ-yə dəstək vermədi?»

**"Arxa planda anqlo-saksonlar dünya savaşı başladılar. Deməli ki, dünyada ancaq İranla Amerika savaşmır. Bu müharibənin arxa planında ortamı fürsət bilib anqlo-sakslarla armageddon kimi qlobal klanlar da savaşa başlayıb. Təsəvvür edin ki, İraqa girən 50 ölkədən heç biri ABŞ-yə dəstək vermir. Orda bəhanə kimyəvi silahlar idisə, burda daha təhlükəli silahlar bəhanə edilir. Üstünə üstəlik Hörmuz boğazı kimi daha təhlükəli strateji "silah" da ortaya çıxıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

O, deyib ki, dünyadakı müharibələrin dövlətlər prizmasından əsasən heç bir məntiqi yoxdur:

"Çünki bütün aparat müharibə lokomotivinə oturur, resurslar sürətlə istismara məruz qalır və külli miqdarda borclanırlar. Qəribədir ki, dövlətlər adına qiymətləndirmə meyarı iqtisadi zərəri insan resursunun itkisi qədər əhəmiyyətsiz görmür. Yaxud da insan potensialının məhvinə sonrakı dövr adına bərpa edilən növ kimi baxılır. Təsəvvür edin ki, Səddam Körfəzə sahib olmaq adına inqilabdan çıxıb, zəif duruma düşmüş İrana hücum edib, xeyli ərazisini işğal etmiş, hər iki tərəfi dəstəkləyən mahiyyətcə eyni qlobal güclərin ucbatından heç bir nəticə əldə etməsə də, təxminən, 2 milyon nəfərin ölümünə səbəb olmuş, hikkəsindən kimyəvi silahlar tətbiq etmişdi. Sırf şəxsi ambisiyaları üzündən, ərəb dünyasının lideri olacaq deyə Küveyti işğal etmiş, Səhrada Tufan əməliyyatı ilə cəmi 100 saatda məğlubiyyətə uğramış və ərəb çölü başdan-başa İraq əsgərlərinin yanmış meyitləri ilə örtülmüşdü".

Onun sözlərinə görə, kommunist diktatorlar Stalin və Mao Tsedunun limitsiz hakim gücü 60-70 milyon insanın fiziki məhvinə səbəb olmuş və onlara eyni dövrdə yaşayan Hitlerlə birlikdə - savaşlarda ən ucuz xammal kimi baxılan insanlıq heç bir mahiyyət daşımayan psixoz hakim gücün qurbanına çevrilmişdilər:

"Sözügedən bütün savaşların aparıcı hərislik məqsədi sırf maddi sərvətlərin ələ keçirilməsi uğrunda idi.Çünki birinci və ikinci dünya müharibələrindən çox zaman keçib. Bəzi dövlətlər öz boyundan çox böyüyüb, yeni ideologiyalar doğulub, cəzalandırılmamış yeni nəsillər meydana gəlib. İkinci dünya müharibəsinin son sakinləri də dünyadan köçmək üzrədirlər. Qlobal sistem çürüyüb, yeni liderlər və yeni hikkələr doğulub. Yeni maraqların təminatı üçün yeni müharibələr qaçılmaz hala gəlib.Bu mərhələdə həmin klanlar hərəkətə keçir - Transmilli Şirkətlər dövlətləri növbəti raunda hazırlayırlar.Bir sözlə, İran savaşı klassik anqlo-sakson imperiyasının keysidir".

**Vasif**

# "ABŞ İranın ideoloji siyasi sistemini nəinki qorumaqda hətta daha da radikallaşdırmaqda..."

**"İrandakı etiraz aksiyalarından sonra xalqın narazılığı hakimiyyəti ciddi şəkildə narahat edirdi. Kifayət qədər yaşlı və operativ qərarlar qəbul etməkdə çətinlik çəkən ali dini liderin fəaliyyətindən hətta rejim daxilindəki siyasi dairələr də narazı idi. Gizli qalmayan məlumatlara görə de-fakto SEPAH-ın idarəçiliyini ələ almış Müctəba Xamenei ilə atası arsında da ziddiyətlər vardı. Etirazlar və etirazçılar hakimiyyəti köklü dəyişikliklərə, islahatlara məcbur edirdi".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib.

Onun sözlərinə görə, Prezident Pezeşkiyanın çıxışları, dini lideri müəyyən islahatların, yumşalmaların qaçılmaz labüdlüyünə inandırması, xüsusən Türkiyə, Azərbaycan və ümumiyyətlə qonşularla, müsəlman ölkələri ilə münasibətləri yaxşılaşdırmağa çalışması hakimiyyətin siyasi kursunda yeniliklər olacağını aydın göstərirdi: fürsət vermədən, adi şəraitdə bəlkə də mümkün görünməyən ali dini lider dəyişikliyini fövqəladə durum yaradaraq çevik formada həyata keçirdi. Hakimiyyət üçün gizli qalan bütün agentləri, rejim əleyhdarlarını aşkar etidirib ya ölümə ya da zindanlara göndərdi. Orduya yeni müharibə təcrübəsi keçərək zəif yerlərini göstərdi ki, bərpa etsinlər. Hakimiyyət üçün təhdid yarada biləcək, alternativ güc oluşduran generalları, yeni dini - siyasi liderə rəqabət qabiliyyətli siyasi fiqurları tamamilə sıradan çıxarıb rejim üzvlərini gənc və daha çevik kadrlarla əvəzlədi. Nəticədə isə 1979-cu ildən pozulmuş diplomatik əlaqələr bərpa olundu, ilkin şərtlər şifahi şəkildən yazılı hala keçdi və ABŞ və İran 47 ildən sonra eyni masada razılaşma, münasibət, diplomatik əlaqələr niyyəti ilə üz-üzə oturdu. Bunları nə üçün etdilər? Əgər İranda hakimiyyət ABŞ-nin istədiyi kimi deyil də xalqın, region ölkələrinin və müsəlman, türk dövlətlərinin arzu etdikləri formada dəyişsə yaxud islahata getsə idi bu Vaşinqtonun ümumi maraqlarına cavab verməz, əksinə normallaşma prosesi İranın Körfəz ölkələri də daxil olmaqla münasibətlərin sıxlaşmasına gətirib çıxara bilərdi.

Beləcə ABŞ-yə daha sərt, daha qatı və daha çevik teokratik İran rejimi gərəkdir ki, Körfəz ölkələrini daha ciddi təhdid edə bilsin. Bu müharibədə İranın Körfəz ölkələrinə atdığı raketlərin qarşısını almağa cəhd etməyən, bu səhnəni sevinclə izləyən, hətta ərəb kralları təhqir edən Vaşinqton əyani şəkildə onlara qandırdı ki, hətta mənim də "öhdəsindən gələ bilmədiyim" bir İran təhlükəsi ilə üz-üzəsiniz. Eyni zamanda ABŞ-yə, İsrailin daha geniş əraziləri ələ keçirməsi üçün ona savaş başlatmağa daimi bəhanə verən Hizbullah, Həmas, Ənsarullahın daha sərfəli istiqamətdə fəaliyyətini koordinasiya etmək üçün çevik addımlar atan hakimiyyət lazım idi. ABŞ və İsrail siyasilərinin də mütəmadi olaraq bəyan etdikləri kimi onların hədəfi İslamdır. Yəni, müsəlman birliyi onlar üçün qorxu dolu bir kabusdur. Hətta sünni-şiə mövzusunu belə dilə gətirməkdən çəkinməyən ABŞ - İsrail liderləri xüsusən Suriyada sünni-müsəlman hakimiyyətin qurulmasından sonra İrana qarşı daha qərarlı davranış göstərdilər və illərlə təxirə salınan bu müharibə məhz indi reallaşdı. Çünki onların qurmuş olduğu balansı Türkiyə pozdu. Əsəd Suriyasının sünni ərəb ölkələri ilə ixtilafı İsrailə qarşı müttəfiq cəbhənin yaranmasının qarşısını alırdı. Hətta bu ixtilaf sünni Səddamın devrilməsi zamanı da ABŞ və İsrailə sərf etmişdi. Əsəd rejimi və İran isə ABŞ-yə ciddi dəstək vermişdi. Eyni zamanda Əfqanıstanın işğalına şərait yaradıb Vaşinqtona açıq dəstək vermişdi. Bu həqiqəti sabiq prezident Əhmədinejad dəfələrlə dilə gətirib ABŞ-yə minnət qoymuşdu ki, biz sizə Əfqanıstan və İraqda kömək etdik. Hətta dini lider Sistani ABŞ əsgərlərinə silah çəkməyin haram olması barədə fətva verib işğala zəmin yaratmışdı. Demək ABŞ sünni - şiə balansını, daha doğrusu qütbləşməsini qorumaq, lazım gəldikcə məzhəb problemini qabartmaqla iki qütbü üz-üzə qoymaq üçün mütləq İran rejimini saxlamalıdır. Əks halda gərək haradasa mütləq başqa bir radikal müsəlman-şiə dövləti qura. Bu da xeyli zaman və zəhmət tələb edir. Odur ki, hazır mövcud olan İranı əsla əldən verməz. Həm də İranda sekulyar sistem türklərə azadlıq verə bilər ki, bu da Türkiyə və Azərbaycanın daha da güclənməsi və türk birliyinin inkişafı deməkdir. Təbii ki, buna da qəti olaraq qarşıdırlar. Netanyahu davamlı olaraq İranı fars dövləti adlandırıb, farslara müraciət edir, qədim dostluqlarını xatırladır, ABŞ isə fars şahın oğlunu namizəd kimi təqdim edir".



"Hətta Prezident etirazlardan əvvəl əhaliyə bəyan etmişdi ki, onun xalqa verdiyi vədləri gerçəkləşdirməyə siyasi sistemin mahiyyəti imkan vermir. Belə bir narahat zəmində ali dini lider seçkisinə də getmək olmazdı. Hakimiyyətdən dəyişiklik gözləyən xalqın iqtisadi, sosial problemlərini həll etmək əvəzinə atanın öz yerini birbaşa oğluna təhvil verməsi xalqı daha da qıcıqlandırar, açıq üsyana təşviq edə bilərdi. Ali dini lider dəyişikliyi olmadan isə köhnə lider siyasi kursunu dəyişə, yumşalda bilməzdi. Əks halda qatı şüubiyyə ideolojisi üzərində bərqərar olan SEPAH, mühafizəkarlar dini lideri 2-ci Şah İsmayıl, Nadir Şah kimi elə özləri aradan götürə bilərdi ki, bu da xaosa gətirib çıxaracaqdı. Prezidentin türk olması, sivil xalqı təmsil etməsi, beynəlxalq aləmdə islahatçı obrazında təqdim olunması səbəbi ilə hakimiyyət, siyasi sistem dəyişə, əsas liderlik türk əsilli Pezeşkiyana da keçə bilərdi. Beləcə regionda İranda islah olunmuş normal hakimiyyətin mövcudluğu ABŞ və İsrailin bəhanələrini kəsər, Türkiyə və türk dövlətləri ilə birliyə qoşulan dünyəvi, sekulyar idarəetmə üsulu meydana gələ bilərdi. Nəticədə Livanda Hizbullah, Yəməndə Ənsarullahın fəaliyyətinin dayandırılması, nüvə silahından imtina müqabilində Türkiyə və Pakistan vasitəçiliyi ilə İsrail - Fələstin məsələsinin həllinə doğru əhəmiyyətli addımlar atıla bilərdi".

O, bildirib ki, amma bu, ABŞ və İsrailə sərf etmirdi: "Çünki müsəlman vəhdəti, türk birliyi reallaşa bilər, Yaxın Şərqdəki işğalçı siyasət "Böyük Orta Doğu projesi" (Əslində isə "vəd edilmiş torpaqlarda Böyük İsrail" planı) iflasa uğrayardı.Odur ki, ABŞ dərhal hərəkətə keçərək İranda 40 gün ərzində 40 illik bütün problemləri demək olar ki, həll etdi. Bomba yağdırıb ilk gündən qızlar məktəbini vurmaqla öncə xalqı hakimiyyət ətrafında heç zaman olmadığı dərəcədə birləşdirdi. Eyni zamanda ali dini lideri vuraraq ona şəhid statusu qazandırmaqla fanat dindar fədailəri səfərbər edərək SEPAH üzvlərini rejim uğrunda şəhadətə sövq etdi. Xalqın sosial etirazlarının həlledici məqama çatmasına

T.İrfan deyib ki, demək, İranda dünyəvi dövlət qurulsa, həm radikal məzhəbçi rejimin getməsi nəticəsində bu ölkə digər məzhəbdən olan müsəlman ölkələri ilə həm də fars təmayüllü buxovdan xilas olmaqla türk dövlətləri ilə yaxınlaşa, ittifaqa daxil ola bilər:

"Odur ki, ABŞ İranın ideoloji siyasi sistemini nəinki qorumaqda hətta daha da radikallaşdırmaqda maraqlıdır. Əsəd Suriyasını müsəlman hakimiyyətə tərk etdiyini həm İsrail həm də ABŞ İrana bağışlaya bilmir. Druzları, Ələviləri, Nuseyriləri İsrail və İran birlikdə yeni Suriya hakimiyyətinə qarşı qaldırmağa bir neçə uğursuz cəhd göstərdilər, lakin Türkiyə buna imkan vermədi.İran və ABŞ uzun illərdən sonra birbaşa açıq təmas qurdu, ali səviyyədə rəsmilər görüşdü. Bu, eyni zamanda təkcə əvvəllər gizli keçirilən görüşlərin izhar edilməsi deyil, atəşkəs, sülh danışıqları görüntüsü adı altında regionda geosiyasi balansın ikisi tərəfindən tənzimlənməsidir.

Bunun üçün müharibə olmadan oturmaq olmazdı. İran müsəlman aləmində imicini qeyb edər, ABŞ isə ifşa olunardı. Öncə ABŞ İranda hakimiyyəti sağlamlaşdırdı, xalqı hakimiyyət ətrafında sıx birləşdirdi və lazım olan adamları masaya dəvət etdi. Təbii ki, nümayəndə heyətinin başçıları fars olmaq şərti ilə. İranın dondurulmuş hesabları, 6 milyardın özünə iadə edilməsi müqabilində Hörmüz boğazının nəzarətinin ABŞ-a verilməsi... Sadəcə İranla ABŞ arasındakı ittifaqın, siyasi alverin formatı və istiqamətləri dəyişir bu proseslərdə. İranı qorumaqla onun ABŞ maraqlarına daha çox sərf edən hakimiyyət formatını formalaşdırırlar hazırda. Pakistan görüşü görünən tərəfdir. Bu tip danışıqların bir də görünməyən, ictimaiyyətə məlum olmayan tərəfləri olur. Hələ ki, görünən tərəfi məlumdur. Lakin görünməyən tərəfi isə məlum deyil. Onu nəticələr göstərəcək".

**Vasif ƏLİHÜSEYN**

# "Özünə hörmət edən biznesmenlər bu cür cihazlardan istifadə edirlər"

**"Uşaq qidalarının yararlılıq vaxtı keçdikdə və yaxud saxlanma şəraitinə uyğun saxlanmadıqda onun içərisində həşəratlar əmələ gəlir. Hər bir qida məhsuluna uyğun özünəməxsus həşəratlar olur. Bu fakt onu göstərir ki, qidaların saxlanma şəraiti pozulub. Yəni hər bir qida məhsulu istehsalçıdan istehlakçıya qədər soyuq zəncir üzrə çatdırılmalıdır".**

Bunu Adalet.az-a açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

O, bildirib ki, qida məhsulu soyuq zəncir üzrə çatdırılmayanda və qida təzyiqinə məruz qalanda belə hallar olur:

"Hətta yararlılıq müddəti keçməyən məhsullar xarab olur.

Uzaq ölkələrdən gətirilən bu cür həssas qidaların temperatur rejimini izləmək üçün xüsusi cihaz var. Mal avtomobilə yüklənən zaman həmin cihazı da ora yerləşdirirlər və o avtomatik olaraq temperaturu yazır. Özünə hörmət edən biznesmenlər bu cür cihazlardan istifadə edirlər".

Qeyd edək ki, sosial şəbəkələrdə uşaq yeməyindən həşəratlar çıxması ilə bağlı görüntülər yayılıb.

**Sübhan**

*Rüstəm Hacıyev*



# Avropa özünə yeni "NATO" yaradır

***Avropa paytaxtları son onilliklərdə ilk dəfə olaraq "Avropa NATO-su" yaratmaq konturları üzərində çalışırlar. Böyük Britaniya, Almaniya, Fransa, Polşa, Avropanın şimalında yerləşən dövlətlər və Kanada, bağlı qapılar arxasında bu günədək əsasən Vaşinqtonun rəhbərlik etdiyi təhlükəsizliklərinin öz üzərlərinə götürmək məqsədiylə ssenarilər üzərində müzakirələr aparırlar.***

***ABŞ prezidrnti Donald Trampın NATO-dan çıxacaqları ilə bağlı bəyənatları fonunda Avropanın "əl-əyağa" düşməsi anlaşılandı.***

***ABŞ-ın hazırda tezliklə alyansdan çıxması prosesi texniki cəhətdən mümkün deyil. Çünki, qanunvericiliyə görə, ABŞ-ın NATO-dan çıxması üçün konqressin razılığı olmalıdır. Mövcud siyasi reallıqda konqressin Trampın bu qərarını təsdiqləyəcəyi inandırıcı görünmür.***

***Avropanın alternativ alyans yaratmaq barədə apardıqları müzakirələr hələ ki, qeyri-rəsmi xarakter daşıyır. Avropalı siyasilər, ABŞ-ın Avropanı müdafiə etməkdən imtina edəcəyi təqdirdə təhlükəsizliyini təmin etmək və ABŞ-ın hərbi potensialının yerini doldurmaq yollarını axtarırlar.***

***Nəzərə alınsa ki, hazırda Vaşinqtonun NATO sferasında liderliyinin-logistikadan tutmuş kəşfiyyat məlumatlarına və blokun komanda heyyətinə kimi əvəz etmək o qədər də asan olmayacaq.***

***Avropa artıq Vaşinqtonun etibarlı tətəfdaş olduğuna şübhə ilə yanaşır. Donald Tramp isə, avropanı Şimali Atlantika Blokunda aktiv iştirak etməməkdə və alyansın müdafiə işlərinə az vəsait xərcləməkdə günahlandırır. ABŞ prezidenti hesab edir ki, alyansın bütün ağırlığı Vaşinqtonun üzərinə düşürsə, digər üzvlər onların dediyi ilə hərəkət etməlidirlər. Əslində illər boyu elə belə də olub.***

***Lakin, son vaxtlar NATO ölkələri, ABŞ və İsrailin başladığı İran müharibəsində Trampın bu müharibəyə qoşulmaq təkliflərindən imtina etdilər. Bununla da ABŞ prezidentinin qəzəbinə tuş gəldilər.***

***Birləşmiş Ştatların Avropaya "qəzəbi" getdikcə genişlənməkdə davam edəcəyi gpzlənilir. Hazırda Avropanın əsas məqsədi məsələni nəzarətində saxlamaqdan ibarət olmalıdır.***

***Dünyanın nüvə müharibəsi təhlükəsi ilə üzləşdiyi bir vaxtda, alyans üzvləri, Rusiyanın atom silahı qarşısında "nüvə çətiri" yaratmaq barədə düşünməyə başlayıblar.***

***Avropanın ABŞ analoquna uyğun nə kəşfiytat imkanları, nə də düşmənin raket zərbələrini əvvəlcədən müəyyən edə bilən müvafik sistem qurğuları yoxdur. Bütün bu siatemləri yaratmaq üçün isə, on illərlə vaxt və yüz milyardlarla avro vəsait lazımdır.***

***İz.ru saytının materiallarından istifadə olunub***

# Dövlət Baxçalıdan təklif: Dünya Sülh Şurası yaradılsın



**Pakistanda ABŞ-İran danışıqlarının nəticəsiz qalması fonunda Türkiyə Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı Dünya Sülh Şurasının yaradılmasını və iclasının Türkiyədə keçirilməsini təklif edib.**

Adalet.az xəbər verir ki, bu barədə o, TV100-ə bildirib.

"BMT baş katibi Antonio Quterreşin çağırışı ilə ABŞ, Rusiya, Çin, Türkiyə və Avropa İttifaqının Dünya Sülh Şurası adlı yeni mexanizm yaratmasını təklif edirik. Türkiyə belə bir təşəbbüsə ev sahibliyi edə bilər", - MHB lideri vurğulayıb.

Dövlət Baxçalı bundan əvvəl İsrail və ABŞ-yə qarşı Türkiyə-Rusiya-Çin ittifaqının yaradılmasını təklif etmişdi.

# "Bu, Vaşinqtonun Çin qarşısında strateji zəifləməsinə gətirib çıxarır"

**"İslamabadda keçirilən görüşdə sülh əldə edilməsi çətin idi. müəyyən razılaşmalar olub. Əsas Hörmüz boğazına nəzarət, İranın nüvə enerjisindən tam imtina, ballistik raketlərin uçuş məsafəsi ilə bağlı iki həftəlik atəşkəsdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloqun sözlərinə görə, burada əsas məğlub olan tərəf məhz İsraildi: "İran və ABŞ özünü qalib hesab edir. İran güzəştə getməməklə məğlub olmadığını elan etdi. Bir növ daxili auditoriya üçün bu nə qədər rejimin qələbə qazanması deməkdir. ABŞ yalnız İranın hərbi donanmasına və hərbi infrastrukturuna vurduğu zərbələr, həmçinin liderlərin aradan götürülməsi ilə qələbə əldə etdiyini elan edib. ABŞ prezidenti D.Tramp B.Netanyahunun təhriki ilə Rusiya -Ukrayna müharibəsi bitməmiş hərbi əməliyyatlara başlaması Vaşinqtonun Çin qarşısında strateji zəifləməsinə gətirib çıxarır".

**Vasif**



**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**

# İnsanlığın uca zirvəsi

**...Aprelin 17-si səhər saatlarında mənim mobil telefonuma bir zəng gəldi. Bu, mənim müəllimim və atamın yaxın dostu İsgəndər Quliyevin oğlu İlham idi. Biz bu ailə ilə düz 50 ilə yaxındır ki, çörək kəsirik, dostluq edirik və xeyir-şərimiz bir yerdə olub. İlham kövrələ-kövrələ dedi: "Faiq müəllim, atam dünyasını dəyişdi. Dedim ki, biləsiniz". Sözün düzü, bu bəd xəbəri eşidən kimi çaşıb qaldım. Əgər kimsə İsgəndər müəllimin ölüm xəbərini mənə desəydi inanmazdım. Çünki o, çox mübariz, çox güclü və çox da inamlı ziyalı idi. Və Novruz bayramında zəng edib, təbrik eləmişdim, hal-əhval tutmuşduq. Onda səsindən hiss elədim ki, vəziyyəti bir qədər narahatedicidir. Ancaq buna baxmayaraq, həyat yoldaşı, bacım qədər çox istədiyim Əzizə xanım zəng edənin mən olduğumu bilən kimi dəstəyi İsgəndər müəllimə verdi. Ümumiyyətlə, bayramlarda ya o mənə zəng edir, ya da mən ona zəng edirdim. Ən azından ona görə ki, atamdan sonra bizim ailənin ən çətin günündə, sıxıntımız olanda arxamızda durub və "qorxma" deyib. Universitetdə bütün tələbələrin, o cümlədən, yetim-yesirlərin və imkansız adamların hamısına təmənnasız olaraq kömək edib. Belə insanlar dünyada çox az olurlar. Elə az olduqlarına görə də hamı tərəfindən sevilirlər.**

**İsgəndər Həsən oğlu Quliyev Astara rayonunda dünyaya göz açmışdı. Atası Həsən kişi ikinci Dünya Müharibəsində həlak olmuşdu. Sonradan o gedib atasının məzarını axtarıb tapmışdı. Amma İsgəndər müəllim yetimçiliyin, çətinliyin və kimsəsizliyin hər üzünü görmüşdü. Bütün sıxıntıları, ağrını, acını rəhmətlik anası ilə bir dəf eləmişdilər. Anasını da görmüşdüm, çox nurlu, çox ismətli və abırlı azərbaycanlı xanımı idi. Elə İsgəndər müəllim də bu namuslu və ismətli xanımdan tərbiyə alıb, böyümüşdü. Bakı Dövlət Universitetində (Azərbaycan Dövlət Universitetində) aspiranturaya qəbul olmuş, oxumuş və tarix elmləri namizədi adını qazanmışdı. "Sov.İKP tarixi" kafedrasının ən hörmətli müəllimlərindən idi. Heç kim deyə bilməz ki, o, savadlı, bilikli və istedadlı tələbələri incidib. Çox ciddi və tələbkar müəllim olduğuna görə hamıdan oxumağı istəyib. Və həmişə də haqqın, ədalətin tərəfində olub. Ona görə də Bakı Dövlət Universitetində sayılıb-seçilən və xüsusi yeri olan müəllimlərdən biri kimi tanınıb.**

**İsgəndər Quliyev dostluğa, yoldaşlığa və kəsdiyi çörəyə çox sədaqətli insan olub. O cümlədən dövlətə və dövlətçiliyə, Ulu Öndər Heydər Əliyevə böyük məhəbbəti ilə fərqlənib. Belə ki, ölkənin ən ağır günündə Heydər Əliyevi hakimiyyətə gətirən məşhur "91-lər"dən biri də İsgəndər Quliyevdir. Hansı ki, həmin dövrdə bu əməlinə görə onu mövcud hakimiyyət ölümlə hədələyib, həyatına sui-qəsd etməklə qorxudurdular. Amma İsgəndər Quliyevi haqq-ədalət yolunda nə hədə-qorxu, nə də ölüm qorxuda bilərdi. O, bir şeyin həqiqət olduğunu hiss edəndən sonra başına silah sıxsan da, dediyindən geri dönən deyildi.**

**İsgəndər Quliyevi həm dövlət, həm də xalq çox istəyirdi. Çünki dövlətin və xalqın ən ağır günündə onun yanında olmuşdu. Ona görə də İsgəndər Quliyevi Astaradan, yəni öz vətənindən millət vəkili seçdilər. Millət vəkili olanda da, sözün həqiqi mənasında seçildiyi rayonun insanlarının əsl vəkili oldu. Onların hüquqlarını qorudu, haqq səsini yüksək qurumlara çatdırdı və problemlərini yoluna qoydu. Onun təşəbbüsü ilə həmin dövrdə Astarada bir neçə məktəb binası inşa edildi. Bütün bunlar İsgəndər müəllimin el-oba arasında hörmətini daha da artırdı.**

**O, Bakı Dövlət Universitetinin professoru idi. Və bu müqəddəs ali təhsil ocağında ömrünün sonuna qədər çox vicdanla, namusla, şərəflə çalışdı. Hamıya yaxşılıq elədi, əl tutdu və**



**arxa durdu. İsgəndər Quliyev sabiq millət vəkili olmaqla yanaşı, Prezidentin sərəncamı ilə "Şöhrət" ordeni, "Prezidentin Fəxri diplomu", "Heydər Əliyevin 100 illiyi" medalı ilə təltif edilib. Yəni onun dövlət və xalq qarşısında zəhməti yüksək qiymətləndirilib.**

**Aprelin 19-da Heydər məscidində İsgəndər Quliyevin 40 məclisi keçirildi. Onu sevənlərin hamısı o məclisdə iştirak edirdi. Ölkənin tanınmış ictimai-siyasi xadimləri, deputatlar, sabiq millət vəkilləri, ziyalılar və onun tələbələri bu məclisdə idilər. Hamısı da İsgəndər müəllim haqqında xoş sözlər səsləndirirdi. Onun uzun illər qonşusu olmuş, Yasamal Rayon İcra Hakimiyyətində və sovet dönəmində rayon sovetində məsul vəzifədə işləmiş Camal Əliyev dedi ki, İsgəndər Quliyev insanlığın ən uca zirvəsində idi. Çünki bu adam hamıya yaxşılıq etməyi və arxa durmağı özünə borc bilirdi.**

**Biz yazımızın əvvəlində qeyd etdiyimiz kimi İsgəndər müəllimin ailəsi ilə çox yaxın olmuşuq. Onun iki oğlu - İlham və Həsən, qardaşı oğlu Mehman, bacısı oğlu Yadigar bu nəslin davamçılarıdır. İnanın, onların İsgəndər müəllimi nə qədər çox istədiklərini görmək elə də çətin deyildi. Sadəcə olaraq, İsgəndər müəllim elə bir iz qoyub getdi ki, o izi davam etdirmək də özü bir mərdlikdir.**

**İnsanlığın uca zirvəsində olan İsgəndər müəllimi nə onun doğmaları, nə dostları, nə də tələbələri unudacaq. Çünki İsgəndər müəllim bir yaxşılıq edəndə təmənnasız eləyib və onun əvəzini gözləməyib. Yazımızı Xalq şairi Musa Yaqubun bu misraları ilə bitirmək istəyirik:**

*Hardasız, hardasız, çiçək adamlar,*
*Hardasız, hardasız, mələk adamlar?*
*Bu şeytan adamlar, böhtan adamlar,*
*Bu tikan adamlar öldürər bizi...*

**Yazarın arxivindən...**

## Bakıda subasmalar olan yerlərdə evlər ucuzlaşır...



**Mart və aprel aylarında Bakıda 1988-ci ildən bəri olmayan intensiv leysan yağışlar yağdı. Bu Bakının Keşlə, Zabrat, Maştağa, Ramanı, Mərdəkan, Zığ qəsəbələrində həyətyanı evlərə böyük ziyan vurdu.**

Çətin vəziyyətdə olan sakinlər aidiyyəti qurumlar tərəfindən təxliyyə olundular. Xoşbəxtlikdən təbii fəlakət zamanı ölən və ağır xəsarət alanlar olmadı.Hələ də subasmış evlərdən su təmizlənməyib. Nasoslar işləsə də, su çəkilsə də problemlər tam şəkildə həllini tapmayıb.Və uzun müddət həmin sakinlər bu çətinlikdən canlarını xilas edə bilməyəcəklər. Ona görə də, bir çoxları evlərini tərk edib ya qohumlarıgilə , ya da başqa bir ünvana sığınıblar.

Əmlak məsələləri üzrə ekspert Vahid Məhərrəmov deyir ki, su basmış yerlərdə böyük ehtimalla evlər 30-40 faiz ucuzlaşacaq! Bu proses uzun müddət davam edəcək. Bununla yanaşı, gələcəkdə bir çox insanlar mərkəzi kanalizasiya sistemi olmayan çökək yerlərdən ev almayacaq. Üstəlik də belə evlərin bir çoxunun çıxarışı yoxdur. Məhz bu amil də həmin yerlərdə evlərin daha da aşağı qiymətə olmasına şərait yaradacaq. Ona görə də mənzil alanda çıxarışı olmaqla təhlükəsiz yerlərdən ev almaq lazımdır!!!

## Nisyə dəftərini aldı, bütün borcları ödədi...



**Yaxşılıq eləmək, əl tutmaq , yıxılana arxa durmaq hər kişinin işi deyil, mərd kişinin işidir. Adam var ki, milyonlarla pulu var, amma nəinki yadlara, heç doğma qardaşına kömək etmir.**

Xoşu gəlsə, bir küçə müğənnisinə mənzil də alır, avtomobil də! Təbii ki, hər insana da əməlinə görə, Allah- təla öz mükafatın və cəzasını verir! Bunlar hamısı aydındır! Və yaxşı insanlar, yaxşılıqlarından heç vaxt qalmırlar.

Novruz bayramı günlərində bir iş adamı kənddə mağazaya gedib, borc dəftərinə baxıb və orada mağazaya kimlərin borcu varmış hamısın ödəyib, həmin dəftəri də götürüb! Bayram günlərində kasıb ailələri sevindirməkdən gözəl və savab iş yoxdur! Belə adamların yeri Allaha and olsun ki, Cənnətdir!!!

## Səhv düşəndə yerimiz...



**Bu dünyada hər kəs yerində olanda gözəl olur. Elə ki, bir başqasının kimsə, yerin tutur, bax onda aləm bir-birinə dəyir... Birini təsadüfən layiq olmadığı vəzifəyə təyin edirlər, ya da başqa birisinə Allah-təala var- dövlət, pul qismət eləyir, gözləri ayaqlarının altını görmür. "**

Babam mənə kor deyib, gəlib- gedəni vur deyib" prinsipi ilə işləyir. Yanına gələnlərə kömək etmək, əl tutmaq əvəzinə insanların başında turp əkir və işçilərinə gün verib, işıq vermir! Belə bir vəzifəli adamın dostu hər gün onun qəbuluna gəlir, amma dostu onu qəbul eləmir. Və günlər birində onu vəzifəsindən azad edirlər.

O, dostu ilə bir yas məclisində görüşür. Dostu deyir ki, mən hər həftə gəlib qəbuluna düşə bilmirdim .

Sənin iş yerinin yanındakı uca çinar ağacının yanında dururdum ki, məni görəsən.

Dostu da deyir ki, ay rəhmətliyin oğlu, o vaxt vəzifədə olanda nəinki səni , yanında durduğun çinar ağacını görmürdüm! Bax belə olanda səviyyəsiz, savadsız, cahil insanların iç üzü açılır! Belə yerdə xalq şairi Qabilin aşağıdakı misraları yada düşür: **"Müsibət oluruq biz, Səhv düşəndə yerimiz..."**

## Hər meyvənin öz vaxtı var...



**Bu gün dükan-bazarlarda hər cür bahalı meyvələr satılır. Alıcılar da bu meyvələrə baxıb köks ötürüb gedirlər.**

Məsələn, alçanın bir kiloqramı 200 manat, ərik 250 manat, gilas, albalı 165 manat, sonra qarpız , yemiş gəlir... Və onların xarici ölkələrdən idxal olunur. Satıcılar deyir ki, düzdür, bu meyvələrin qiymətləri çox bahadır. Amma onların da kifayət qədər alıcısı var. Elə pulu adam var ki, 200 manat verib , bir kiloqramı alça alır.

Bəzi insanlar da olur ki, həmin meyvələrdən 30- 40 manatlıq alır! Bunlar hamısı normaldır. Ancaq normal olmayan odur ki, bir çoxları bildirir ki, bu baha məhsulları imkanlı adamlar niyə alırlar? Təbii ki, hər adam cibinə uyğun hərəkət etməlidir! Və bir də hər meyvə öz mövsümündə yeyləndə dadlı olur. Ona görə də heç darıxmayın, bir iki aydan sonra həmin meyvələr yaxşı yetişər və hamımız bu meyvələrdən doyunca yeyərik! Allah qoysa!!!

## Evin yıxılsın, Amerika!



**Sən İranı nə gün qoydun, ay Amerika! Dünyanın bir nömrəli " vor zakon"usan! Əvvələr sənin qabağını SSRİ kəsirdi və onu da müxtəlif yollarla dağıtdın!**

Tay qabağını kəsən yoxdu. Az -çox hərdən bir Çin və Rusiya atılıb- düşür, onları da hədə- qorxu ilə yerində oturdursan! Əgər yerləri varsa, heç deyəsən, onların yeri də yoxdu. Və beləcə min illik dövlətçilik tarixi olan İranı viran günə qoydun! Sənin İrana atdığın raketlər, bombalar tək şəhərləri dağıtmadı, günahsız insanları qanına qəltan elədi. O , məktəbli qızların günahı nəydi! Bomba atıb , onları öldürdün. Sənin atdığın bombaların, raketlərin ətraf kəndlərimizdə eşidildi və onun təsiri Bakıda da hiss olundu. Havadan zəhər- zəhrimar yağır... Hələ də bu işlərdən baş çıxarmaq olmur. Guya atəşkəs oldu. Elə aprelin 8- də də İranın bir neçə strateji obyekti bombalandı.

Allah evini yıxsın, Amerika! Sən kimi çox istəyirsən , rədd ol , çıx get, Yaxın Şərqdən! Qoy bu yazıq müsəlmanlar rahat yaşasın, rahat nəfəs alsın!!!

## Heyvanın gözü doyur, amma insanın gözləri doymur...

**Allah Yer üzünü yaratdı və insanların yaşaması hər cür şərait bəxş etdi. Üstəlik də digər canlılardan fərqli olaraq onlara şüur, ağıl da verdi.**

Yəni Allah-təala insanların yaxşı yaşaması üçün heç bir nemətin əsirgəmədi! Nə gözəl! Amma insanlar bir qədər elmi- texniki tərəqqiyə yiyələnən kimi Allah asi oldular. Güclülər zəifləri öldürməyə başladı! Müharibələr... insan ölümləri... evlərin eşiklərin dağılması... Bir sözlə, insanlar Allahın yaratdığı Yer üzünü viran qoydular...

Beləcə Allah-təala indi də insanları bəd əməllərinə görə, cəzalandırır! Nə isə... Meşənin şahı olan aslanlar, eləcə də pələnglər, bəbirlər, canavarlar ən yaxşı halda bir ceyran, maral, cüyür ovlayar və hamısı sürü halında onu yeyərlər. Yanlarındakı isə digər heyvan sürüsünə başını qaldırıb, baxmır! Yəni onların gözü insanların gözü kimi ac deyir.

Daha doğrusu, onların gözü doyur.Amma insanın milyonları olur, yüz yerdə evi olur, yüz masını olur, yenə gözlərə doymur! Ona görə də , belə insanları Allah- təla bağışlamır.İnsanlıq cildindən çıxanları heç kasıblar da bağışlamır!!!

**Emil FAİQOĞLU**



# DÖVLƏT QAYĞISI VƏ DÖVLƏTÇİLİK NÜMUNƏSİ

## O məşhur mahnı: “Hardan başlayır Vətən?”

**Dünyanın ən mürəkkəb dövrlərində belə Azərbaycanın necə düzgün yol tutması son illər daha dolğun görünür. Onillərlə xain qonşuların və onlara havadarlıq edənlərin reallıq və gerçəklik müstəvisinə keçirilməsi Azərbaycanın, onun güclü lideri cənab İlham Əliyevin zahiri səbr və təmkini və uzun illərin uğurlu siyasətinin nəticəsidir. Az qala bütün dünyanın marağında olan (əksərən bizim əleyhimizə) Qarabağın 44 günlük əfsanəvi bir savaşla işğaldan azad edilməsi, paralel olaraq iqtisadiyyatımızın davamlı inkişafı və dünya siyasətində mövqe sərbəstliyi daha uğurlu gələcəkdən xəbər verir.**






Dünyada baş verən indiki hadisələri, xüsusilə Yaxın Şərq və Rusiya-Ukrayna müharibələri və bu müharibələrin ətrafındakı olaylar, sözsüz ki, respublikamıza təsirsiz qalmır. Ancaq həmişə düzgün siyasi kurs götürən Azərbaycan özünün müstəqillik və inkişaf yoluna davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi kimi bunun başlıca səbəbi respublikamızda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidarın arasındakı birlikdir və bizim bütün proqnozlarımızın uğurlu icrasıdır.

Bəli, bütün bunlar ölkəmizin ictimai-siyasi arenada təsdiqlənən mövqeyini aydın şəkildə əks etdirir və müasir Azərbaycan reallığının spektrini işıqlandırır.

Müdrikcəsinə söylənən ”xalqla iqtidar arasında birliyin” əbədi və sarsılmaz olduğunu biz az qala hər gün görür və yaşayırıq. Bu birliyin ən pik nöqtəsi isə təbii ki, torpaqlarımızın düşmən işğalından azad edilməsi və Böyük Qələbəmizin təntənəsi idi. Prezidentin imzaladığı bir çox mühüm sənədlər, işğaldan azad olunmuş ərazilərə intensiv səfərləri, xalqla görüşləri, istiqanlı, mehriban söhbətləri, görülən və görüləcək işlərin perspektivləri haqqında söylədikləri bütün bunları bir daha təsdiq edir.






...Yerlərdə insanların daha inamlı və nikbin görünməsi, quruculuq işlərindəki fəallıqları məhz daxili və xarici siyasətimizin uğurla davam etməsinin nəticəsidir. Rəhbərliyə inam, Prezidentlə, Ali Baş Komandanla fəxr etmək hər yerdə olduğu kimi Göyçay rayonunun sakinlərinin də sevinc mənbəyidir. Bu gerçəklik doğrudan Göyçay rayonunda daha təmtaraqlı yaşanır. Rayon icra hakimiyyətinin başçısı Orxan Mürsəlov bu fikri daha mükəmməl ifadə edir:

- Göyçay rayonunun sakinləri bütün məsələlərə həssaslıqla yanaşır. Onlar Azərbaycanın, onun bir parçası olan Göyçayın son illər ərzində inkişafına, uğurlarına ürəkdən sevinib fəxr edirlər. Eyni zamanda hər kəsə məlumdur ki, rayondakı infrastruktur yenilikləri, rahat yollar, kənd və qəsəbələrin sanki bir şəhər görkəmi alması, Göyçay şəhərinin modern inkişafı dövlətimizin, şəxsən cənab Prezidentimizin müstəsna qayğı və diqqətinin töhfələridir. Qarabağın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə, xüsusilə Vətən Müharibəsinin 44 günlük tarixi və əfsanəvi dövründə yüzlərlə göyçaylı gəncin əsl vətənpərvərlik ruhu və Ali Baş Komandana sədaqətlilik nümunəsi ilə silaha sarılması, igidlik göstərməsi heç vaxt unudulmayacaq...

Qazanılan uğurların müntəzəm xarakter alması Göyçay rayonunun həyatında xarakterik olaraq öz əksini tapmaqdadır. Bütün bunlar rayonun stabil inkişafından xəbər verir. Şəhər və kəndlər eyni qayğı və diqqət sayəsində müasir yaşayış məkanlarına çevrilməkdədir. Müasir metodların tətbiqi, quruculuq və inkişafa yeni yanaşma tərzi, digər sosial və mədəni tərəqqi... Bu mənada rayon mərkəzinin mövcudluğundan bəri öz ənənələri üzərindən büsbütün müasirləşməsi də inkişafın təntənəsini təsdiqləyir.

Rayon rəhbərliyi də yorulmadan yüksəlişə doğru əlavə imkanlar axtarışındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin istək və tələblərinə bütün istiqamətlər üzrə yüksək səviyyədə əməl olunur. Xalqla iqtidar birliyi Göyçay rayonunun mənəvi simasıdır.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov işgüzar və prinsipial rəhbər işçi olmaqla yanaşı, həm də səmimi bir insandır. Bu keyfiyyətlər onun nüfuzunu daha da artırır, sakinlərə daha da yaxınlaşdırır. Və bütün bunların da nəticəsində rayonda yüksək səviyyəli sağlam mühit formalaşır. Elə cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi: ”Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir. Daxildə proseslər müsbət istiqamətdə getmişdir. İslahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız Ulu Öndərin siyasi xəttinə sadiqik, bu xətti davam etdiririk...”

...Və beləcə Göyçay rayonunda vaxt bu günün və gələcəyin xeyirinə işləməkdədir. İnsanlar bütün bunların yüksək səviyyədə davam etməsinin fərqindədirlər. Bu səbəbdən də rayon rəhbərliyinin yerlərdə keçirdiyi səyyar qəbulları zamanı birgə məsləhətləşmələr, daha uğurlu inkişaf yollarının axtarışı, real təklif və arzular yetərincə səmərəli olub inkişafın stimullaşmasını saxlayır.





Rayonda şəhid ailələrinə, qazilərə yüksək həssaslıq göstərilməsi yaxşı haldır. Bütün məsələlərə böyük ciddiyyətlə yanaşılır. Rayon rəhbərliyinin bu istiqamətdəki fəaliyyəti yüksək qiymətləndirilir. Göyçayda mədəni-kütləvi tədbirlərə də xüsusi həvəs və diqqətlə yanaşılır. Kitab və rəsm sərgiləri, disputlar, müxtəlif idman yarışları, ədəbi tədbirlər... Bütün bunlar çox vacib məsələlərdir. Gənclərin, məktəblilərin, hətta orta yaşlı adamların da üz tutduqları mədəni-kütləvi tədbirlər rayonda stabilliyə, xoş niyyətli işlərə də dəstək olur. Həmişə inkişafda olan bu gözəl məkanın, nikbin əhval-ruhiyyənin hökm sürdüyü Göyçayın həyat ritmi, yaşam tərzi bütün istiqamətlər üzrə yüksəlişə doğrudur. Göyçaylılar dövlətimizin qayğısına cavab olaraq bütün sahələrdə uğurlar qazanmağa, Vətənə töhfələr verməyə çalışırlar.

**Düzgün istiqamət, düzgün yol isə həmişə uğurlara aparır, insana qəlb rahatlığı, baş ucalığı gətirir.**

**Məzahir ƏHMƏDOĞLU**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# MƏN NECƏ İTİRDİM XOŞBƏXTLİYİMİ?!

## Özəl olan duyğular

**Hərdən fikirləşirəm ki, arxada qalan illər, aylar, günlər görəsən məndən nə aldı? Və ümumiyyətlə, məndə nə var idi ki? Sonra da bu iki sualın arasında var-gəl edirəm. Yəni alınanla olanın arasında özümə yer tapmaq istəyirəm. Əgər o yer varsa...**

**Amma o yeri tapmaq da çətin olur. Ona görə ki, yaşadığım həyatın dolanbacları o qədər olub ki, bir düzəngah, bir seyrangah, lap sadə şəkildə ifadə etsəm əl içi boyda yer tapa bilməmişəm ki, orda doyunca dayanıb, dincəlib bu dünyadan ləzzət aldığımı ifadə edim.**

**Siz elə fikirləşməyin ki, mən naşükür bəndəyəm. Əsla! Ümumiyyətlə, naşükürlük mənim əxlaqıma yaddır. Allahın verdiyi hər şeyə qane olan bəndəyəm. Lakin bir bəndə olaraq özümə hərdən suallar ünvanlayıram. Görəsən, daha yaxşı, daha maraqlı nə isə yaşaya bilərdimmi, görə bilərdimmi? Təəssüf ki, görünənlər, yəni olmuşlar sualıma müsbət ipucu vermir. Çünki yaşadığım həyat iki, daha doğrusu, üç zaman kəsiyinə bölünür. Uşaqlıq, gənclik illərim Sovet dönəmində arzuların qanadında keçib. Oxumaq, ali təhsil almaq, müəyyən mərhələlərə çatmaq istəyim hakim olub ürəyimdə. Amma bu istəklər reallaşmaq istəyəndə dünyada bir sağalmaz xəstəlik olan erməni faşizmi hər şeyi alt-üst edib. Vətəndə vətənsizliyim başlayıb. Yenicə isitdiyim ocaq, yenicə tikməyə başladığım yuva yağmalanıb, talan olub. Qaçqınlıq, köçkünlük başlayıb. Neçə dəfə təzə ünvana sığınmalı olmuşam. Və 30 ildə vətəndə vətənsizliyin hər üzünü görmüşəm. Bu da bir talanan ömür, bu da bir ağrılı, nisgilli həyat hekayəsi. Həmin 30 il gəncliyimi də, yaşamalı olduğum gözəllikləri də, arzuları da əridib öz içində.**

**İndi isə ömrün günbatanıdı. Günəş qüruba tərəf əyildiyi kimi yaş da üçüncü mərhələdən, yəni üzü enişə istiqamət götürüb. Bu dövrün də qayğıları başdan aşır. Çünki arxada qalan iki mərhələ sözün yaxşı mənasında güvəniləsi heç nə saxlamayıb özündə. Bircə ümiddən, inamdan başqa. Çünki yurda dönüşə olan daxili inamım 30 il yaşamağıma stimul olub...**

**Bax bu üç mərhələ bir insan ömrünün mənim düşüncəmə görə fəsilləridi. Təbii ki, təbiətdə dörd fəsil var.**

**Amma mənim insan ömrümdə, taleyimdə yaz fəsli yoxdur. O, əvvəlki iki dövrün dəyirmanında üyünüb. Və mən də barışmışam o dəyirmanla. Barışdığıma görə də düşünmüşəm ki, bu talehlə oynamağa dəyməz. Hətta onu şeirə də çevirmişəm:**

*Gecəsi də, gündüzü də əzabdı,*
*Yaşatdığı baş ağrısı, əsəbdi...*
*İçindəki kükrəməyən qəzəbdi -*
*Bu talehlə oynamağa dəyməz heç!*

*Əl ürəyi sıxıb tutan bir masa,*
*Həmlələri hiss edirsən birbaşa!*
*Yük olanda bir ürəyə, bir başa-*
*Bu talehlə oynamağa dəyməz heç!*

*Ləpələrin qırışını saymıram,*
*Çəkdiyimin tüstüsün də yaymıram...*
*Bilirəm ki, mən nə qədər hay vuram -*
*Bu talehlə oynamağa dəyməz heç!*

*Uzaqlara göz zilləyib ha baxım,*
*Gülümsəmir əvvəlki tək sabahım...*
*Razılaşar mənimlə ta Allahım -*
*Bu talehlə oynamağa dəyməz heç!*

**Zamanın ələyi də, xəlbiri də həmişə öz işində olub. Kimi istəyirsə ələyib, kimi istəyirsə xəlbirindən keçirib. Bu istəyin iki yozumu olub. Biri yararlı olmaq, biri də kəpək olmaq.**

**Doğrudur, indi kəpəyi də una qatırlar. Necə deyərlər, insaf deyilən anlayış o qədər aşılanıb ki, düzəlməyən dünyada bəzən un ilə kəpəyin də fərqi olmur, ya da onu bir-birinə elə qatırlar ki, adam məəttəl qalır. Sonra düşünməyə məcbur olursan, bir halda ki, kəpəyi una qatacaqdıq onda niyə ələyirdik. Bir az məntiqi sual olsa da cavabı da məntiqlidi. Ələyirdik ki, görsünlər, bilsinlər biz iş görürük, işlə məşğuluq, onun faydalılığı isə sonuncu yerdə dayanır. Dərəcəsini müəyyənləşdirmək hər adama müəssər ola bilməz. Nə isə...**

**Bir az dərinə getmişdim. Fikirlərin bir-birinə calanması məni çözülməz duruma tərəf aparırdı. Yaxşı ki, nəfəs dərdim.**

**Lazım olmayan, düzgün başa düşülməyəcəyi fikirlərdən geri qayıtdım. Həmin o dönüş anında ilk ağlımdan keçən "lənət şeytana" oldu. Deməyin ki, burda şeytanlıq nə var ki... Yazan da, yozan da özünsən. Təbii ki, siz haqlısız. Mən də hardasa haqlıyam. Axı, ağlı başında olan adam heç vaxt görə bilməyəcəyi, qaldırmağa gücü birmənalı şəkildə çatmayacağı yükün altına çiyin verməz. Bu, müdriklik deyil, bu, reallığı görməkdir. Mən isə hisslərə qapılanda özümü burulğana salıram...**

**Bu gün öz-özümə verdiyim sualların hamısının əvvəli də, sonu da ömür yolumla bağlıdır. O yol ki, ordan keçib gələndə udduğum da, uduzduğum da, aldığım da, verdiyim də, sevib-sevmədiyim də mənimlə yanaşı olub. Necə deyərlər, çiyin-çiyinə addımlamışıq. Və...**

*Anlaşaraq bərəsiylə, bəndiylə*
*Mən bu yolu xəyalımda çox keçdim...*
*Yararlanıb zəmanənin fəndiylə -*
*Bir qarın ac, bir qarın da tox keçdim...*

*Qaçılmazdı büdrəmək, ya yıxılmaq -*
*Bildiyimdən dayanmadım, durmadım....*
*Haqlı-haqsız, açıq-aşkar sıxılmaq -*
*Olayların heç vaxt üzə vurmadım!*

*Ümidlərin tumurcuğun, çiçəyin*
*Mən bir köynək yaxınımda gördükcə...*
*Ağrıları unudurdum ürəyin -*
*Səhərləri bir-birinə hördükcə!..*

*Görünsəm də bir az fərqli, havalı -*
*Demə gözüm yeri-göyü seçmirdi!*
*Kimlərinsə dil əzbəri - bu halı -*
*Heç ağlımın ucundan da keçmirdi!*

*...Mən bu yolu ilk addımdan bu günə*
*Alın tərim və sevgimlə göyərtdim!*
*Ümidlərim düşəndə də düyünə -*
*Mən bu yola SEVGİ nədir? - öyrətdim...*

**Bəzən xatirələr məni öz toruna elə salır ki, çabalaya-çabalaya qalıram. Çıxa bilmirəm o xatirələrin girdabından. Açığını deyim ki, elə hallar olur heç çıxmaq da istəmirəm. Çünki o xatirələr dostlarımla, doğmalarımla, çevrəmlə, sevgimlə bağlıdır. Onlardan ayrılmaq və təkrar onların, təbii ki, itirdiklərimin acısını yaşamaq heç də asan deyil. Buna görə xüsusi vurğulayıram ki, əksər adamlar kimi məni də itirdiklərim, xüsusilə, itirəndən sonra təkrar kəşf etdiklərim yaman ağrıdır. Ona görə də o xatirələr həm də mənə həmin ağrıları yaşadır. Deməli, yaşadıqlarım filmə də bənzəyir, nağıla da oxşayır, bəzən də ilğımı xatırladır. Sonuncu heç cür gerçəkləşdirə bilmədiyim, yəni xəyalımda yaratdığım xatirələrdir. Onların bu dünyada bircə şahidi var. O da ürəyimdəkidir. Və təbii ki, ən böyük şahid də Allahdır. Həmin şahidlərin qarşısında nağıl danışmaq bir az özünü aşağılamaq kimi gəlir mənə. Çünki dili yüyrək olan nağıllar dinləyəni düşündürməlidir, inandırmalıdır. Mənim xəyali xatirələrimin nağılları isə ilğım olduğundan ona yaxınlaşdıqca o da uzaqlaşır. Və...**

**Və görürəm ki, uzaqlaşan xatirələrim özü ilə xoşbəxtliyimi də aparır. O xoşbəxtliyi ki, ömür yolumda təkcə çarpışmaqla, mübarizə aparmaqla, inad göstərməklə qazanmağa çalışmışam. Amma saxlaya bilməmişəm. Çünki xoşbəxtliyin bütöv formasını heç yuxuda da görməmişəm. Hər itirdiyim doğmamla, hər itirdiyim gözəlliklə, hər daşa dəyən ümidimlə müxtəlif formalara düşüb xoşbəxtliyim. Və sonda da...**

*Günəş gözümdəydi, Ay ürəyimdə,*
*Tanrımın verdiyi pay ürəyimdə!*
*Bahar təravətli yay ürəyimdə -*
*Bəs necə qaçırtdım xoşbəxtliyimi?!*

*Bağım barlı idi, baxçam da güllü,*
*Nəğməli, şeirli boxçam da güllü...*
*Günlər çinləmişdim taxçamda - güllü -*
*Bəs, necə qaçırtdım xoşbəxtliyimi?!*

*Yüyənsiz buraxdım zaman atını,*
*Səssiz dərinləşən fikir çatını...*
*Oxuya bilmədim tam həyatını? -*
*Bəs necə qaçırtdım xoşbəxtliyimi?!*

*Hər dəfə axırı irəli çəkdim,*
*Bir əli yandırdım, bir əli çəkdim...*
*Axı mən əlimi şirəli çəkdim -*
*Bəs necə qaçırtdım xoşbəxtliyimi?!*

*Külüm sovrulubdu, közüm tapılmır,*
*Deməyə bir kəlmə sözüm tapılmır...*
*Vallah, ha çözürəm, çözüm tapılmır -*
*Mən necə qaçırtdım xoşbəxtliyimi?!*

***P.S.** Dəyərli oxucu, bu yazıya görə sənin iradlarını qəbul etməyə hazıram. Çünki sənin də, onun da, onların da öz xoşbəxtliyi, öz xoşbəxtlik formulları var. Mənimki isə...*

## İçərişəhər Qala divarının dağılan hissəsində təcili tədbirlər görüləcək

**İçərişəhər ərazisində Qala divarının bir hissəsində baş vermiş qismən dağılma ilə bağlı əraziyə yüksək ixtisaslı mütəxəssislər cəlb olunub, təcili konservasiya və sabitləşdirmə tədbirləri həyata keçiriləcək.**

Adalet.az xəbər verir ki, bu barədə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaydığı məlumatda qeyd olunub.

Bildirilib ki, ilkin tədbirlər zədələnmiş sahənin daha da deformasiyaya uğramasının qarşısını almağa və konstruksiyanın dayanıqlığını təmin etməyə yönəlib.

Növbəti mərhələdə ərazidə ətraflı texniki və mühəndis-ekspertiza qiymətləndirilməsi aparılacaqdır. Qiymətləndirmənin nəticələrinə əsasən, Qala divarının zədələnmiş hissəsinin elmi əsaslandırılmış bərpası həyata keçiriləcəkdir.

Qeyd edilib ki, bu yanaşma daha əvvəl İçərişəhər ərazisində həyata keçirilmiş digər bərpa layihələrində uğurla tətbiq olunmuşdur.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi bildirir ki, ölkəmizin ən mühüm tarixi-mədəni irs nümunələrindən olan qala divarlarının qorunması prioritet vəzifədir. Qala divarlarında son illər ərzində hissəvi bərpa və konservasiya tədbirləri sistemli şəkildə həyata keçirilmişdir. Hazırda bu tədbirlər mərhələli plan çərçivəsində davam etdirilir və İsmailiyyə Sarayına bitişik hissəni əhatə edir.

Diqqətə çatdırılıb ki, aşınma hadisəsinin baş verdiyi 13 və 14 saylı bürclərin kəsişmə hissəsində indiyədək hər hansı bərpa və ya restavrasiya müdaxiləsi həyata keçirilməmişdir.

Aşınmaya əsas səbəb son günlər müşahidə olunan aramsız atmosfer yağıntıları nəticəsində yaranan rütubət və təbii erroziya prosesləridir.

Aparılacaq bütün bərpa işləri yüksək dəqiqlik, xüsusi həssaslıq və beynəlxalq standartlara uyğun şəkildə həyata keçiriləcəkdir. Məqsədimiz abidənin tarixi autentikliyini qorumaqla onun uzunmüddətli dayanıqlığını təmin etməkdir.

Vurğulanıb ki, prosesin gedişatı barədə ictimaiyyətə mütəmadi olaraq məlumatlar veriləcək.

## Azərbaycanda 100 manatlıq əskinazlar yenilənir

**Azərbaycan Mərkəzi Bankı (AMB) yenilənmiş dizayna və ən son mühafizə elementlərinə malik 100 manatlıq pul nişanının 15 iyul 2026-cı il tarixdən tədavülə buraxacaq.**

Bu barədə Adalet.az AMB-yə istinadən xəbər verir. Yenilənmiş 100 manatlıq pul nişanında ən son mühafizə elementləri olaraq üçölçülü mikrogüzgü effektində rəngi dəyişən holoqram, möcüzəvi "Spark Flow Prime" elementi (dinamik işıq effekti saçan, rəngi dəyişən Manat simvolu), su nişanı (pul nişanını işığa tutduqda Azərbaycan Respublikasının Dövlət Gerbi və nominalın rəqəmi), görmə qüsuru olanlar üçün tanıma elementi (pul nişanının ön tərəfində sağ və sol kənarlarda görmə qüsuru olanlar üçün xüsusi qabarıq xətlər yerləşir ki, bu xətlərə toxunmaqla pul nişanının həqiqiliyini və nominalını müəyyən etmək mümkündür), şaquli dizayn (banknot istehsalı sahəsində dünyada ən müasir trendə uyğun olaraq pul nişanının arxa tərəfi şaquli olaraq dizayn edilmişdir), mühafizə sapı, mürəkkəbsiz çap, mikromətnlər və s. tətbiq olunub.

Yenilənmiş 100 manatın üzərində Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Tahir oğlu Kazımovun imzası əks olunub və imza ön tərəfdə sol yuxarı küncdə yerləşir.

Hazırda ölkə ərazisində istifadə edilən bütün nağd pul sistem və avadanlıqlarının yenilənmiş 100 manatlıq pul nişanına uyğunlaşdırılması (adaptasiyası) proseslərinə başlanılıb.

Bildiririk ki, yenilənmiş 100 manatlıq kağız pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanı ilə paralel olaraq dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək

Ön və arxa tərəflərinin təsvirləri əlavə olunur.

## Çinin dörd təklifi...

**Çin Xalq Respublikasının sədri Si Tzinpin, Yaxın Şərqdə sülhün və stabilliyin qorunması üçün dörd təklif irəli sürüb.**

Bu barədə məlumat verən Çinin Mərkəzi televiziyası qeyd edib ki, bu təkliflər, Pekində səfərdə olan Abu-Dabinin şəhzadə Xalid ben Mühəmməd Əl-Naxayanla görüş zamanı irəli sürülüb.

Əsas təklif- sülh yaşamaq prinsipinə sadiq olmaq, region ölkələrin suverenliyinə hörmətlə yanaşmaq və beynəlxalq hüquq normalarına əməl etmək. Si Tzinpin, təhlükəsizlik və uzunmüddətli stabilliyin inkişaf etdirilməsi məsələsinin vacibliyini xüsusi vurğulayıb.

Xəbər verildiyi kimi, Associated agentliyi bildirib ki, ABŞ -İran nümayəndələrinin danışıqları aprelin 16-da Cenevrə və ya İslamabadda keçirilə bilər.

**Rüstəm Hacıyev**



Arzu Kazımqızı Nehrəmli
şair, publisist, tarix üzrə fəlsəfə doktoru

# Görünməyən dağların bələdçisi

**Vaqif Yusifli kimi ustad tənqidçinin, dəyərli alimin, sadə və səmimi fikir adamının mənalı ömür yoluna nəzər salmağın, qaynar çeşmə kimi çağlayan yaradıcılığına qiymət verməyin, onun haqqında ürək sözü deməyin nə qədər məsuliyyətli iş olduğunu çox yaxşı anlayıram. Sadəliyi və səmimiliyi ilə ürəyimdə fərqli yeri olan Vaqif müəllimin insan və alim kimliyinə bir oxucu gözü ilə baxanda məni həmişə xoş heyrət bürüyür.**

Klassik ədəbiyyatımızda mənalı söz inciyə bənzədilir. Bunu mən belə başa düşürəm ki, əsl həqiqət üzdə deyil, dərində axtarılmalıdır. Vaqif müəllim də hər hansı bir şeiri və nəsr əsərini təhlil edərkən bu ənənəyə sadiq qalır. O ilk növbədə mətinin dərinliyinə nüfuz edir. Dərinlikdəki relyefləri aydın görə bildiyi üçün hər söz, hər misra onun yazılarında yeni məna qazanıb zənginləşir. Bu yeni mənanı kənardan baxanda görmək mümkün deyil, onu görmək üçün gərək sözün sirli dünyasında qərar tutasan, o sirli dünyanın ağırının-yüngülünün, alçağının-ucasının, böyüyününkiçiyinin, enişinin-yoxuşunun, düzünün-əyrisinin yerini biləsən. Bu mənada, Vaqif müəllim müəlliflə oxucu arasında bələdçilik edir. Bu, məşhur el məsəlində deyilən "görünən dağa bələdçilik" etmək deyil. Vaqif müəllim görünməyən dağların bələdçisidir!

O, şeiri də, nəsri də, elə insanı da kənardan müşahidə etməklə kifayətlənmir; şeirdən yazanda şairin dünyasını, nəsr əsərini təhlil edəndə isə həm bədii obrazların, həm də obrazları yaradan müəllifin düşüncə aləmini kəşf etməyi, oxucuya və müəllifə göstərməyi bacarır. O, ilk növbədə müəllifin özünü özünə tanıdır. Vaqif müəllimin hər bir yazısında əsəri təhlil olunan müəllif özünün yaradıcı kimliyi ilə üz-üzə, göz-gözə, baş-başa qala bilir və müəllif özünü yenidən qiymətləndirir.

Belə düşünürəm ki, Vaqif müəllim üçün tənqid müəllifin yaradıcılıq dünyasına nüfuz etmək və onu başqalarına göstərmək sənətidir. Onun mətnlə müəllif arasında çəkdiyi yol sayəsində həm müəllifin, həm də oxucunun dünyası daha da böyüyür, zənginləşir, gözəlləşir.

Mən bunu sadəcə gəlişigözəl təxminlərimə, "kənar müşahidələrimə" əsaslanıb demirəm. Yolunu böyük həyəcanla gözlədiyim şeirlər kitabımdan birinin redaktoru olanda da, şeirlərimi təhlil edəndə də, publisistik yazılarım haqqında fikirlərini bildirəndə də Vaqif müəllimin bir keyfiyyəti mənim diqqətimi daha çox çəkib: yazıçını və yazını qiymətləndirərkən onun verdiyi ən böyük dəyər təbiilikdir. Görünür, bu, Vaqif müəllimin insan kimi düşüncələrinin təbiiliyindən irəli gəlir.

Bəzən deyirlər ki, tənqidçi təhlil etdiyi əsərin kənarında dayanmalı, öz fikirlərini soyuq məntiqlə, elmi mühakimələrlə əsaslandırmalıdır. Vaqif müəllim haq-



qında düşünərkən bu fikir mənə birtərəfli və yarımçıq görünür. Çünki Vaqif müəllim hər şeydən öncə müəlliflə oxucu arasındakı sərhədi aradan götürür, incə bir ünsiyyət məkanı yaradır. Onun yazıları mətnə daxil olub onu içəridən anlamağa bələdçi olur. O hər hansı yazını təhlil edərkən əvvəlcədən müəyyənləşdirdiyi, yaxud hamımıza dərsliklərdən məlum olan hazır müddəalarla hökm çıxarmır; müəllifin duyğusunu, düşüncəsini dərindən hiss edir, mətnin incə laylarını, gözə görünməyən çalarlarını üzə çıxarmağa çalışır və oxucunu da bu maraqlı prosesə qoşulmağa təhrik edir.

Onun tənqidi yazılarından oxucu ilə mətn arasında söhbət qurmağa çalışan ağsaqqal bir həmsöhbətin səsi gəlir. Bəlkə də mücərrəd görünəcək -Vaqif müəllimin yazılarını oxuyanda mən bu səsi eşidirəm. Bu baxımdan, o mənim üçün bədii əsərin rəngarəng obrazlar dünyasını anlamağa yardımçı olan müdrik bir məsləhətçidir.

Onun yazılarındakı fərqlilik, heç şübhəsiz ki, dərin biliklə, daimi mütaliə ilə bağlıdır. Müasir ədəbi prosesin fəal yaradıcılarından olan Vaqif müəllim klassik ədəbiyyatımızın da usta sərrafıdır. Ədəbiyyatı nəhəng bir ağaca bənzətsək, Vaqif müəllimin sərraf gözləri o ağacın yarpaqlarını budaqlarına, budaqlarını gövdəsinə, gövdəsini köklərinə, köklərini də torpağa bağlayan gözəgörünməz telləri çox aydın görür. Onun həcmindən asılı olmayaraq hər bir təhlilində bugünkü ədəbiyyatımızın Nizami, Nəsimi, Füzuli kimi dərin köklərdən boy atdığını görürük. Vaqif müəllim yazılarında və söhbətlərində klassiklərimizi, xüsusilə Füzulini özünəməxsus şairanə bir yanaşma ilə şərh edir. O, Füzulini müasir oxucu ilə həmsöhbət eləməyi bacarır.

Düşünürəm ki, bu bənzərsiz keyfiyyətlər Vaqif müəllimin şair təbiətindən irəli gəlir. O, mətnin mənə laylarına baş vurarkən bəzən müəllifin özünün belə fərqində olmadığı rəngləri, çalarları üzə çıxarır. Vaqif müəllimin yazılarına yüksək dəyər gətirən müəllifin dediklərini təkrarlamaq deyil, müəllifin dediklərini yeni bir işıq altında göstərməkdir.

Yəqin mənimlə razılaşarsınız ki, müasir ədəbiyyatımızın ardıcıl izləniləməsində, müxtəlif üslubları təmsil edən şair və yazıçıların yaradıcılığının qiymətləndirilməsində, ədəbi prosesdə hər kəsin yerinin müəyyənləşdirilməsində Vaqif müəllim qədər həssas və məhsuldar fəaliyyəti olan tənqidçi adı çəkmək çətindir. O, uzun illərdir ki, sanki ədəbi prosesin "gündəliyini", bir qədər köhnə hesabla desək, "xatirə kitabını" yazır. Bu kitab həm də ona görə maraqlı və qiytmətlidir ki, Vaqif müəllimin dili oxucu üçün aydındır, irəli sürdüyü mülahizələri kifayət qədər anlaşıqlıdır. O, oxucunu görünməyən dağlara tərəf apararkən dilin dolanbac yollarında çaşbaş salıb azdırmır.

Vaqif müəllimin, demək olar ki, bütün ədəbi fəaliyyəti ərzində "Azərbaycan" jurnalında çalışması ona bir üstünlük və gətirib. O, daim hərəkətdə olan canlı ədəbi mühitin içində olub, ədəbi mühitin yenilikləri ilə nəfəs alıb. Vaqif müəllim ədəbi mühitin iqlimini, istisini-soyuğunu öz təcrübəsində yaşadığına görə onun yazılarında həm ciddi obyektivlik, həm də səmimi həssaslıq var. Bu həssaslığı indi dəbdə olan ifadə ilə "empatiya", yəni özünü müəllifin yerinə qoymaq da adlandıra bilərik...

**Vaqif müəllimin haqqında yazdıqlarını oxumaq mənim üçün güzgüyə baxmaq kimidir. Mən bu güzgüdə "güzgülənərkən" öz mətnlərimin güclü və zəif cəhətlərini, eləcə də gələcək oxucu ilə ünsiyyət üfüqlərini görürəm. Və şükür edirəm ki, o üfüqlərə gedən yolda mənə müdrik dostum, professor Vaqif Yusifli bələdçilik edir...**

Aqil ABBAS

# BİR STƏKAN ÇAYIN 56 İLLİK XATİRƏSİ

**Azərbaycanın görkəmli tənqidçisi, ədəbiyyatşünası, filologiya elmləri doktoru, professor Vaqif Yusiflinin yeni yaşı tamam olur. Yəni Vaqif müəllimin titullarını bir kənara qoysaq, imzasının altına elə bunu yazsaq bəsdi - Gözəl insan. Bu illərin 56 ilini bu gözəl insanla yol yoldaşıyıq, əqidə dostuyuq, fikir dostuyuq. Mən birinci kursda oxuyanda o, üçüncü kursda oxuyurdu. Təsadüf bizi yaxınlaşdırdı və düz 56 ildi bu yaxınlıq davam edir.**

**Vaqif müəllimi başqa tənqidçilərdən, ədəbiyyatşünaslardan əsas fərqləndirən cəhət odur ki, əvvəla çox məhsuldar işləyir, xüsusilə gəncləri həmişə diqqət mərkəzində saxlayır, onların həm nəsr əsərlərini, həm də poeziyasını dərindən təhlil edib oxuculara çatdırmağa çalışır.**

**Bu təbrik heç də borc sayılmasın. Çünki Vaqif Yusifli mənim indiyədək yazdığım romanların, povestlərin, hekayələrin ilk oxucusu və ilk tənqidçisi olub. Tənqid deyəndə elə başa düşməyin ki, əsərləri yıxıb-sürüyüb, sadəcə olaraq, təhlil edib və təbii ki, çatışmayan cəhətləri də göstərib ki, yeni əsərlərdə diqqətli olum.**

**Vaqif Yusifli ilə bir dəfə də Rəşad Məcidlə birlikdə Ağdama səfər etmişik, daha doğrusu, Quzanlıya. Mədəniyyət Evində Məmməd Arazın yaradıcılığı ilə bağlı tədbir keçirilirdi. Bu səfər ona çox ləzzət elədi, həmişə də deyir ki, bir də nə vaxt gedəcəyik?**

**Vaqif Yusiflinin Ağdamı sevməyi əslində bir başqa sevgidi, bu sirri açmıram...**

**Vaqif müəllim, ömrün uzun, qələmin iti və həmişə gənclərin dayağı olasan. 30 ildən çox olduğu kimi "Ədalət" qəzeti həmişə sənin qulluğundadır.**

**Türklərin belə bir deyimi var: "Bir acı qəhvənin 40 il xatirəsi var". Bizim bir stəkan çayımızın da 56 illik xatirəsi var.**



Səadət Sultan,
Yazıçı-publisist, AYB üzvü

# Vaqif Yusifli haqqında düşüncələrim

**Ədəbiyyat yalnız yazılan mətnlərdən ibarət deyil; o, həm də bu mətnləri dəyərləndirən, istiqamətləndirən və oxucuya doğru təqdim edən düşüncə adamlarının fəaliyyəti ilə bütövləşir. Bu baxımdan görkəmli tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusiflinin yaradıcılığı və ədəbi mövqeyi mənim üçün hər zaman xüsusi maraq doğurub.**

Vaqif Yusifli təkcə tənqidçi deyil, o, ədəbiyyatı yaşayan, onun dərindən duyan və bu duyğunu sözə çevirə bilən nadir şəxsiyyətlərdəndir. Onun yazılarında hiss olunur ki, o, ədəbi mətnə kənardan baxmır, əksinə, onun daxilinə nüfuz edir, obrazların, fikirlərin, müəllif niyyətinin ən incə qatlarını üzə çıxarmağa çalışır. Bu isə onun tənqidini quru nəzəriyyədən uzaqlaşdıraraq canlı, təsirli və düşündürücü edir.

Mənim üçün Vaqif Yusiflinin ən diqqətəlayiq cəhətlərindən biri onun obyektivliyi və ədalətli yanaşmasıdır. O, müəllifə münasibətdə nə həddindən artıq tərifə, nə də əsassız tənqidə yol verir. Əksinə, hər bir əsəri öz daxili qanunları çərçivəsində qiymətləndirir, onun güclü və zəif tərəflərini aydın şəkildə göstərir. Bu yanaşma isə həm müəllif, həm də oxucu üçün böyük əhəmiyyət daşıyır.

Onun dili də ayrıca qeyd olunmalıdır. Vaqif Yusiflinin üslubu sadəliklə dərinliyin harmoniyasını yaradır. O, mürəkkəb ədəbi məsələləri belə oxucuya anlaşıqlı şəkildə təqdim etməyi bacarır. Bu, yalnız böyük bilik deyil, həm də böyük ustalıq tələb edir. Onun yazılarını oxuyarkən hiss olunur ki, hər bir cümlə düşünülmüş, hər bir fikir süzgəcdən keçirilmişdir.

Vaqif Yusifli eyni zamanda ədəbiyyatda yeni imzaların üzə çıxarılmasında, onların yaradıcılığının dəyərləndirilməsində mühüm rol oynayan tənqidçilərdəndir. Onun diqqəti və dəstəyi bir çox gənc yazar üçün stimul olmuş, onların ədəbi yoluna işıq salmışdır. Bu isə onun fəaliyyətinin yalnız tənqid çərçivəsində qalmadığını, daha geniş bir missiya daşıdığını göstərir.

Mənim üçün Vaqif Yusifli ədəbiyyatın sadiq keşiyində duran, sözün dəyərini bilən və onu qoruyan ziyalı obrazıdır. Onun yaradıcılığına müraciət etdikcə bir daha anlayıram ki, əsl tənqidçi yalnız qiymətləndirən deyil, həm də istiqamət verən, düşündürən və ədəbi prosesi zənginləşdirən şəxsdir.

Bu yazını yazmaqda məqsədim bu yaxınlarda mənim "Yağışda islanmayan adam" adlı kitabıma rəy bildirməsi ilə əlaqədardır. Məhz bu münasibətlə Vaqif Yusifli kimi nüfuzlu bir tənqidçinin fikirlərinə bir daha qayıtmaq, onun sözündəki dərinliyi və məsuliyyəti dərk etmək istədim.

Ədəbi mühitdə rəy bildirmək sadəcə fikir söyləmək deyil, bu, həm də müəllifin yaradıcılığına güzgü tutmaq, onun gördüyünü və bəzən də görə bilmədiyini üzə çıxarmaq deməkdir. Vaqif Yusiflinin mənim kitabım haqqında söylədiyi fikirlərdə məhz bu cəhəti aydın şəkildə hiss etdim. Onun yanaşması nə təkcə təqdir, nə də təkcə tənqid idi - bu, daha çox anlayan və anlatmağa çalışan bir ədəbiyyat adamının mövqeyi idi.

"Yağışda islanmayan adam" haqqında deyilənlər mənim üçün yalnız bir rəy deyil, həm də bir məsuliyyət oldu. Çünki belə bir tənqidçinin diqqətindən keçmək, onun süzgəcindən süzülmək hər bir müəllif üçün həm qürurverici, həm də düşündürücüdür. Bu rəy mənə öz yazdıqlarıma kənardan baxmaq imkanı verdi; bəzən üzərində dayandığım, lakin ifadə edə bilmədiyim məqamları onun sözlərində gördüm.

Mənim üçün xüsusilə önəmli olan odur ki, Vaqif Yusifli əsərin mahiyyətinə enməyi bacarır. O, yalnız süjetə və ya zahiri tərəflərə diqqət yetirmir, daha çox mətnin içində gizlənən psixoloji və fəlsəfi qatları üzə çıxarır. Bu isə müəlliflə tənqidçi arasında görünməz bir dialoq yaradır. Sanki o, yazılmamış fikirləri belə oxuya bilir.

Bu gün ədəbi mühitdə müxtəlif yanaşmalar, fərqli baxışlar mövcuddur. Lakin hər zaman obyektiv, sanballı və düşünülmüş sözə ehtiyac var. Vaqif Yusiflinin rəyində mən məhz bu ehtiyacın qarşılandığını gördüm. Onun fikirləri nəinki bir əsərə münasibət, həm də ümumilikdə ədəbiyyata baxışın ifadəsidir.

Yeri gəmişkən, aprel ayının 20-də Vaqif Yusiflinin ad günüdür. Bu münasibətlə sözə və ədəbiyyata ömrünü həsr etmiş bu dəyərli ziyalını ürəkdən təbrik etmək istəyirəm.

Hörmətli Vaqif müəllim, Sizin qələmə aldığınız hər bir yazı, söylədiyiniz hər bir fikir ədəbiyyatımız üçün bir işıq mənbəyidir. Siz təkcə əsərləri dəyərləndirmir, eyni zamanda ədəbi düşüncəni formalaşdırır, sözün məsuliyyətini bizlərə bir daha xatırladırsınız. Sizin kimi tənqidçilərin varlığı ədəbiyyatın sağlam inkişafının ən böyük təminatıdır. Arzu edirəm ki, qələminiz daim iti, sözünüz həmişə kəsərli olsun. Yazdıqlarınız yeni nəsil yazarlar üçün yol göstəricisi, oxucular üçün isə düşüncə mənbəyi olaraq qalmaqda davam etsin. Sizə möhkəm cansağlığı, uzun ömür və yaradıcılıq uğurları arzulayıram.

**Ad gününüz mübarək olsun!**



Rafiq ƏLƏKBƏR



# Kainatda Səməd Vurğun dünyası

(sərbəst esse-poema)

Kainat təkcə qalaktikalarla deyil,
şəxsiyyətlərlə də böyüyür;
bu şəxsiyyətlər bir düşüncə dünyası kimi
kainatın ruhuna təsir göstərirlər.
Zamanın bütün dövrlərində
Odlar Yurdu Azərbaycan
şəxsiyyətlər məkanı olmuşdur.
Onlar yaşadıqları dövrdən
gələcəyə körpü salmış,
Odlar yurdunun gələcəyini işıq gələn
tərəfə istiqamətləndirmişlər.
XX əsrin əvvəllərində Qafqazda
bir uşaq dünyaya gəldi.
Qafqazın ruhu və əzəməti bu məsum
uşağın ruhunda və ürəyində pərvazlanırdı.
Onun ruhu və ürəyi cismindən
fantastik dərəcədə böyük idi.
O, Qafqaz dağlarının göylərlə
rabitəsini yaratmışdı.
Yerə sığışmayan, göyləri əlçatan
edən bir uşaq kimi böyüyürdü,
böyüdükcə ətrafa işıq saçırdı.
O, Azərbaycanın döyünən ürəyi idi,
fırtınalar bu döyünən urəyi
söndürə bilmirdi.
Çünki vətəni, Azərbaycan torpaqları
önun döyünən ürəyinə məlhəm idilər.
Onun həyatı dünyanın ən qəddar rejiminin,
ən mənfur despotunun idarəçiliyi
və nəzarəti altında keçirdi.
Artıq 20 yaşında bu gənc oğlanın səsi
imperiyada eşidilməyə başlanmışdı.
İmperiya onun parlaq dühasına təzim edirdi.
İmperiyanın istibdad reyimi dühaları
söndürməkdən ötrü hər vasitəyə əl atsa da,
Səməd Vurğun dühası misilsiz ağlı
və bənzərsiz idrakı ilə bütün
dolanbac yollardan adlamağı bacarırdı.
Bu yollar onun ömrünü yeyirdi,
imperiya bir xərcəng kimi onun
ömrünə daraşmışdı, bu yollarda
onun yeganə məlhəmi
Azərbaycanın əsrarəngiz təbiəti idi,
imkan düşən kimi Azərbaycan çöllərinə
ova gedir, ağ enerji ilə ruhunu qidalandırırdı.
İmperiyanın mənfur qaranlıqlarında Səməd Vurğunun
ağ enerjisi aydınca sezilirdi.
Oun üçün Vətən, Azərbaycan ən ali dəyər idi.
Onun poeziyası qaranlıqları dəlib keçən mayak idi.
Nə olursa olsun, bu istibdad rejimində Azərbaycanın
ruhi varlığını qorumaq lazım idi.
Hər bir şəxsiyyət öz dövrünün məhsuludur.
Səməd Vurğun şəxsiyyətini də öz dövrünə
görə qiymətləndirmək lazımdır, baxmayaraq ki,
onun nurlu üzü, comərdliyi və məğrurluğu
imperiyanın mənəvi sərhədlərinə sığışmırdı,
bəzən bu sərhədləri bilərəkdən şifrələrin dili ilə
Azərbaycan sərhədləri ilə qarışdırırdı.
Burada birbaşa hədəf olmadığına görə,
nə qədər qədər sıxsalar da Səməd Vurğun
dühasını söndürə bilmirdilər.
Lakin cismini xərcəng kimi yeyirdilər.
Səməd dünyasında bir gün yüz günə bərabər idi.
Ona görə də 30 yaşlı Səməd 70 yaşlı
nurani ağsaqqalla bənzəyirdi.
İmkan daxilində imperiyada dəhşətləri
şifrəli mesajlarla cəmiyyətə ötürürdü,
başa düşürdü ki, Azərbaycanın başı üstündə
dolaşan təhlükələri şifrəli şəkildə də yazmaq üçün
yaşadığı dövrün hadisələrini reyimin
zövqünə uyğun qələmə almaq lazımdır,
bununla o, qismən təhlükəsizliyinə nail olmaq istəyirdi.
Lakin o, ömrünün sonuna kimi domokl qılıncını
başının üstündə, dar ağacını çiynində daşıdı.
Bəzən o, şifrəli mesajlarını birbaşa olmasa da,
obrazlrın dili ilə cəmiyyətə ötürürdü.
"Xudaya, insanın halı yamandır,
Nələr çəkdiyimiz sənə əyandır"...
Bu misralar 30-cu illər Azərbaycanı
xarakterizə edən ən gözəl nümunədir.
Onu yaşamağa qoymurdular,
hər gün sorğu-suala tuturdular,
poeziyasında şifrəli mesajları tapan kimi
qaraguruh qüvvələr üstünə şığıyırdılar.
Allahın lütfü və xalqının misilsiz sevgisi
ən çətin məqamlarında köməyinə çatırdı.
O, sağlığında paltar əvəzinə kəfən
geyinən dahilərdən idi...
Bakının və Moskvanın rəhbər vəzifəli şəxsləri
onun fiziki məhvinə fürsət axtarırdılar.
Stalin özü şər dahisi olsa da,
digər dahiləri qiymətləndirməyi bacarırdı.
O, Səməd Vurğunun tükənməz
ruhi enerjisinə heyrət edirdi.
O, tək-tək sənətkarlardan idi ki,
Stalin onunla mükalimələr aparır,
sovet poeziyasının incəliklərini müzakirə edirdi.
Bu hal imperiya muzdluları tərəfindən
onun fiziki məhvinə ciddi sədd oldu,



lakin onun cismini qətrə-qətrə əritdilər.
Sanki bilə-bilə onun vücudunda
xərçəng yerləşdirdilər.
İmperiya yazıçı, şairləri onu poeziyanın
marşalı adlandırırdılar.
Odlar Yurdunun belə bir şəxsiyyətə
malik olmasını düşmənlər, xüsusilə ermənilər
heç cür həzm edə bilmirdilər.
Səməd Vurğun dünyasından Moskvaya iftira
dolu donosların sayı-hesabı yox idi,
onu gah millətçilikdə, gah da pantürkizmdə
günahlandırırdılar.
Lakin imperiyanın bütün sağlam düşüncəli şair
və yazıçıları Səmədi çox sevirdilər,
onu sovet poeziyasının zirvəsində saxlayırdılar.
Onun nəhəng ürəyi Azərbaycan boyda idi.
Azərbaycanın bütün düşmənləri
Səməd Vurğun dünyasının düşmənləri idilər.
Repressiya illərində Səməd Vurğun dünyası
Azərbaycanın simvolu idi.
Keçən əsrin 40-cı illərində Möskvadan gələn
göstərişlə Qobustan qayalıqlarının tikinti
məqsədləri üçün istifadə edilməsi üçün
fəaliyyətə keşmişdilər.
Bunun təşkilatçıları və icraçıları yuksək ranqlı
erməni məmurları idi.
Bu məlumatı alan Səməd Vurğun bir gündə
ermənilərin istəyini alt-üst etdi.
İmperiyanın bütün şair, yazıçıları
Səməd Vurğun dünyasını ziyarət etməyə gəlirdilər.
Hətta Göygöldə böyük nümayəndə heyətini
ormanlardan gül-çiçək yığmağa sövq etmişdi o.
Tanrı həmin illərdə bizə Səməd kimi
düha bəxş etməklə
bizə ən böyük lütfünü göstərməyibmi?
Səməd cismən zəif, mənən nəhəng idi.
Onun dillər əzbəri olan "Azərbaycan" şeiri
yurdumuzun ikinci bir himninə çevrilmişdi.
Səməd dünyasına daş atanlar
ucuz reytinq qazanmaq istəyənlərdir.
Səməd Vurğun Azərbaycan vurğunu idi,
Vətəninin, xalqının vurğunu idi.
Böyük şəxsiyyətlərimizi ucalıqda
saxlamağı bacarmalıyıq.
İmperiya burulğanında bir Səməd Vurğun
dünyası parlayırdı.
Səməd Vurğun dünyası
imperiyanın üfüqlərini aşmışdı...

# Rəssamlar İttifaqında "Qərbi Azərbaycan" adlı sərgi açılıb



**Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda istedadlı rəssam Əli İsmayıl Əliyevin "Qərbi Azərbaycan" adlı fərdi sərgisi açılıb.**

Bu barədə Rəssamlar İttifaqından məlumat verilib. Bildirilib ki, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı, professor Fərhad Xəlilov sərgi haqda ətraflı məlumat verib, rəssamın rəngkarlıq əsərlərinin bədii əhəmiyyətindən danışıb.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli çıxış edərək rəssamın yaradıcılığında Qərbi Azərbaycan mövzusunun xüsusi önəm daşıdığını vurğulayıb və onun əsərlərində hər zaman bu coğrafiyanın mədəniyyət abidələrinin və adət-ənənələrinin incəliklə və dəqiqliklə əks olunduğunu qeyd edib.

Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Şamilli və sənətşünas Rəfail Gülməmmədli rəssamın həyat və yaradıcılığı, onun əsərlərinin bədii keyfiyyətlərindən söhbət açıblar.

Sonda rəssam Əli İsmayıl Əliyev çıxış edərək onun yaradıcılığına göstərilən dəstəyə görə Azərbaycan Rəssamlar İttifaqına və sərgidə iştirak edən şəxslərə öz təşəkkürünü bildirib.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Ekspozisiyada rəssamın müxtəlif illərdə və fərqli janrlarda işlənilən 50-yə yaxın rəngkarlıq əsəri nümayiş olunur.

Sərgi aprelin 18-dək davam edəcək.

# Nağıllar aləminə səyahət

**Dünən Abşeron rayonu, Xırdalan şəhər 11 saylı tam orta məktəbində "Nağıllar aləminə səyahət" adlı 2 aprel Beynəlxalq Uşaq kitabı günü qeyd olundu.**

Tədbir Azərbaycan Respublikasının Dövlət Himni ilə səsləndirildi. Şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.Tədbirin aparıcısı Aydan Bağırova hər kəsi salamlayaraq dedi:

- Bu gün düşüncənin, xəyalın, bilik və müdrikliyin bayramıdır.

Bu gün biz kitabın sehrinə, sözün qüdrətinə və insanı ucaldan elmin işığına səyahət edəcəyik.

Bu gün kağız üzərində yazılmış hər bir hərfin ürəyə toxunduğu, hər bir cümlənin bir dünyaya açılan qapı olduğu gündür.

Bu gün uşaqların ən səssiz dostu, ən sədaqətli sirdaşı, ən işıqlı yol yoldaşı olan kitabların bayramıdır.

1B- sinif şagirdi Hüseyn Mənsimov müəllimləri, valideynləri və nağıl sevən dostlarını salamladı və dedi:



- Bu gün biz adi bir günə yox sehirli bir günə toplaşmışıq.

Bu gün 2 aprel Beynəlxalq Uşaq Kitab günüdür. Bu gün kitabların danışdığı, nağılların canlandığı, qəhrəmanların səhnəyə gəldiyi gündür. Kitab səssiz danışan dostdur. Kitab bizi xəyal qanadlarında uzaqlara aparır. Kitab insanı böyüdür, ağıllı edir, ürəyini saflaşdırır.

Kitab səssiz danışan, lakin çox düşündürən dostdur. O, zamanın sınağından keçərək bizə keçmişi danışır, gələcəyi isə düşündürür. Elm kitabdan başlayır. Hər böyük kəşfin, hər uğurun təməlində bir səhifə, bir cümlə, bir fikir dayanır. Oxuyan insan düşünür, düşünən insan yaradır, yaradan insan isə dünyanı dəyişir.

Balaca sagirdlərin ifasında " Bakının qara gözlü qızları " mahnısı və oğlanların ifasında " Uzundərə " rəqsi alqışlarla qarşılandı.

Azərbaycan təhsilində əvəzsiz rolu olan Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, prezidentimiz İlham Əliyevin əvəzsiz bilik və bacarığı sayəsində Azərbaycan Təhsili günügündən çiçəklənir və irəliyə doğru addımlarla yüksəlməyə davam edir adlı " Video çarx" nümayiş olundu. 1B sinifinin hazırladığı " Tənbəlin sərgüzəştləri " səhnəciyi maraqla qarşılandı. Oğlanların söylədikləri "Aforizimlər ", rəqslər, mahnılar alqışlarla qarşılandı. Tədbirdə Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, yazıçı publisist Elşad Dağlı çıxış edərək şagirdləri 2 aprel Beynəlxalq Uşaq Kitab günü münasibətilə təbrik etdi və hər birinə uğurlar dilədi. Sonda 11 saylı məktəbin direktoru Elşən Quliyev çıxış edərək 1B sinifnin şagirdlərinə, onun rəhbəri Günel Məmmədovaya minnətdarlığını bildirdi.

Sonda xatirə şəkili çəkildi.

**Elşad Qasımov**
**AYB və AJB-nin üzvü**



Allahverdi Eminov

# Məmməd Araz poeziyasında təhtəlşüur aktı

(VII məqalə)

**Şair yaradıcılıq prosesində müxtəlif mənəvi - ruhi və ictimai - sosial situ-asiyalarla qarşılaşır və onda yazmaq həvəsi oyanır. Belə ki, insanların psixi dav-ranışı, hadisələrə münasibəti, gözəlliyə baxışı və sair hissləri müəyyən assosiyalar doğurur. Bu insanlar arasında eləsi var - tərki - dünya və həyat tərzinin gücü ilə vücudunda zəiflik əmələ gəlirsə, "həyat iskiri"nin qarşısını almağı bacarır. İnsanda cinsi meyillər baş qaldırır, bu isə fitridir, daxili tələbatdır. Deyək ki, zahidlər, brəhmənlər (hindlilər) əziyyətə tab gətirməklə bu qeyri - adi hissi zəiflədirlər, hətta yada düşmür. Lakin qeyri - leqal şəraitdə fürsəti ötürmürlər oyanmış ehtirasları dirçəlir, oyandaş olurlar...**

Məmməd Araz poeziyası onun varlığında yaradıcı - ehtiraslı duyğulara cavab vermişdir. O, şeirləri ki, yazmışdır - bu hisslər onun ilhamının dərinliyindən gəlmişdir. Məsələn, "Kəklik" şeirində oxuyuruq.

*Nə çəkirsən narın - narın,*
*Yenə daşdan - daşa kəklik?*
*Könlüm istər nəğmən kimi*
*Bircə nəğmə qoşa, kəklik!*

*Niyə təksən, danış əzəl,*
*Dağlar qızı, xalın gözəl!*
*Bir vəfalı yar ilə gəl*
*Vuraq ömrü başa, kəklik!*

*Dağlar qoynu çiçək - çiçək,*
*Mən gedirəm, getmir ürək,*
*Uç Məmmədin xəyali tək -*
*Bu dağlarda yaşa, kəklik!*

Məmməd Arazın poeziyasına nüfuz edəndə onun poetik davranışında idrak dayanır, bu, yoxsa "libido" deyilən maddiyyat ödənilmir. Ona görə də varlığın özü olan həyat sönükdür, puçdur, dəyərsizdir. Şairə məxsus poetik dəyərlər mövcuddur - onun şeirə çevrilməsi şair tərəfindən qələmə alınmalıdır və bu, təbii, yaxud qeyri - iradi, təhtəlşüurun istəklərilə bağlıdır, şairin poetik davranışına hakim kəsilir: Bu hal o zaman baş qaldırır - sevgi - eşq onun dəruni hisslərindən süzülür. Məsələn, "Sən getdin" şeiri belə bir "aqibətin" məhsuludur.

*Sən mənim yazıma birinci yağış,*
*Sən mənim qışıma sonuncu qardın.*
*O mənim qəlbimdə ümman tapmamış*
*Pərişan bir eşqi hara apardın...*

*Sən getdin son həsrət eşqi gözümdən*
*Qəlbimə axmadı sözlə, qılıqla.*
*Bəlkə oğurlayıb səni özümdən*
*Sənə qaytarardım bu ayrılıqla...*

*Son dəfə dinlədim ayaq səsini,*
*Qəlbimdə bir tufan qopdu dərindən.*
*Sən getdin, elə bil Yer kürəsini*
*Ayırdın bir anlıq öz məhvərindən.*

*Dəydi bir-birinə səma, dəniz, dağ,*
*O görüş nə idi, bu ayrılıq nə?*
*Nə bilim, bəlkə də bir qəlbi qırmaq -*
*Bir tale yıxmaqdan asandır mənə.*

*Bir də ki, dənizə bənzər bu aləm,*
*Həyatım, taleyim onsuz deyildir.*
*Mən yalnız gəmiyəm, üzmək bilirəm,*
*Hara üzdüyümü özgələr bilir...*

Bu, o eşqdir - sevgidir şairi coşğun sel - su kimi yerindən oynatmışdır, gö-zəlliyin ağuşuna atmışdır. Məmməd Araz bu şeiri 30 yaşında yazmışdır. Bununla o, İnsan olaraq yaşayan, duyan kişi funksiyasını ödəmişdir.

Məmməd Araz üçün İnsan - şair möhtəşəm məxluqdur, həyatı anlayır, ha-disələri qavrayır, ziddiyyətlərin hər iki qütbünü fərqləndirir - zəkası, hissiyyatı va-sitəsi ilə, Kainata - Dünyaya hakim kəsilən qanunların, əlaqələrin gerçəkliyini mə-nimsəyir. Məmməd Araz üçün Varlıqda insan kamil üstünlüklərə malikdir, yox əgər şair doğulubsa hissi idrakla yaradır, özünü "sakitləşdirəndən" sonra özünü xoşbəxt hiss edir. Və bir suala cavab axtarmışdır: "Xoşbəxtlik şairlərdən nə üçün qaçır?" Məmməd Araz isə xoşbəxt idi, hər şeirində yaşayırdı. Antik filosof Pla-tona (Sokratın müəllimi) görə, xoşbəxtlik dürüstlükdən və ədalətdən irəli gəlir. Epikur üçün xoşbəxtlik zövqdən və sakitlikdən doğur. Məmməd Araz hər iki ya-naşmanı özündə yaşadırdı. Bunu şairin qələmdaşları duymuşlar. Musa Yaqub, Nəriman Həsənzadə ona şeirlər yazmışlar. Musa Yaqub yazmışdır:

*Bir eşqimə hicran möhrü basılmış*
*Heç bilmirəm necə yazmış yazanım?*
*Səhvim var ki, bəxtimə də yazılmış,*
*Daha onu poza bilməz pozanım.*

Məmməd Araz cavabında təmkinlə, daxili "təkanla" yazdı:

*Mənim könlüm yad səslərə satılmaz,*
*Şöhrət üçün hər məclisə atılmaz,*
*İlhamıma yad nəfəsi qatılmaz,*
*Təbiətdir ilk ustadım, ozanım.*

Bu nümunə əslinə qalsa böyük şairimizin sənət kredosudur və belə bir for-muləni xatırlatdı: poetik təkan varsa, şeirin yaranmasına səbəb təsir göstərəndir, tə-sir edənə isə yol əqli idrakın tələbləri ilə bağlıdır və poetik hisslərdən kənarda mövcud deyil.



Xatırlayıram: Məmməd Araz mütaliəni çox sevirdi, o cümlədən Qədim filo-sofları oxuyurdu. Onların İnsan idrakı ilə bağlı mülahizələrinə laqeyd qalmırdı. Ona görə ki, antik hikmətçilər (filosoflar) hissi idrakla əqli idrakın fəaliyyət se-çi-mində roluna müxtəlif baxışlar da, əsasən də hissi idrakı arxa plana çəkmişlər. Şair halbuki, hisslərə daha çox üstünlük verməlidir. Məsələn, Məmməd Arazın məşhur şeiri belə bir "formulə"nin məhsuludur.

*Ana yurdum, hər daşına üz qoyum,*
*Hər dərəndə çaldığım saz yaşayır.*
*Kim sənin çiynində,*
*Sən kiminin...*
*Şöhrətini az yaşadan yaşayır.*

*Bu gileydən qəlbim yaman xallanır;*
*Çox ünvanda qaçaq tərif yallanır,*
*Bir ağacın budağından sallanıb,*
*Neçə-neçə ağlı dayaz yaşayır.*

*Gülüm, bir də görüşünə yubansam,*
*Adımı tut, harda dağlar dumansa,*
*Gözünü sıx,*
*Hansı daşda su varsa -*
*O daş altda Məmməd Araz yaşayır.*

Şair hisslərdən məhrumdursa, o qurumuş ağac kimi yalnız kökündən yaşayır, hissləri qəbul eləmirsə gözəlliyi, təravəti, həyatiliyi və sairi qəbul edə bilməz, ilahi dəyərlərdən uzaqlaşar. Gözəlliyin cazibə qüvvəsinə yadlaşar. Məmməd Araz təbiə-tin ecazkar görüşünə biganə qalmamışdır, "Dağlara qar düşdü", "Əlvida, dağlar", "Dağlara çağırış" şeirləri-ni qələmə aldı, "Şair, qayalara, dağlara söykən, mənim də arzumu sən yaşat, barı", - deməklə, xatırladır ki, dağıdıcı nə varsa həyatda məqsə-dinə nail olmayacaq, "dağlar öz hökmündə güzəştsiz, ötkəm olur!

*Dağlar sevgisində bir ulu ata,*
*Dağlar, ərköyünlər atası deyil.*
*Kimini xurcuntək çiyninə atan,*
*Yelləncə sapandına qoyub kimini,*
*Dərələr dibinə atası deyil...*

Məmməd Arazda poetik yaradıcılıq bir qüdrətdir, təhtəlşüur aktıdır, psixo-analitik mənbələrdən qidalanır, poetik təkanı - qüvvəsi - enerjisi dərinliklərə varır, şairin daxili dünyasından aşkara çıxır, maddiləşir.

**Şeir - könülovutma vasitəsidir, şairin gözəlliyə vurğunluğudur, ruhi həyəca-nın sakitləşməsidir.**

**15.09.2024**

*Emin Qəzənfəroğlu*



## *Azərbaycanda mediasiya: Formal arayışdan barışıq sazişinə doğru*

**Hörmətli oxucular, məqaləmə Mediasiya Şurasının rəhbəri hörmətli Nadir Adilovun fikirləri ilə başlamaq istəyirəm. O, bildirmişdir ki, mediasiyanın yeni fəaliyyətə başladığı ilk illərdə vətəndaşları Qanunu tam tətbiq etməkdən çəkindirən qüvvələr onları təhrik edərək vətəndaşa mediasiya təşkilatından, mediatorlardan "get, arayışını al, gəl" deyib, mediasiya proseslərini provokasiya və sabotaj edirdilər.**

**Yeni Qanunun tətbiqi imkanlarını bilərəkdən süni əngəllərlə məhdudlaşdırıb, gözdən salmaq və vətəndaşı süründürməklə hüquq problemi olan vətəndaşdan müəyyən maddi nemətlər əldə etməyi hədəfləyirdilər.**

**Çünki burada tətikləyici dırnaq arası hüquq xidmətləri göstərən şəxslərin, qüvvələrin tamah məqsədli subyektiv fikirləri də müəyyən təsir edirdi.**

**İndi isə sevindirici hal ondan ibarətdir ki, yaxşı mənada iş yükümüz bir qədər artsa da, mediasiyaya müraciət edən tərəflərin şikayətləri artıq "niyə qarşı tərəf arayış alıb və barışıq sazişi üçün şansım olmayıb?" sualı ətrafında formalaşır.**

**Artıq bir çox tərəflər artıq mediasiyadan yalnız arayış almaq üçün deyil, aralarındakı mübahisəni anlaşma və barışıq sazişi vasitəsilə həll etmək üçün istifadə etməyə başlayıblar.**

**Hüquqi mübarizələr çox vaxt qalibi olmayan müharibələrə bənzəyir, nəticədə tərəflərin gücü tükənir, zaman itirir və münasibətlər tamamilə məhv olur.**

**Azərbaycan Respublikasında "Mediasiya haqqında" Qanunun tam tətbiqi sayəsində, barışıq sazişlərinin uğur səviyyəsi hər il artmaqdadır. Bu prosesdə iştirak edən bütün mediator və vətəndaşlara dərin təşəkkürümü bildirirəm.**

**Mediasiya, mübahisələrin sürətli, səmərəli və tərəfləri razı salaraq həll olunmasına kömək edir. Məsələn, mediasiya təşkilatlarda, birgə nikah dövründə əldə olunmuş bələdiyyə torpaqları, aliment məbləğinin dəqiqləşdirilməsi, müddəti ötürülmüş və müqaviləsiz verilmiş borc vəsaitlərinin leqallaşdırılmasına dair və digər mübahisəli məsələlərin, notarius ofislərində, həmçinin polis orqanlarında və məhkəmələrdə həllini çətin tapa biləcək mübahisələrin, mediasiya xidməti göstərən mediatorların vasitəsi ilə tərəflər ailə, kommersiya, və sair konfedensiallıqlarını qorumaq şərtilə daha rahat, daha surətli və daha ekonomik şəkildə nəticəyə gəlmək mümkündür. Bunun üçün vətəndaşlarımızın mbahisələrin sülh yolu ilə həllini dərk etməsi labüddür. Uzlaşmaq gözəldir. Bunu üçün əməkdaşlıq etməyə can atmaq lazımdır ki, problemlər daha səmərəli həllini tapmış olsun.**

## Məhkəməsiz barışıq: Mediator kimdir və bizə nə qazandırır?

**Günümüzdə mübahisələrin həlli dedikdə ağlımıza gələn ilk ünvan məhkəmələr olur. Lakin illərlə davam edən çəkişmələr, həm maddi, həm də mənəvi yorğunluq çox vaxt tərəfləri çıxılmaz vəziyyətə salır. Məhz bu məqamda müasir hüquq sisteminin ən effektiv alətlərindən biri olan Mediatorluq institutu köməyə çatır.**

**Mediator hakim deyil!**

**Bir çoxları elə bilir ki, mediator tərəfləri dinləyib qərar verən bir şəxsdir. Xeyr, mediator tərəflər arasında körpü quran, emosiyaları idarə edən və hər iki tərəfin maraqlarına uyğun ortaq məxrəc tapılmasına şərait yaradan bitərəf mütəxəssisdir. Mediator qərar vermir, o, tərəflərə öz qərarlarını verməkdə kömək edir.**

**Niyə Mediatoru seçməliyik?**

**Zaman qənaəti: Məhkəmə prosesləri aylarla, bəzən illərlə çəkdiyi halda, mediasiya prosessi cəmi bir neçə sesiyada yekunlaşa bilər.**

**Məxfilik: Məhkəmə iclaslarından fərqli olaraq, mediatorla keçirilən görüşlər tamamilə gizli saxlanılır. Bu da iş adamları və ailə münasibətləri üçün çox önəmlidir.**

**İqtisadi səmərə: Dövlət rüsumları və hüquqi xidmətlərin xərcləri ilə müqayisədə mediasiya xərcləri qat-qat aşağıdır.**

**Dost münasibətlərin qorunması: Məhkəmədə bir tərəf udur, digəri uduzur. Mediasiyada isə hər iki tərəf qalib gəlir ("Win-Win"), bu da gələcək münasibətlərin qorunmasına xidmət edir.**

**Nəticə olaraq, mediatora müraciət etmək mədəni və sivil bir həll yoludur. Unutmayın, ən pis barışıq, ən yaxşı məhkəmə qərarından daha üstündür.**

# UNUDULMAYAN "UNUDULMAQ QORXUSU"

## (Yazıçı Fazil Sənanın “Unudulmaq qorxusu” romanı haqqında düşüncələr)

**İnsan zamanın və yaşadığı cəmiyyətin şah əsəridir. O, zamana bənzəyir, yaşadığı cəmiyyətə oxşayır. Allah ən mükəmməl əsəri olan insanı, insan isə özünə bənzəyən əsərini və əsərlərini yaradır. Hər bir bədii əsər öz müəllifinə bənzəyir. Onun dünyagörüşünü və həyat yolunu əks etdirir.**

... Bu günlərdə qələm dostum İmam Cəmillinin kitabxanasında müasir Azərbaycan yazıçısı Fazil Sənanın ”Unudulmaq qorxusu” romanını gördüm. Kitabın adı diqqətimi çəkdi. Şakərimə uyğun olaraq əsərin sonuncu abzasına baxdım.

Əsər bu abzasla bitirdi: ...”Asim Şəhlaya tərəf əyildi. Şəhla solğun və gücsüz əlləri ilə Asimi özünə tərəf sıxaraq, dodaqlarından öpdü və: - Bu, mənim səninlə əlvidam olsun. Elə bilirəm ki, bu öpüşüm həmişəlik sənin yaddaşında qalmaqla bərabər, məni unudulmağa qoymayacaq. - dedi və gözünün yaşını sildi.

Gecəyarı Yağmur zəng etdi ki, anam dünyasını dəyişdi.

Kitabın annotasiyasında yazılmışdı: ”Yazıçı Fazil Sənanın ”Unudulmaq qorxusu romanı böyük bir zaman kəsiyində (1970-2020-ci illər) Azərbaycanda baş verən hadisələr fonunda bir ziyalının - Asim Kərimovun taleyindən bəhs edir...”

”Yaxşı yazıçının yaxşı da oxucusu olmalıdır” devizimə adiq qalaraq əsəri oxumağa başladım. Əsər bu cümlələrlə başlayır: ”Sağa dönən yola buruldu. Dəhlizdən keçib, açıq qoyulmuş qapını tıqqıldatdı:

-Olar?

Şəhla səsə başını qaldırıb qapıya baxdı...

Deməli, ilk adı çəkilən də, son sözü deyən Şəhladır.

Əsər iyirminci əsrin son qərinəsində və əsrimizin ilk iyirmi ilində, daha doğrusu yarım əsrlik zaman müstəvisində cərəyan edən hadisələrdən bəhs edir. Ədəbiyyatda xalqın həyatında böyük tarixi və ictimai əhəmiyyət kəsb edən hadisələri əks etdirən genişmiqyaslı, monumental belə epik əsərlər epopeya adlanır. Adətən bu janrda bütöv bir dövrün mənzərəsi, çoxsaylı personajlar və mürəkkəb süjet xətləri geniş təsvir olunur. Bu baxımdan Fazil Sənanın ”Unudulmaq qorxusu” romanı da epopeya həcminə, tutumuna və süjet xəttinin zənginliyinə malikdir.

Romanın dili sadə, axıcıdır. Qəliz bədii təsvir vasitələrindən, əndrabədi cümlə və söz birləşmələrindən istifadə olunmamışdır. Əsərdəki personajlar, sanki hamımızın tanıdığı şəxslərdir və bizimlə bir qarabağlı kimi danışırlar.

Ötən əsrin yetmişinci illərində ali məktəblərə qəbul mexanizmi Fazil Sənan qələmi ilə ən xırda incəliklərinə qədər təsvir olunur. Elə hadisələrin dramaturgiyası kitabın ilk abzaslarından bir gəncin ali məktəbin ilk pilləsi olan abituriyent kimi yaşayış yerindən alacağı arayışla başlayır. Müəllif oxucunu ötən əsrin yetmişinci illərinin qəbul imtahanları dövrünə səyahətə aparır. Orta və yaşlı nəslin nümayəndələrinin gözləri önünə özlərinin keçdiyi şərəfli yollar gəlir. Onların çoxları təqaüddə olsalar da dörd fəndən verdikləri qəbul imtahanlarında verdikləri cavabları və professorlarla aralarında olan dialoqları bu gün də fərəhlə danışmaqdan doymurlar.

Müəllif əsər boyu o dövrün yollarını, küçələrini, yeməkxanalarını, bulaq başının xudmanı aşıq məclislərini, hətta nəqliyyat vasitələrini nostalji hisslərlə təsvir edir. ”RAF”, ”Jiquli”, ”Volqa” avtomobilləri, ”EM” motosikleti kimi dövrünün ən nüfuzlu nəqliyyat texnikalarının adlarının xatırlanması oxucunu həmin dövrə aparır. Ümumiyyətlə, Fazil Sənan əsər boyu bədii təsvir vasitələrindən çox ustalıqla və məhdud dərəcədə istifadə etsə də dövr haqqında zəngin təsəvvür yaratmağa nail olub.

Romanda o dövrün idarəetmə, hakimiyyət və inzibati orqanları, onların fəaliyyət mexanizmi pasport və hərbi komissarlıq qeydiyyatları timsalında göz önünə gətirilir. Həssas oxucu həmin orqanların iş prinsipini bu günlə müqayisə etməklə yanaşı Sovet rejimin xarakterik xüsusiyyətlərini təsəvvüründə canlandırır. Kənd soveti, kolxoz idarə heyəti, rayon icraiyyə komitəsi, rayon partiya komitəsi, respublika və ali mərkəzi komitələri haqqında, onların iş prinsipi barədə təsəvvür verilir. El adət və ənənələrinə güzgü tutulur. Oxucuya elə gəlir ki, hadisələr onun kəndində baş verir.

Müəllif insan psixologiyasının mahir bilicisi kimi psixoloji məqamlarda sevən gənclərin keçirdiyi hissləri özünəməxsus şəkildə təsvir edir.

”...- Başınız nəyə qarışmışdı? Xeyir idimi? - deyən Şəhla əlində saxladığı oğlanın əlindən içinə yayılan anlaşılmaz duyğuların təsiri ilə hisslərini bir təhər cilovlayaraq cavab intizarında üzüldü...”

Fazil Sənan romanda epizodlarını qəhrəmanlarının dili ilə el deyimləri, atalar sözləri, zərbi məsəllərlə bəzəməklə axıcı və oxunaqlı libasda təqdim edir: ”Qaynanan səni çox istəyir”; ”Qız evində toydur, oğlan evinin xəbəri yoxdur”; ”Qız ağacı, qoz ağacı. Hər gələn bir daş atar”; ”Küçə iti həmişə qəssabdan pay umar”; ”Ölərəm, Mixaylo adı ilə ölərəm...”; ”Bəy namusuma and içirəm ki, uduzduğum pulları indi gətirərəm”; ”İt özünü mundar bilməz. Bilsə qaba dəyməz”; ”Yol-yolağa”; ”Pambıqla baş kəsmək”; ”Səndən oğul dağı getməz, məndən quyruq yarası”; ”Ağnağız eləmək”; ”Bax burada Kərəmi ağlamaq tutur”; ”İndi gəl burda koru körpüdən keçir...”;”Körpüdə qoyunumu böləcək?..” və s.

Böyük rus yazıçısı Lev Tolstoy bunu obrazlı şəkildə belə ifadə edir: ”Yazıçı həyatda yaxşı nə varsa götürür və öz əsərinə daxil edir.”

Əsərdə digər tanınmış əsərlərdən iqtibaslar verilməklə epizodlar daha dolğun və inandırıcı çalarlarla təqdim edilir. Məsələn, müəllif rus yazıçısı Maksim Qorkinin ”Şahin nəğməsi” əsərindən Qartalla koramalın dialoqunu daxil etməklə ötən əsr gənclərinin xəyallarını şagirdlik illərinə daşımaqla, eyni zamanda sürünmək üçün yarananların uça bilmək bacarığının olmadığını xatırlatmaqla fikirlərini daha da dolğunlaşdırır.

Əsərdə sovet milisi, kommunist partiyası, raykom, büro, partkom, partbilet, komsomol, üzvlük haqqı, ”antipod”, ”pripiska”, ”anonim məktub”, poçtalyon... o dövrün idarəetmə mexanizmi, həmçinin aşağıdan yuxarıya demokratik mərkəziyyət mexanizmi ən xırda çalarlarına qədər təsvir edilərək ciddi qüsurlarının göstərilməsi məqsədi güdülür. Məktəb həyatının müqəddəs bir sentyabr və tədris ilinin birinci rübünün pambıq yığımında keçirilməsi isə insan istismarı və uşaq əməyindən istifadə kimi təsvir olunur. Həmin dövrdə, hətta ali məktəb tələbələrinin də pambıq yığımına cəlb olunması o zamanın təhsili haqqında təsəvvür yaranması məqsədini ifadə edir. Pambıq yığımı dövründə müəllim -şagird - kolxoz rəhbərliyi münasibətləri bədii boyalarla qələmə alınmışdır.

O dövrün - ”yoldaş briqadir”, ”yoldaş sədr”, ”yoldaş katib”, ”yoldaş Kərimova”, yoldaş Səfərli” və başqa bu kimi müraciət forması tabeçilik əlaməti kimi təqdim olunur.

Müəllif məcazi mənada ”Ağ qızıl” adlandırılan pambığı, hətta dövlət adamları tərəfindən ”Ölüm mələyi” adlandırmaqlarını sətialtı şəkildə qeyd etməklə o dövrüm müstəmləkə sisteminin əlamətləri haqqında təsəvvür yaratmağa nail olmuşdur.

Yazıçı elmi-texniki tərəqqinin bu günkü inkişafı ilə müqayisədə sadə görünən texnika və cihazlar haqqında da danışmağı diqqətdə saxlamışdır. Hətta müəllimin evində telefon yoxdur. Onun evinə telefon xəttinin çəkilməsi üçün rayon rəhbərliyinin razılığı lazım olmuşdur.

- Evdə telefon yoxdur?

- Yox. Telefon çəkdirmək çətin məsələdi...

Rəhbərliyin istifadə etdiyi ən mükəmməl rabitə olan simli telefon, mobil rabitə olan ratsiya, mətbuat orqanı olan qəzet, qəzet müxbiri və məqaləsi o dövrdə istifadə olunan terminlər kimi yada salınır.

Əsərdə diqqət çəkən məqamlardan biri də İkinci Dünya Müharibəsi qəhrəmanları İsrafil Məmmədovun, Qafur Məmmədovun, Gəray Əsədovun, Mehdi Hüseynzadənin adının çəkilməsi ilə Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmiş el igidlərinə diqqət yönəldir. Bu arada müstəqilliyimizin əldə olunmasına və Qarabağ müharibələrinin qəhrəmanlarına aid bədii əsərlərin sayının çox olması arzumu ifadə olunur.

Müəllif əsərin əhatə etdiyi dövrdə ölkədə gedən nəhəng tikinti işlərin də diqqətdən kənarda qoymur. Baykal-Amur Magistralı (BAM) çəkilişində işləmək və ”Qızıl Ordu” sıralarına getmək üçün əsərin qəhrəmanı Asimin Moskva rəhbərliyinə göndərdiyi ərizənin verdiyi rezonans müzakirələrə səbəb olur.

Sovet İttifaqının dağılması səbəbləri Fazil Sənan qələmi ilə məntiqi şəkildə təsvir olunub.

”Asim kinayə ilə Könülü süzdü.

-Asim, bütün SSRİ məkanı bu gündədir. Moskvada əyləşənlər bilmirlər ki, yüz qoyun yüz əlli bala verə bilməz, bir mexanizator bir mövsümdə maşınla min ton pambıq yığa bilməz? Pambıqyığan maşını istehsal edən zavodun mühəndisi deyir ki, bir pambıqyığan maşın bir mövsümdə ən çoxu yüz əlli ton pambıq yığa bilər. Pambıqyığan maşının bir mövsümdə min ton pambıq yığması heç cür ağıla sığan iş deyil...



Bilirsən, Asim, özümüz-özümüzü aldatmaqla uçurumun kənarına yaxınlaşmışıq. Az bir vaxtda görəcəksən ki, SSRİ adlı dövlət çökdü, çünki, İstehsal yoxdur, hər şey kağız üzərindədir.

Sovet məkanında təhsil sistemində baş verən pozğunluqlar da müəllif diqqətindən kənarda qalmır. Uşaq əməyinin istismarından əlavə təhsildən kənarda qalma halları da əsərdə qeyd olunan problemlərdən biri kimi öz əksini tapmışdır.

Erməni-azərbaycanlı dostluğunda erməni məkrinin nişanələri də Fazil Sənan diqqətindən kənarda qalmır. Yazıçı Anuş simasında Fikrətə qarşı saxta məhəbbəti və cazibədarlığı, qohumlarının ”isti münasibətləri” haqqında söz açır.

Müəllifin yolların təsvirində oxucu özünün həmin məkanda hiss edir, gözləri önündə Azərbaycanın o zamankı bütöv xəritəsi canlanır. Əsərdə Şuşa, Ağdam, Bakı və digər şəhərlərimizin və yaşayış məntəqələrimizin adlarının çəkilməsi isə oxucu qəlbini ehtizasa gətirir.

Marşrutların adı çəkiləndə adam özünün yollarda hiss edir. Ağdamdan keçməklə Şuşaya getmək, Bakı -Naxçıvan qatarında yola çıxmaq ”...səhərin ala-toranlığında avtobusa minib rayona, ordan da taksi ilə kəndlərinə yola düşmək...” hadisələrin cərəyan etdiyi məkanın yerini dəqiqliklə nişan verir.

Yazıçı əsərin qəhrəmanı Asimin şagirdlikdən Ali Partiya Məktəbinə, komsomol sıralarından mərkəzi komitəyə qədər keçilmiş yolu incəliklərinə qədər təsvir etməklə o dövrün tədris və hakimiyyət pillələri haqqında dəqiq təsəvvür yaradır.

Fazil Sənan qələmində iki şəxs arasında yaranan və yaşayan məhəbbət vətən məhəbbəti fonunda ustalıqla təsvir, təqdir və təqdim edilir.

Ümumiyyətlə, məhəbbət yazıçıların, şairlərin, musiqiçilərin, rəssamların rejissorların ən çox müraciət etdiyi mövzudur. Ən dramatik romanın, kinofilmin süjet xəttinin bəzəyi məhəbbət epizodlarıdır. Ən faciəvi həyatın, ən kesməkesli ömür yolunun dörd yolunda məhəbbət dayanır. Elə bir nəğmə yoxdur ki, məhəbbət notları üstündə köklənməsin. Məhəbbət canlıların həyat məcunudur. Məhəbbət nəsillərdən nəsillərə ötürü-lür, cilalanır, formalaşır, kamilləşir, təşəkkül tapır.

Əsərdə süjetin inkişafı Könülün və Şəhlanın Asimə qarşı saf məhəbbəti leytmotiv kimi keçsə də bu məhəbbətlər dövrün vəzifə qadağalarının maneə olması səbəbindən baş tutmaması xüsusi olaraq vurğulanmaqla təsvir olunur. Nəticədə bu müqəddəs hisslər ürəklərdə dəfn olunur. Asim isə ailəsinin təkidi ilə, uzaq qohumlarının bələdçiliyi ilə digər bölgədən olan bir simsarlarının qızı ilə evləndirilir. Fazil Sənan bu izdivacı ilk məqamlarından sonadək olduğu kimi təsvir etməklə o dövrün toy adətlərini göz önünə gətirir. Elçilik və nişan mərasimlərinin, toy sövdələşməsinin, qız və oğlan toy mərasimlərinin, hətta ”ciyər axşamı” və digər ənənələrin ön planda təqdim olunması əsərin məziyyətlərini daha da artırır ona millilik çalarları bəxş edir.

Mən janrından asılı olmayaraq elə bir əsər tanımıram ki, onda əxlaqa, əxlaq normalarına önəm veril-məsin. Ümumiyyətlə, hər bir bədii əsər müəllifinin dünyagörüşündən, intellektual səviyyəsindən, yaradıcı-lıq üslubundan asılı olmayaraq ilk növbədə onun əxlaqını büruzə verir. Bəzən yaradıcı adamlar əxlaq qay-dalarını pərdə arxasında saxlasalar da əxlaq əsərin əsas mayasını təşkil edir.

Fazil Sənan yaradıcılığının mayasını da milli mentalitet, adət və ənənələrimizə hörmət və sayğı ilə yanaşmaq təşkil edir. Müəllif ailə daxilində etik qaydaları ”Haşiyə” şəklində belə təqdim edir: ”... Təxminən XX yüz illiyin sonuna kimi Azərbaycanın bir çox bölgələrində oğul ata-ananın yanında uşağını qucağına alıb, əzizləməzdi. Yoldaşıyla danışmazdı. Lazım olanda bacı-qardaşı və anası ilə ünsiyyətdə olaraq, istəyini söyləyərdi. Bunu eşidən gəlin ərinin istəyini dinməz-söyləməz yerinə yetirərdi...”

Əsərdə dövrün əsas bəlalarından biri kimi imzasız məktublar haqqında bir neçə dəfə bəhs edən yazıçı onun törətdiyi fəsadları dilə gətirir. Moskvada təhsil alarkən Ali Partiya Məktəbinə Asim Kərimov haqqında böhtan xarakterli bir imzasız məktub daxil olur. Asim bu məktubu səhvini bir dəfə bağışladığı müəllim yoldaşı tərəfindən yazıldığını dərhal hiss edir. Bu, Asimin keçmiş sevgilisi Şəhlanın həyat yoldaşı Mərdan müəllimdir. Ədalət mühakiməsi böhtançını cəzalandırır. Və bu cəza günahkarın məhvi ilə nəticələnir.

Əsərin ən təsirli və ağrılı bölməsi ötən əsrin səksəninci illərində başlamış Ermənistan - Azərbaycan - Dağlıq Qarabağ münaqişəsinin gedişi fonunda baş verən tale yüklü hadisələrin yer aldığı bölmədir. Müəllif mitinqlər və 20 yanvar hadisələrini ürək ağrısı ilə təsvir edir və baş verən dəhşətləri Asimin ailəsindən yan keçmədiyini özünə məxsus ustalıqla təqdim edir.

Asimin Könüldən və Zərifədən olan oğlanlarının hadisələrin gedişi dövründə tanış olmaları, yaralı qardaşa yardım, Şəhlanın qızının qayğıkeşliyi, Zərifəyə öz evində işğalçı gülləsinin dəyməsi oxucu hisslərinin tarıma çəkilməsinə səbəb olur. İki ailənin bir araya gəlməsi isə əsərin kuliminasiya nöqtəsini təşkil edir. Asim məsələnin gizlədilməsinin əsas səbəbinin o dövr hakimiyyətinin maneə olduğunu qeyd etməklə, sanki ağır yükdən azad olur.

Müstəqillik dövrü də Fazil Sənan qələminin qüdrəti ilə tam aydınlığı ilə oxucu qəlbinə yol açır. Lakin mübarizə bununla bitmir. Müəllifin təbirincə desək ”Erməni vəhşiliyi getdikcə baş alıb gedirdi. İnsanlığa sığmayan vəhşiliyin son həddi olan Xocalı faciəsinin baş verməsi əli silah tutan azərbaycanlıları silaha sarılmağa məcbur etdi...”

Asimin oğlanları Zaurla Vasif də cəbhəyə yollanır. Nəhayət, günlərin birində hərbi komissarlıqdan zəng gəlir: ”Xahiş olunur, hərbi komissarlığa gələsiniz”.

-Yaxşı, deyən Asimin dizləri büküldü. ...Könül, hər şey mənə məlumdur və Asimə ”Dur gedək oğlumuzu qarşılayaq”, dedi.

Mən burada dəfn mərasimində Asimin ürək dağlayan çıxışı haqqında danışmağa çətinlik çəkdiyimə görə həmin epizodu əsərin özündən oxumağı tövsiyə edərdim.

...Ölümündən sonra Kərimov Vasif Asim oğluna Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi ilə bağlı keçirilən böyük tədbirə Asimi, Könülü, bacı-qardaşlarını da dəvət etmişdilər...”

Lakin taleyin qəddarlığı bununla bitmir. Bəla, bəla üstündən gəlir. Hadisələrə dramatik çalar vermək Fazil Sənan yaradıcılığının əsas əlamətlərindəndir. Yazıçı bu romanında da bu yaradıcılıq ənənəsinə sadiq qalır.

”...telefon zəng çaldı. Asim dəstəyi götürüb, ”Alo” eşidirəm söylədi.

- Asim müəllimdir?

- Bəli.

- Rayon Hərbi Komissarlığındandır? Xahiş edirik ki, hərbi komissarlığa gələsiniz.

- Gələrəm, - deyən Asim dəstəyi yerinə qoyub, güclə özünü çarpayıya çatdıraraq uzandı...”

Bu, Asim və Könülün ikinci şəhid olan oğlu Zaurdur.

Burada tatar ədəbiyyatının görkəmli nümayəndəsi, Sovet İttifaqı Qəhrəmanı Musa Cəlilin bir kəlamı yada düşür: ”Ölümün qolları güclü olsa da, Vətən məhəbbəti güclüdür ondan...”

Vətən səmasını qara buludlar alanda əsərin qəhrəmanı Asimin iki oğlu cəbhəyə yollandı və şəhid oldu.

Bu məqamda isə məşhur fransız yazıçısı Viktor Hüqonun bir kəlamı yadıma düşür: ”Eşq uğrunda hə-yatımı verərəm, azadlıq uğrunda isə esqimi də fəda edərəm”.

Lakin həyat davam edir. Asim evə gələndə Könül yaxınlaşaraq, ”Muştuluğumu ver. Ayşadın oğlu olub”, - dedi.

... Zaurun ölümündən sonra on iki gün sonra, 1994-cü il mayın 12-də atəşkəs elan oldundu. Bax, taleyin yazısından qaçmaq mümkün deyil, buna deyərlər...”

Əsərin ən təsirli epizodlarından biri də işğal altında olan regionlarımızın xatırlanmasıdır. Bu mənzərə Fazil Sənan qələmi ilə özünün bədii həllini incə şəkildə tapır: ”...Bəzi vaxtlar yolları rayona düşən Asimlə Könül yol kənarında yol nişanlarında Kəlbəcər, Şuşa, Laçın, Xankəndi, Ağdam və s. işğal olunmuş şəhər və rayonların adlarını, hətta həmin adları çəkilən yaşayış məntəqələrinə nə qədər məsafə qalmasını oxuyanda içlərindən bir ağrı keçirdi.

”Axı bu yol nişanlarını saxlamaq nəyə lazımdır? Adamda əsəb yaratmaqdan başqa heç nəyə lazım deyil. Otuz ilə yaxındır hər dəfə yol nişanlarında işğal olunmuş şəhər və rayonların adlarını oxuyanda istər-istəməz köhnəlmiş yaraların qaysağı yenidən qopur”, düşünən Asimlə Könül, bir gün payızın ilk günlərində eşitdilər ki, İkinci Qarabağ - Vətən müharibəsi başlayıb və Azərbaycan ordusu işğal olunmuş şəhər və kəndləri bir-bir azad edərək irəliləyir. Xalq ordunun və dövlətin yanında olmağı ilə, mənəvi dəstəyini göstərdi.

Şuşanın fəth olunması Azərbaycan ordusunun qələbəsi idi...”

Əsərdə üçüncü nəsil hesab olunan nəvələr Zaurla Vasifin döşlərində orden və medallarla nənə-babalarının görüşünə gəlməsi epizodu isə yarım əsrlik zaman zəncirini tamamlayır və romana epopeya həcmi və tutumu verir.

Azadlıq uğrunda ölüm şərəfli və gözəldir. Şəhidlər öz ölümsüzlükləri ilə ölümə qalib gəlir, ölümü də gözəlləsdirir və mənalı edir. Əsərlərin ən gözəli vətən, xalq və azadlıq uğrunda vuruşanlara, mücadilə apa-ranlara və bu yolda şəhidlik zirvəsi fəth edənlərə həsr olunmuş əsərlərdir. Təbii ki, belə əsərlərin müəllif-ləri təqdirə, yüksək hörmətə və ehtirama layiqdirlər.

Yazıçı Şəhlanın sağalmaz xəstəliyə düçar olması və vəfatı səhnəsini də öz yaradıcılıq üslubu ilə şərh edir.

Əziz oxucu, bu səhnəni məqələmin əvvlərində təsvir etdiyim üçün burada bir daha təkrarlamağı lazım bilmirəm.

Ürəklərə yol tapa bilən ədəbiyyat nümunələri sənətkarlıq əsərləridir. Həmin əsərlər sənətkarlarını inamla yaşatmaqdadır. Belə əsərlərin müəllifləri tarixin yaddaşlarında uzun müddət yaşayır.

Kitab gözəl tərtibatla mükəmməl korrektura (Anar Fazilzadə) və redaktə (Səlbi Baxış) ilə nəşr olunmuşdur. Roman sadə xalq dilində, Qarabağ diksiyasında qələmə alınmışdır.

Sonda gənclərimizə tanınmış yazıçı Fazil Sənanın ”Unudulmaq qorxusu” əsərini oxumağı tövsiyə edərdim. Bu əsər Azərbaycan tarixinin təxminən yarım əsrdən artıq bir dövrünü əhatə etməklə tariximizin küşməkeşli bir dövrünün öyrənilməsi baxımından zəngin bir mənbə kimi dəyərləndirilə bilər. Zənnimcə orta ümumtəhsil məktəblərinin ədəbiyyat dərslərində əlavə oxu materialı kimi belə əsərlər tədris proqramlarına salınmalıdır.

**Daha sonda Azərbaycan yazıçısı Fazil Sənana yeni- yaradıcılıq uğurları arzulayıram.**

**İsgəndər Səklikov**
**Əməkdar müəllim,**
**AYB və AJB üzvü**

# MƏSULİYYƏTDƏN DOĞAN YAZIÇI NARAHATLIĞI

## (Qafar Cəfərlinin "Bərzəx sakininin etirafları" kitabı haqqında bəzi qeydlər)




XUDAVERDİ CAVAD
"Respublika həyatı" qəzetinin
baş redaktoru, şair publisist,
AJB və AYB üzvü


**Azərbaycan bədii nəsrində öz fərdi yaradıcılıq üslubu ilə seçilən Qafar Cəfərlini ciddi münasibət bəslədiyi sənətdə olduğu kimi həyatda da həmişə narahat görürəm. Bu narahatlıq yazıçı üçün təbiidir. Hiss edirsən ki, harada olmasından asılı olmayaraq yaradıcılıq aləmindədir, axtarışlarını davam etdirir, necə deyərlər, əsərlərinin, obrazlarının, ədəbi qəhrəmanlarının taleyi barədə düşünür. Düşünür ki, yazmağa başladığı yeni əsərlərlə, silsilə obrazları ilə oxucusuna, üzvü olduğu cəmiyyətə, ən nəhayət beşiyi başında Mirzə Cəlilin, Əbdülrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Nəriman Nərimanovun, Məmməd Səid Ordubadinin... durduğu nəsrimizə təzə nə verəcək? Düşünür ki, yaratdığı əsərlərə bir müəllif kimi əbədi yaşamaq haqqı verə bilibmi? Təbii ki, bu tanınmış yazıçı-dramaturqun yaradıcılıq məsuliyyətindən, peşəkarlığından irəli gəlir. Yalnız həqiqi istedad sahibləri məhz bu cür düşünür, əsərləri ilə yaşayır və nəticə etibarı ilə geniş oxucu auditoriyası qazanırlar.**

Qafar Cəfərliyə gəldikdə isə bir qələm dostu, yaradıcılığını maraqla izləyən bir oxucu kimi belə qənaətə gəlirəm ki,onun ürəyində odu heç zaman sönməyən sənət yanğısı var, yazdığı və yazacağı hər bir əsəri də məhz bu yanğıdan qaynaqlanır. Başqa sözlə desək, bütün varlığına hakim kəsilən sənət onunçün həyat, həyat isə sənətdir. Axı, məhz yaratdığı nəsr əsərləriylə sevgi dolu ürəyini boşaldır, həyata, zamana sığmayan qlobal fikirlərini, duyğu və düşüncələrini oxucuları ilə bölüşür. Bu baxımdan artıq oxucuların mühakiməsinə verilən 13 kitabını oxumaq və deyilənlərin təsdiqi kimi yaradıcılıq məziyyətləri ilə tanış olmaq kifayətdir.

Bu günlərdə Qafar Cəfərlinin "Apostof-A" nəşriyyatında nəfis tərtibatla buraxılmış "Bərzəx sakininin etirafları" adlı yeni kitabı ilə tanış oldum. Açığını deyim ki, öncə kitabın adı diqqətimi çəkdi, amma təəccüblənmədim. Bilirdim ki, müəllifin öz yaradıcılığı kimi kitablarına, ayrı-ayrı əsərlərinə seçdiyi adlar da oxucunu düşündürür. "Saatın 61-ci dəqiqəsi", "Bir gecənin vahiməsi", "İntihar", "Altıncı barmaq", "Bir udumluq hava", "Qarğışlı dua", "Qəribliyin dadı", "Tanrının göz yaşları" və sair əsərləri buna misal göstərmək olar. Elə götürək "Tanrının göz yaşları" romanını. İstər-istəməz düşünürsən: "Bir ol" sözüylə dünyanı yaradan, bəşəriyyəti xəlq edən, bir sözlə, hər şeyə qadir olan Ulu Tanrı da göz yaşlarını axıdarmı?". Amma mövzusu II Qarabağ müharibəsindən götürülən romanı oxuyandan sonra nəinki bu suala cavab tapırsan, hətta müəllifin bədii məntiqinə inanmaqdan başqa çarən qalmır. Çünki yazıçı, bəzən şeytanın belə həsəd apardığı insanın elə ağlasığmaz hərəkətlərini təqdim edir ki, mərhəmətli və mehriban Allahın ürəyi də kövrəlir, gözlərindən yaş axır...

Bərzəx sakininin etirafları" kitabında əsasən yazıçının hekayələri və novellaları yer alıb. Kitabı oxuyub başa çatandan sonra belə qənaətə gəldim ki, Qafar Cəfərlinin əvvəlki əsərlərindən fərqli olaraq bu hekayələrdə hadisələri saf-çürük etmək, tipikləşdirmək, bəlkə də başqalarına adi görünən bir hadisəni bədii materiala çevirmək bacarığı daha qabarıq görünür, başqa sözlə desək, oxucuya təqdim edilən kiçik hekayələrdə belə böyük mətləblər, qlobal fikirlər təbliğ olunur. Təsadüfi deyil ki, Qafar Cəfərlinin yaradıcılığına tez-tez müraciət edən ədəbi tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusifli haqlı olaraq yazır: "- Qafar Cəfərlinin hekayə və novellalarında çağdaş həyatımızın müxtəlif hadisə və olaylarından söz açılır. Cəmiyyətdə baş verən hadisələrin əks-sədası, həm müəyyən bir kollektivdə, həm ailədə, həm də insanların qarşılıqlı münasibətlərində nəzərə çarpan ayrı-ayrı neqativ hallar bu yazıların əsas məzmununu təşkil edir. Niyə məhz neqativ hallar? O səbəbdən ki, mənfiliyin ifşası müsbətin, işığın, xeyirxahlığın təsdiqi kimi səslənir. Yəni, müəllif demək istəyir ki, bizim həyatımız, yaşadığımız bu gerçəklik hələ ideal səviyyədə deyil..."

Hekayədə çağdaş həyatımızın acı həqiqətləri real hadisələr fonunda əks etdirilsə də, oxucuya daha çox həyat sevgisi, həyat eşqi aşılanır. Göstərilir ki, bütün əzablarına baxmayaraq həyat şirindir, insan işıqlı dünyadan ayrılmaq istəmir.

"Saatın 61-ci dəqiqəsi" hekayəsinin mövzusu isə 1-ci Qarabağ savaşından götürülüb.

Əsərdə təqdim olunan hadisə bəlkə də Qafar Cəfərlinin bədii təxəyyülünün məhsulu deyil, şahidi olduğu gerçək hadisədir. Axı uzun illər hüquq-mühafizə orqanlarında məsul vəzifələrdə çalışmasına baxmayaraq onun həyat yolu həm də Qarabağın döyüş səngərlərindən keçib. Təbii ki, şəxsən gördüyü, şahidi olduğu hadisələr qələmə aldığı əsərlərdə nəinki yer alıb, həmçinin bu əsərlərin əsas süjet, ana xəttini təşkil edib. Təsadüfi deyil ki, bu mövzuda yazılan hekayə və povestlərdə təsvir olunan döyüş səhnələrini həyəcansız oxumaq mümkün deyil. "Saatın 61-ci dəqiqəsi" hekayəsinə gəldikdə isə əvvəlki yazılardan fərqli olaraq burda döyüş zamanı düşmənçiliyin yox, insanlığın, xeyirxahlığın möhtəşəm abidəsi yaradılıb. Belə ki, Rusiyada yaşasa da Qarabağdakı işğala dözməyən Hünər dostu, peşəkar hərbçi Teymurla Vətənə qayıdaraq müdafiə batalyonuna yazılırlar. Düşmənlə üz-üzə olan döyüş mövqeyində durarkən gözlənilməz hadisə baş verir. Həkəri çayının üzərindəki körpüdən keçən erməni qadını qarın üsrtündən sürüşərək azyaşlı uşağı əlindən buraxır. Uşaq birbaşa çaya düşür. Təbii ki, ermənilər bu hadisənin şahidi olsalar da, öz millətindən olan uşağın həyatını xilas etmək üçün heç kəs yaxına gəlmir. Hətta ananın fəryadı da onlara təsir etmir. Hünər düşmənə nifrət etsə də uşağın boğulmasını heç cür vicdanına sığışdıra bilmir. Cəld hərəkətlə yoldaşlarından ayrılaraq qaçaraq özünü çaya atır və buz kimi soyuq sudan uşağı sahilə çıxardır. Gözləmək olardı ki, uşaq xilaskarına düşmən gülləsi açılmasın, lakin Hünər snayperlə vurulur. Yoldaşları Hünəri öz mövqelərinə gətirmək üçün həmin istiqamətə aramsız atəş açırlar. Xəstəxanada onun güllə yarası alan ayağı kəsilir. Hətta yoldaşları bu hərəkətinə görə Hünəri qınasalar da o, qətiyyən peşimançılıq hissi keçirmir. Halbuki ilanın balası da ilan olur, böyüyəndən sonra sancmağından qalmır. Kim inana bilərdi ki, Hünərin xilas etdiyi həmin erməni uşağı II Qarabağ savaşında ordumuza güllə atmayıb... Bir sözlə, biz bu hekayədə xeyirxahlıqla bədxahlığın, mərhəmətlə qəddarlığın, insanlıqla vəhşiliyin...qarşı qarşıya gəldiyini görürük. Görürük ki, milli damarımızda təmiz qan axır, erməninin qanı isə şovinist hisslərlə çoxdan zəhərlənib.

Bütün çətinliklərinə baxmayaraq haqqın, ədalətin qələbəsi Qafar Cəfərli yaradıcılığının əsas leytmotividir. Başqa detektiv əsərlərində olduğu kimi "Qisas gecəsi"ndə də Əli Zaminli obrazı haqq-ədalət uğrunda yorulmaz mübarizin, mənəvi saflığın, təmizliyin simvolu kimi təqdim olunur və yaddaşlarda dərin iz buraxır...

Detektiv əsərlər müəllifi kimi tanınan Qafar Cəfərli son illərdə öz mövzu dairəsini daha da genişləndirib. Bu, "Bərzəx sakininin etirafları"nda daha qabarıq nəzərə çarpır. Kitabda toplanmış hekayə və novellaların hər birində çağdaş həyatımızın bir parçası məhz fərqli düşüncəyə, əqidə və məsləkə malik obrazlarla öz yüksək bədii ifadəsini tapır. Əgər müəllif "Bir ömür sevgi"də bizi atalı-analı illərə qaytarırsa və bu həsrəti yenidən yaşadırsa, "Övlad borcu"nda ömrü boyu balalarının üstündə yarpaq kimi əsən və hər cür əzab-əziyyti özlərinə rəva bilən valideynlərin qarşısında övlad borcunun nədən ibarət olduğunu diqqətimizə çatdırır. Və yaxud "Sehirli gecə"də yetim bir kişinin əvvəl yüngül həyat tərzi keçirib sonralar peşimançılığı və çəkdiyi vicdan əzabı qabardılırsa, "İbrət dərsi"ndə yol verilən nöqsanlara, ehtiyatsızlıq üzündən buraxılan səhvlərə görə ibrət dərsi almağın vacibliyi örnək kimi qarşımıza qoyulur. "Qumru", "Qısqanclığın yaşı olmaz" hekayələrində məhəbbətin böyük qüdrəti, başqa sözlə desək "həyat məhəbbətdir, məhəbbət həyatdır" fəlsəfəsi önə çəkilir.

Ümumiyyətlə, kitabdakı hekayələri oxuyanda istər-istəməz maraqla izlənən hadisələrin axarına düşür, intizarla sonluğu gözləyirik. Hadisələrin təmsilçiləri olan obrazlar da adama yaxın və doğma görünür. Elə bil ki, ailədə, kollektivdə,




ictimai yerlərdə hər gün onlarla görüşür, hal-əhval tutur, fikirlərimizi bölüşürük. Bu onu göstərir ki, yazıçının qəhrəmanlarının əksəriyyəti müasirimizdir, real həyatdan götürülüb. "Divar saatı", "Fateh", "Gülgəzi", "Tost", "Pənco-pənco", "Bumeranq", "Çayxanada", "Nemesskiy şot" və s hekayələr məhz gündəlik həyat müşahidələri əsasında yazılıb. Müəllif öz müşahidələrinin təkcə foto şəklini deyil, onları bədii təfəkkür süzgəcindən keçirərək təqdim edir.

"Bərzəx sakininin etirafları" kitabının bir bölməsində müəllifin son illərdə yazdığı novellalar yer alır.

Əslində novella da hekayədir, lakin hekayədən fərqli olaraq gözlənilməz sonluqla bitir.Bu baxımdan kitabda yer alan "Alıcı", Hədiyyə", "İtin dəftəri", "Möcüzə", "Ziyarət" və s. novellalarda yüksək bədii ümumiləşdirmə, yaddaşda dərin iz buraxan düşündürücü nəticə ilə vəhdət təşkil edərək bir-birini tamamlayır.

"Alıcı" novellasındakı mövzu çağdaş həyatdan alınsa da təqdim olunan hadisəyə müəllif elə gözəl, məntiqi sonluq əlavə edir ki, hamının ürəyindən xəbər verir. Novellanın sərlövhəsi ilk baxışdan bazarlıq edən alıcı kimi təsəvvür yaradır. Amma əslində bu, əsərdəki obrazın adıdır. Reyestr idarəsinin rəisi işləyən Alıcı dövlət müəssisəsini şəxsi gəlir mənbəyinə çevirib. Nişanlı qızına cehiz almaq üçün torpağını satmağa məcbur olan Elqəm müəllim də burada şıdırğı alverin şahidi olur. Alıcı əməkdaşı tərəfindən qəbuluna gətirilən müəllimi ehtiramla qarşılasa da, bu ehtiramın arxasında öz şəxsi marağı gizlənir.Elə buna görə də müəllimdən pul qoparmaq üçün deyir:- "Ay ağsaqqal işləri korlamısan ki ? Ölçü zamanı satacağın həyətdə iki sot artıq torpaq çıxıb və həmin torpaq da çəpərə alınıb. Bu da ki, qanunsuz torpaq zəbti kimi cinayət məsuliyyəti yaradır. Ən azından min manat cərimə səni gözləyir..." Naəlac qalan Elqəm müəllim 400 manat tərləmək lazımi sənədini alıb idarəni tərk edir. Azca idarədən aralanan kimi yenidən dönüb binaya baxanda düşüncələrini dilə gətirib öz-özünə deyir ki, "Ad qoyanda da gərək elə ad qoyasan- Alıcı, yoxsa mənə də ad qoyublar,Elqəm. Alıcı daşdan pul çıxardır, mənə isə elin dərd-qəmini çəkmək qalıb..." Cehiz probleminin həlli müəllimin ürəyinə bir az toxtaqlıq verir...

Sənədli novella kimi təqdim edilən "Ziyarət"in qəhrəmanı müəllifin özüdür. Təsadüfi, amma oxşar səbəblər üzündən hüzr yerini səhf salaraq tanımadığı başqa birisinin məclisinə düşür, hətta burada yas payı kimi pul da yazdırır. Həqiqi ziyarət yerini tapanda isə artıq gec olur...

Göründüyü kimi, bu və ya digər novellalarda da müəllifin mövzu dairəsinin genişliyi, özünəməxsus dəsti-xətti diqqət çəkir, təbliğ edəcəyi məqsəd, ideya isə sonda ustalıqla açılır...

"Bərzəx sakinin etirafları" kitabını maraqlı, oxunaqlı edən bir xarakterik cəhəti də qeyd etməmək mümkün deyil. Məlumdur ki, yazıçıların, şairlərin qələmə aldığı bütün əsərlər oxuculara yönəlməklə onların dünyagörüşünün formalaşmasına, mənəvi dünyalarının zənginləşməsinə xidmət edir. Yəni, əsərlər oxucular üçün yazılır və əlbəttə ki, oxucular da yalnız bəyənib sevdikləri əsərləri həvəslə oxuyur və təbliğ edirlər. Sovet dönəmindən fərqli olaraq son illərdə sosial şəbəkələrin həyatımıza sürətlə daxil olması söz adamlarının da əsərlərini bu şəbəkələrdə yaymalarına və bilavasitə oxucu rəyləri ilə yerində və vaxtında tanış olmaqlarına şərait yaradır. Qafar Cəfərli də kitabda yer alan əksər əsərlərini məhz sosial şəbəkənin facebook seqmentində yayımlamaqla bu imkanlardan istifadə etməyə çalışıb və çalışır. Kitabın son bölməsi "Facebookdakı paylaşımlara olan oxucu rəylərindən seçmələr" adlanır. Bu bölmədə kitabda yer alan bir çox əsərlərin facebookda paylaşılarkən yazılan oxucu rəylərindən çoxsaylı nümunələr verilib ki, fikrimcə, kitab nəşrində bu bir ilk olaraq əhəmiyyətli faktdır.

Kitabda Qafar Cəfərli yaradıcılığının bədii məziyyətləri, sənətkarlıq xüsusiyyətləri barədə ədəbi ictimaiyyətin tanınmış nümayəndələrinin, ədəbiyyatşünas alimlərin elmi rəyləri, düşüncələri maraq doğurur. Xüsusilə AMEA-nın Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri Vaqif Yusiflinin, ədəbiyyatşünas-tənqidçi, yazıçı-publisist Allahverdi Eminovun, filologiya elmləri doktoru, professor Mahmud Allahmanlının, "Vektor" Beynəlxalq Elmlər Akademiyasının prezidenti, professor Elçin İsgəndərzadənin, filologiya elmləri doktoru, əməkdar müəllim Yədulla Ağazadənin, tanınmış şair-publisist Ağacəfər Həsənlinin və başqalarının rəyləri istedadlı yazıçı-dramaturqun Azərbaycan bədii nəsrində mövqeyini, özünəməxsus yaradıcılıq üslubunu müəyyənləşdirməkdə, ədəbiyyata gətirdiyi yeni dəsti-xətti dərk edib dəyərləndirməkdə, bir sözlə, oxucuları düzgün istiqamətləndirməkdə mühüm əhəmiyyət kəsb edir.

Qafar Cəfərli "Bərzəx sakininin etirafları" kitabı ilə ürəklərə nüfuz etməklə bərabər nəsrimizdə bir yazıçı kimi öz mövqeyini, yerini müəyyənləşdirmək yolunda daha bir uğurlu addım atıb. Şübhəsiz ki, bu uğur təkcə hadisələri saf-çürük etməklə deyil, həm də onun bədii nəsrinin poetikası və şeriyyəti ilə bağlıdır. Təbii ki, nəsrin poetikası da zəngin dil imkanlarından qaynaqlanır. Yazıçı bütün əsərlərində olduğu kimi sözü gedən kitabda toplanan lakonik, yığcam hekayələrində də müdrik xalq deyimlərindən, dahilərin hikmətli sözlərindən məqamında və bacarıqla istifadə edir. Elə buna görə də onun nəsr dili səlist, ifadəli və emosionaldır.

**Bütün qeyd etdiklərimdən belə qənaətə gəlirəm ki, yaratmaq eşqi Qafar Cəfərlinin varlığına hakim kəsiləndə o, əlinə qələm alıb yazmağa başlayır. Təkcə masa arxasında deyil, hər yerdə yaradıcılıq məsuliyyəti ilə yaşayır, əsərlərinin taleyi üçün təbii narahatçılıq hissi keçirir. "Bərzəx sakininin etirafları" kitabı da məhz bu məsuliyyətin və narahatlığın gerçək bədii əks-sədasıdır.**

## Zəka uşağa atadan, yoxsa anadan keçir?

**İntellektin kimdən irsən keçməsi uzun illərdir həm alimləri, həm də insanları düşündürən suallardan biridir. Son araşdırmalar isə bu mövzuda maraqlı və müəyyən qədər gözlənilməz nəticə ortaya qoyub. Mütəxəssislərin fikrincə, intellektin formalaşmasında ana genlərinin rolu daha böyük ola bilər.**

Adalet.az xəbər verir ki, Kembric Universiteti alimlərinin apardığı araşdırmanın nəticələri göstərib ki, intellektlə bağlı genlərin mühüm hissəsi X xromosomunda yerləşir. Qadınlarda iki X xromosomu olduğu halda, kişilərdə yalnız bir X xromosomu mövcuddur. Bu isə anadan gələn genetik təsirin daha güclü ola biləcəyini göstərir.

Alimlər bildirirlər ki, bəzi genlər şərti aktiv xüsusiyyətə malikdir. Yəni onlar hansı valideyndən gəldiyinə görə fərqli şəkildə fəaliyyət göstərir. Xüsusilə intellektlə bağlı genlər anadan ötürüldükdə daha aktiv olur, atadan gəldikdə isə bəzən passiv qala bilir. Araşdırma zamanı həmçinin müəyyən edilib ki, ana və ata genləri embrionun inkişafına fərqli şəkildə təsir edir. Ana genləri əsasən beynin qabıq hissəsinin düşünmə, yaddaş, diqqət və nitq kimi funksiyalara cavabdeh olan sahənin inkişafında mühüm rol oynayır. Ata genləri isə daha çox emosiyalar, instinktlər və əsas həyati funksiyalarla bağlı olan limbik sistemə təsir edir.

Bununla belə, mütəxəssislər vurğulayır ki, intellekt yalnız genetika ilə müəyyən olunmur. Uşağın inkişafında valideynlərin diqqəti, emosional dəstəyi və təhsil mühiti də böyük rol oynayır. İlk illərdə daha çox qayğı və stimul alan uşaqlar adətən daha yaxşı öyrənmə qabiliyyətinə və problemləri həll etmə bacarığına malik olur.

Nəticə etibarilə, araşdırma ana genlərinin intellektdə daha aktiv rol oynaya biləcəyini göstərsə də, bu, atanın rolunun az olduğu anlamına gəlmir. Əksinə, sağlam inkişaf üçün hər iki valideynin genetik və tərbiyəvi təsiri vacib hesab olunur.

## Aya uçanlar market menecerindən də az maaş alır

**NASA-nın "Artemis-2" missiyasında Aya uçan astronavtlar ABŞ-da market menecerindən də az maaş alırlar.**

Adalet.az xəbər verir ki, bu barədə "San" nəşri məlumat yayıb. "NASA-nın "Artemis-2" proqramının iştirakçıları ildə orta hesabla təxminən 152 000 dollar maaş alırlar. Müqayisə üçün - ABŞ-da "Volmart" supermarketinin meneceri ildə 400 000 dollardan çox, aviaşirkət kapitanı isə 500 000 dollara qədər qazana bilər. Amma astronavtlar korpusuna daxil olmaq elit kluba qoşulmaqdan daha çətindir. NASA 8000-dən çox namizəd arasından təxminən 10 nəfəri seçir", - nəşr bildirib.

Qeyd edək ki, aprelin 1-də NASA astronavtlar Rid Vayzman, Viktor Qlover, Kristina Kox və Ceremi Hansenin iştirakı ilə Aya "Artemis-2" pilotlu kosmik gəmisini göndərib.



# BAYAT



№ 79 (939)

# Ötürdüm karvanı payıza tərəf, Düşdükcə yarpaqlar izimin üstə...



*İlqar TÜRKOĞLU*

## *Qocalırıq*

Dağların zirvəsi çəndə itibdi,
Yolumu gözləmə sən, "Kəkil" yeri.
Daha pasportumda limit bitibdi,
Üzə gülümsəyir son şəkil yeri.

Nə vaxtdı yazıram dostlara bir-bir,
Ötürüb günləri ayı gözləyə.
Yadıma salıram "tost"ları bir-bir,
Baharı gözləyə, yayı gözləyə...

Seyrəlib əzəlki şənlik bölgəsi,
Azalıb səs-küyü, qulağı "deşmir".
Çəkilib söyüdün "saqqal" kölgəsi,
Manqalın tüstüsü "bığ"ını eşmir.

Gözə dəymir daha "köhnə" cavanlar,
Başımı aldadıb bağa göndərə.
O meyvəsi ötən, gülü solanlar-
Yoxdu atam-anam, yığa göndərə.

Uşaqlıq illəri, köhnə yelləncək
Bir qoca çinardan asılıb gedər.
Dərdini özünlə, kefi elnən çək,
Bir qapının zəngi basılıb gedər...

Daha qoşa düşmür, zərimdən keçib,
Kimsə noğul dolu xurcunu istər.
"Allaha pənahdan-kərim"dən keçib,
Əzrayıl gələndə "borc"unu istər.

Dağların zirvəsi çəndə itibdi,
Yolumu gözləmə sən, "Kəkil" yeri.
Daha pasportumda limit bitibdi,
Üzə gülümsəyir son şəkil yeri.

## *Bu da bir payızdı*

Ötürdüm karvanı payıza tərəf,
Düşdükcə yarpaqlar izimin üstə.
Əlləri qoynunda o qıza tərəf,
Bir sevda ağlayır dizimin üstə...

Buludlar başımda qısıla qalıb,
Gözümdə boğulur sızqa yağışlar.
Pəncərəm önündə asıla qalıb,
Xəyallar içində donan baxışlar.

Qurşunlar şimşəktək yağır üstümə,
Dinib-demədiyi daha nə yoxdu?!
Baxır yanmağıma, baxır tüstümə,
Baxır, şübhələrə bəhanə yoxdu.

Payıza elçidi boz atlı oğlan,
Söyüdlər saçını yolub ağlayır.
Burda uca boylu-büsatlı oğlan,
Aldanmış eşqinə qara bağlayır.

Bu da bir payızdı, qucub saxlayır,
Əlimdə can verən o son siqarı.
Xəzana qoşulub bir qız ağlayır...
Unuda bilmirəm, unut sən, barı.

Ötürdüm karvanı payıza tərəf,
Düşdükcə yarpaqlar izimin üstə.
Əlləri qoynunda o qıza tərəf,
Bir sevda ağlayır dizimin üstə.

## *Qarabağ*

Havalanmır Xanın səsi dağlardan,
Könlüm düşmür saz vaxtına, Qarabağ.
Xarı bülbül incik düşüb bağlardan,
Çoxmu qalıb naz vaxtına, Qarabağ?

Sinəmdəki Xocalımın dağıdı,
Yağı elə həmin köhnə yağıdı.
Bu düyün də qara bəxtin bağıdı,
Açanadək döz vaxtına, Qarabağ.

Çox sirr yatır qara yerin altında,
Yorulmadın dərdin-sərin altında,
İnildəyir xeyir-şərin altında,
Heç düşmədi yaz vaxtına, Qarabağ.

Bir de görüm beləydikmi əzəllər,
Sağaltmayır yaramızı qəzəllər...
Uzaq düşüb Murovdağdan gözəllər,
Vüsal gəlmir düz vaxtına, Qarabağ.

Şuşam incim, tacım olsun yenə də,
Gur ocağım, sacım olsun yenə də.
Qoy qələbəm Laçın olsun yenə də,
Çəksin elə söz vaxtına, Qarabağ!

## *Könlümün*

Kədərim, nisgilim düzüm-düzümdü,
Bitməyib havası, sözü könlümün.
Sönməyən ümidlər qalan dözümdü,
Üşüyür həsrətdən közü könlümün.

Bir eşqin oduna calanıb gedim,
Ümidlər içində dolanıb gedim,
Uzanan gecənə boylanıb gedim,
Bir işığa həsrət üzü könlümün!

Unutdun, yüyürüb yadına çatdım,
Kədərin, nisgilin dadına çatdım,
Bəlkə vüsalımın atına çatdım,
Hələ yorulmayıb dizi könlümün!

Açıla göy üzü, vara gecələr,
Çəkilir gözümdə dara gecələr.
Zülfündə qaralıb qara gecələr,
Yuxusuz qalıbdı gözü könlümün!

Sonbahar saçını yolan vaxtıdı,
Qaraxal lalənin solan vaxtıdı.
Boşalan vaxtıdı, dolan vaxtıdı,
Könlümə sığmayır özü könlümün.

## *Yeri var*

Ovutmayır daha məni hər qəzəl,
Depressiya qonağımdı hələ də.
Qaranlığa əsir olub bir gözəl,
Bu gecə də ümidləri tələdə...

Yağış altda parıldayır bir küçə,
Qədəh tutub çökəklərə səkilər.
Oyaq qalıb Ayla tənha bir gecə,
Gözləməkdən yollar dara çəkilər.

Ürəyimi kabab edib, demir off,
Heç yox imiş, zərrə qədər insafı.
Məlhəm olur, kömək olur Nemiroff-
Dar günümdə dostlarımın ən safı.

Hələ çoxdu qəzəblənib, hirs udan,
Səbri olmur, salır hərdən hay-həşir.
Aradabir içirəm ki, nur "sudan",
İnciməsin baxıb Ömər əl Bəşir.

Atdım axır bu sevdanın daşını,
Ötən günə, ötən aya, mərhaba!
"Qeyd edirəm" "ayrılığ"ın yaşını,
Minnətdaram laləyanaq şəraba.

Qılıncına, yay-oxuna dözürəm,
Hər hissimi eşqi-subay istəyir.
Həm "hə"sinə, həm "yox"una dözürəm
Kənd evimi şəhri Dubay istəyir.

Heç dəymədim bircə kərə xətrinə,
İstəyəndə "asıb-kəsdə", yeri var.
Qoy bələnim qoynundaca ətrinə,
Saxlamışam, gözüm üstə yeri var...

## *Bu da həyatdı...*

Qınamıram, hərdən olur, həyatdı,
Duyammadın bir eşq üçün öləni.
Nə biləydim xəyalların boyatdı,
Tanımadım hər üzümə güləni.

Od olmasa, kim gələr ki, tüstünə,
Umu-küsü, çox getmədim üstünə.
Ürəyimdə yer saxladım büstünə,
Sən ki məni tanıyanı, biləni...

Çəkdin məni imtahana birdəmi,
Səhvim görən saxladığım sirdəmi?!
Nə vaxtdı ki intizarı, dərd-qəmi,
Unutmuşdum sən ömrümə gələni.

Zildən enib, daha havam bəm düşür,
Ağrılarım qoşa-qoşa, cəm düşür.
Sıralanıb qəm üstünə qəm düşür,
Dərdə saldın hər dərdini böləni.

Bəlkə gələr, gözlə yazı hələ sən,
Bu gecəni ümidlərə bələ, sən.
Qınamıram, hardan, necə biləsən,
Bu vüsala kim qurubdu tələni?

***

Dadıma hər kim çatmır,
Huş gedib, dərkim çatmır.
Hamıya ərkim çatmır,
Hərdən üstələnirəm.

Ötürüb çaya qədər,
Gözlədim maya qədər.
Dözmürəm yaya qədər,
Qışda "istilənirəm".

Bilirəm, baha yanmır,
Çəkdiyim "aha" yanmır.
Siqarım daha yanmır,
Özüm "tüstülənirəm"

Ha deyin öz-özünə,
Aparmır yol düzünə.
Qoy çıxım göy üzünə,
Yerdə xəstələnirəm.

Dərdimi deyim kimə?!
Anlasın bircə himə.
Arada sarı simə
Keçib bəstələnirəm.

Topladım, çıxdım cəmi,
Uzaq getməz bu gəmi.
Özümə cəhənnəmi,
Seçib dəstələnirəm.

***

Qara ağa, ağ qaraya düşməsin,
Sığmaz könül, can saraya düşməsin.
Sözün yerə, iş araya düşməsin,
Utanmasın, qızarmasın üzdən üz.

Ömrü-günü verdim elə hey bada,
Dedim bəlkə acılarım mey dada.
Enib atdan bir gün qaldım piyada,
Baxıb gördüm çox da olub azdan az.

Gecə-gündüz eşqimizə həyandım,
İsinmədim ha alışdım, ha yandım.
Məcnun olub yollarında dayandım,
Çatammadım, calasam da izdən iz.

Heç bilmədim düzü nədi, tərsi nə,
Tər sinəyə qismət olmur tər sinə.*
Bəzəsən də astar üzü tərsinə,
Altda qalar, ha çəksən də üzdən üz.

Bəlkə başda, bəlkə sonda var adım,
Başa gəlmir hər istəyim-muradım.
Barışmağa hər fürsəti aradım,
İnsaf elə Türkoğlunu üzdən üz.

## *Qoşa düşmürük*

Ay insafsız, bir az da
Tur eşqimdə ovuldum.
Günah görmə Arazda,
Gözlərimdə boğuldum.

Mən körpüyəm, sən divar,
Bu eşq ötəri belə?
Hər acıma tən də var,
Sevdim kədəri belə.

Daşa dəyir hər addım,
Bu sevda cuşa gəlmir.
Ha sınadım, zər atdım,
Bəxtimə qoşa gəlmir.

Sanma daha batmışam,
Gəlib təngdən keçirəm.
Bir günaha batmışam,
Yenə cəngdən keçirəm.

Mindikcə qəm atına,
Çək, göndər ahı mənə.
Çevirib üst qatına,
At hər günahı mənə.

## *Qaragilə*

Ötüb keçən bu da gündü,
Bu da bir səs, bu da ündü.
Qaranlığa hey büründü,
Ha çalışdım üzü gülə.
Daha gecdi, qaragilə!

Günəş çıxdı, oyanmadı,
Yolum üstə dayanmadı.
Töküb zülfün sayammadı,
Sığal çəkdim bir də telə...
Daha gecdi, qaragilə!

Eşqi bahar biçimdədir,
Qaranquşlar köçündədir.
Könlü hələ seçimdədir,
Bir də düşməz fürsət ələ.
Daha gecdi, qaragilə!

Lalə, nərgiz düzüm-düzüm,
Yollarına düzdüm özüm.
Sönməyibdi odum-közüm,
Bir gecədə döndər külə.
Daha gecdi, qaragilə!

Yüz demədim, min demədim,
Meysiz günə gün demədim.
Şahlığından en, demədim,
Saya-saya gözlə hələ...
Daha gecdi, qaragilə!

Eşq oduna necə saldı,
Sinəm üstən küçə saldı.
Ay üzünə gecə saldı,
Hara gedim indən belə?
Daha gecdi, qaragilə!

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Mediانın İnkişafı Agentliyi

№ 14 (2486) 17 aprel 2026-cı il

# XANOBALILARIN DÜNYA BOYDA SEVİNCİ



**O insanlar, o adamlar uzun müddət, daha doğrusu, 30 ildən çox dərdin-kədərin, qəmin içində olublar. Çünki onların vətənini, elini-obasını ermənilər digər ərazilərimiz kimi işğal eləmişdilər. Və işğal eləyərkən ağına-bozuna baxmadan kəndləri, qəsəbələri yandırmış və hətta o qədər böyük vəhşilik törətmişdilər ki, əsir düşən insanları da əzab verə-verə öldürmüşdülər.**

Xocavənd rayonundakı vəhşilikləri nə yer götürər, nə də göy. Bunların hamısı tarixin yaddaşına yazılıb. Qaradağlı faciəsi dinc insanlara qarşı amansızcasına qətli onların yadından heç vaxt çıxmayacaq. Ən azından ona görə ki, Qaradağlı faciəsində onlarla insan əzab-əziyyətlə öldürülmüş, nə qədər də əsir götürülmüş adamlara işgəncələr verilmişdi. Bu faciəni həmin kəndin insanları bu gün də xatırlayırlar. Amma bu gün tam başqa bir formada onlar Xocavəndi yada salırlar. Çünki antiterror əməliyyatı zamanı Xocavənd şəhəri, onun kəndləri, qəsəbələri hamısını erməni işğalçılarından azad olundu. Ermənilərin vəhşiliyi o həddə çatmışdır ki, oranı tərk edəndə mina basdırdılar. Hər yerdə ağac əkmək əvəzinə minalar "əkdilər". Düşünürdülər ki, onlar rədd olub gedəndən sonra bura azərbaycanlılar qayıdacaq və bu mina terroru onların fikirləşdiyi əy iyrənc, ən alçaq yollardan biri idi. Üç-dörd ildə işğaldan azad olunmuş digər rayonlar kimi Xocavənddə də çox böyük abadlıq, quruculuq, tikinti işləri görüldü. Dağıdılmış binalar, dağıdılmış yollar, o cümlədən bütün infrastruktur yenidən quruldu. Başqa sözlə demiş olsaq, insanların doğma yurda qayıtması, yaşaması, işləməsi üçün əlverişli şərait yaradıldı. Bu şəraiti isə Azərbaycan dövləti, Ali Baş Komandan, prezident İlham Əliyev yaratdı. Təbii ki, qısa müddətdə mövcud ərazilərdə bu qədər möhtəşəm işlərin görülməsi elə də asan məsələ deyildi. Çünki Böyük Qayıdış proqramına uyğun olaraq xocavəndlilər də mərhələ-mərhələ öz doğma yurdlarına qayıtmalı idilər. Artıq bir ilə yaxındır ki, bu proses, yəni doğma yurda qayıtmaq mərhələsi başlayıb.



Cənab prezident bayram günlərində xocavəndliləri sevindirdi. Onlarla görüşündə prezident İlham Əliyev yurda qayıdanları təbrik etdi. Xüsusən də Xanoba kəndinə qayıdanlar bu sevinci daha dərindən hiss elədilər. Belə ki, prezident İlham Əliyev onlarla görüşdü, hər bir kənd sakininin səmimi və yaddaqalan söhbətini dinlədi. Təbii ki, kəndə qayıdanlar üçün bundan böyük sevinc yox idi. Ona görə bundan böyük sevinc yox idi ki, onlar 30 ildən çox idi ki, bu yurdun həsrətindəydilər. Üstəlik də onların sevincinə cənab prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva da şərik idi. Kənd sakinləri bir daha prezidentin necə böyük ürək sahibi olduğunu, Vətənini və xalqını sevdiyinin şahidi oldular. Onlar şahidi oldular ki, Azərbaycanın böyük bayramı olan Novruzda Cənab Prezident onların yanında oldu, yeni mənzil almaları münasibətilə təbrik elədi və onlara cansağlığı arzuladı.

Ən böyük yaddaqalan hadisə isə balaca Ayazın Cənab Prezidentin idarə etdiyi avtomobildə əyləşməsi oldu. Uşaq dedi ki, mən də böyük maşın istəyirəm. Cənab prezident onu qucağına alıb öpdü və kənd camaatını bir daha salamladı. Balaca Ayazın atası ilə söhbət edəndə bizə dedi ki, mən yatsam yuxuma da girməzdi ki, kəndimizə qayıdacağıq və Cənab Prezident bizə belə mənzillər hədiyyə edəcək. Bu tək mənim deyil, bütün kəndin, elin-obanın sevincidir.

Bir neçə gündən sonra isə Cənab Prezident Xocavənd rayonunun Xanoba kəndinin balaca sakini Ayazı sevindirdi. Ona təptəzə KAMAZ markalı yük maşını hədiyyə etdi. Prezident həmişə öz xalqına, millətinə sədaqəti ilə fərqlənib. Ən ağır və ən çətin günlərində xalqın yanında olub, onlara ürək-dirək verib və arxa duraraq deyib ki, hər şey yaxşı olacaq. Xanoba kəndində də belə bir sevinc yaşandı. O sevinc ki balaca Ayazın yaddaşında uzun illər qalacaq. Bu sevinci, bu xoşbəxtliyi bir ailəyə bəxş etmək özü də çox böyük möhtəşəm addımdır. Əlbəttə, insanlar onlara olan sevgini, qayğını, istəyi hiss edəndə istər-istəməz dövlətçiliyə və dövlətə məhəbbətləri birə-beş artır.

Təbii ki, öz doğma yurduna qayıdan xanobalılar da bu sevgi və diqqətə görə dövlətə, öncə Cənab Prezidentə öz təşəkkürlərini bildirirlər. Söhbət zamanı Nadir Əhmədova da bu barədə danışmasını xahiş etdik. O dedi ki, Xanoba kəndində mənə yeni üçotaqlı mənzil veriblər. Bu mənzillər bizim ürəyimizcədir və hər cür şəraiti var, Bakıdakı evlərdən fərqlənmir. Əksinə, buranın havası da, suyu da Bakıdakından min dəfə yaxşıdır. Bunu tək mən demirəm, kəndimizə qayıdan insanlar deyirlər. Allaha and olsun ki, Bakıda olanda heç vaxt gecələr rahat yatmırdım, amma burda öz evimdə çox rahat yatdım və özümü dünyanın ən xoşbəxt adamı hiss elədim.

Bizi xoşbəxt edən təbii ki, göydə Allah, yerdə Azərbaycan əsgəridir. Eyni zamanda prezident İlham Əliyevin bizə bəxş etdiyi bu gözəl həyatı, bu gözəl anı ömrümüz boyu yaddan çıxara bilmərik. Buranın yazı həmişə gözəl olub. Amma bu yaz daha gözəldir. Güllər-çiçəklər, hər tərəfdəki yaşıllıqlar bizə yeni nəfəs verir və hiss edirik ki, doğrudan da doğma yurddan, doğma torpaqdan gözəl heç nə yoxdur. Bircə qalır bu yurdun qədrini bilmək, yaxşılığı yaddan çıxarmamaq və şəhidlərimizin ruhuna dualar oxumaq. Hər çiçəyi, hər gülü və hər yaşıllığı görəndə sanki şəhidlərimizi görürük. Onların nəfəsini, səsini hiss edirik. Bax beləcə, bu anları, bu dəqiqələri yaşamaqla biz ömrümüzün ən gözəl günlərinə qədəm qoymuşuq.

**Xanoba kəndinin sakini Nəcəf Həsənov da deyir ki, mənə kəndə qayıtmaqdan böyük hədiyyə olmazdı. Bu hədiyyənin bayram günündə edilməsi isə bizə ikiqat sevinc idi. Çünki həmişə Novruz bayramını boynu bükük qeyd etmişik. Nə üzümüz gülüb, nə də ürəyimiz, amma indi üzümüz də gülür, ürəyimiz də. İndi balalarımız da sevinir, nəvələrimiz də. Xoşbəxtik ki, bundan sonrakı günlərimizi doğma kəndimizdə - Xanobada yaşayacağıq!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

# "Aprel"i şərəfləndirən bəstəkar

**Hər peşənin gözəlliyi olduğu kimi çətinliyi də qaçılmazdır. Amma insan bir peşəni sevirsə, həmin çətinlik onun gözündə böyümür, əksinə əriyib- əriyib bir asanlığa çevrilir, bir zövqə çevrilir. Neçə- neçə sevilən mahnıların bəstəkarı, indi dillər əzbəri olan nəğmələri yaradan sevimli bəstəkar Ələkbər Tağıyev də öz peşəsinin çətinliyinə sinə gərən insanlardandır.**

**O, 1924-cü il aprelin 28-də Gəncədə anadan olub. Ailədə beş qardaş, bir bacı olublar. Sadə kəndli ailəsindən olduğu üçün maddi imkanları məhdud olub. Elə buna görə də uşaqlıqdan musiqiyə həvəsi olsa da, məşğul ola bilməyib. Ancaq kasıblıq onun musiqiyə olan həvəsini öldürə bilməyib.**

**Orta məktəbin yuxarı sinfində oxuyanda yaşını iki il artırıb ki, məhkəmədə kuryer vəzifəsinə işə düzəlsin.**

**Bu keçməkeçli həyat onun taleyini də yaşıdlarından fərqləndirir. O, çox erkən, yəni 16 yaşında ailə qurur.**

**Ələkbər Tağıyev peşəkar musiqi təhsili almaq üçün 1962-ci ildə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin nəzdindəki bəstəkarlıq kursuna daxil olur, 1964-cü ildə təhsilini müvəffəqiyyətlə bitirir. Ardınca SSRİ Musiqi Fondunun üzvü seçilir.**



**Oğlu doğulanda adını Xaliq qoyur. Uşağın qırx günü tamam olmamış Ələkbər Tağıyev ilk mahnısını, "Qonşu qız"ı bəstələyir. Bu mahnı sözün əsl mənasında Ə.Tağiyevin taleyini dəyişir.**

**Mahnının qazandığı uğurdan ruhlanan bəstəkar qısa müddətdə "Şirin arzular", "Sən gəlməz oldun", "Dinə bilmədim", "Bakı gecələri", "Azərbaycanım mənim", "Axtarma məni", "Sənə qurban", "Sədaqətim var", "Təki sən səslə məni", "Mənim dünyam", "Xızı dağları" kimi musiqilər bəstələyib.**

**Ələkbər Tağıyevin mahnı yaradıcılığı konservatoriya-bəstəkarlıq məktəbi keçməmiş digər istedadlı müsiqiçilərin də həvəsini artırdı və onları yaradıcılığa ruhlandırdı. Bu, zaman- zaman onun yaradıcılığını bir " məktəb"ə çevirirdi.**

**Mahnılarının ilk ifaçısı Zeynəb Xanlarova olub. Onunla on ildən artıq əməkdaşlıq ediblər. Sonra Nisə Qasımova, Məmmədbağır Bağırzadə ilə sıx əməkdaşlıq edib. Bu müğənnilərin hər birinin səhnə obrazının, repertuarının formalaşmağında bəstəkarın böyük rolu olub.**

**İndi adı dillər əzbəri olan bir çox xalq artistlərinin yaradıcılığında Ələkbər Tağıyevin rolu danılmazdır.**

**Ələkbər Tağıyevin prokurorluq sahəsindəki vəzifəsindən ayrılıb özünü bütünlüklə musiqiyə həsr etməsi həmişə çox maraqlı, çox duyğusal bir insanın addımı kimi qeyd olunur.**

**Həyat məşhurluqla, şan-şöhrətlə yanaşı bəzi çətin məqamları da insana "hədiyyə" edir. O, bəstəkar kimi tanınmağa başlayandan bəri həm hüquq sahəsindəki, həm də musiqi sahəsindəki adamlar tərəfindən özünə qarşı qısqanclıqlar görüb. Lakin bu qısqanclıqlar onu çox sevdiyiişlərindən usandırmayıb. Əksinə, o, daha da yaxşı çalışmağa davam edir.**

**O, bəstəkarlığını təkcə mahnı ərsəyə gətirməklə yekunlaşdırmırdı. Tələbkar insan idi. Müğənnilərin geyimindən tutmuş əl hərəkətlərinə qədər nəzarət edirmiş. Hətta güzgü qarşısında dayanıb, onlara necə səhnədə dayanmağı, oxumağı, əl hərəkətlərini göstərirmiş.**

**Ələkbər Tağıyev Azərbaycan musiqi tarixində ilk bəstəkarlardandır ki, adlarla ( " Arzu qızım", "Leyla", "Nərgizim" v.s) mahnılar bəstələyib.**

**Günəşli yaz günlərində dünyaya göz açan bəstəkar məhz elə günəşli yaz günlərində də dünya ilə vidalaşır.O, doğum gününə 12 gün qalmış, 1981-ci il aprelin 16-da dünyasını dəyişir. Maştağada "Seyidlər" qəbiristanlığında torpağa tapşırılır. Sağlığında özünə ayırdığı yerdə.**

**Başdaşına isə Hafiz Baxışın sözlərinə bəstələdiyi "Mənim dünyam" mahnısından bir parça yazılır:**

***"Mən də sənə bir qonağam,***
***Mənim dünyam, mənim dünyam...".***

# Bu nə siyasətdi...

**19 yaşadək qız futbolu millimiz çexiyalı həmkarlarına məğlub olub - 0:9.**

**Çexiyanın 19 yaşlı qızları bizimkilərdən bu qədər güclüdür (?!). Nə yeyib, nə içirlər ki belə**

**Müasir dünyanın gender bərabərliyi adlı siyasəti buralara da siraət etmişdir. Bu siraət də özbaşına, öz xoşuna deyil. Maliyyələşməsinə də dəstək verilir.**

**Məsələn, UEFA bu məsələdə səxavətlidir. Həmçinin qadın futbolunun inkişafına çalışan yerli assosiasiyalara "isti baxır"...**

**Beləcə, iki min onların əvvəllərindən ölkədə təşəkkül tapmağa başlayan qadın futbolu ekzotik nəticələrlə**




**uduza-uduza hələ də mövcudiyyətini davam etdirir.**

**Əvvəllər ispaniyalı bir xanım idi baş məşqçi. Gördülər onun və tələblərinin xərci çoxdur, yola saldılar.**

**O vaxtdan indiyə bu sahəyə Siyasət Əsgərov baş məşqçilik edir. Bu nə siyasətdirsə...**

**Qızlarımız peşimandılar "köhnə qitənin" kandarına ayaq basmağa. Vacib oyunlarda qol yağışı "zərif" millilərimizi Bakının tunellərinin halına salır.**

**Keçən oyun xorvatlardan 6, indi çexlərdən 9 cavabsız qol...**

**Yoldaşlar, bu işi elə görün ki, qızlarımız, qadınlarımız bu qədər uduzmasın. Sabahın analarıdır, övlad böyüdəcəklər...**

**Bu məğlub mentalitetlə?**

**Emosional yanaşmadır, bilirəm, ancaq kimsə deyə bilərmi ciddiyyəti yoxdur?**

**İdman sağlamlıqdır, lakin yarış rəqabətdir. Rəqabət də udub-uduzmaqdır, uduzmaq-uduzmaq yox...**

**Kamil Əhməd,**
**futbolpress.az**

## *Aktrisa: ""Bəyaz həyat"la ekranlara qayıtdım"*



**Aktrisa Vəfa Zeynallı bir zamanlar teatrdan uzaq düşməyindən danışıb.**

Adalet.az bildirir ki, aktrisa hansı səbəbdən sevdiyi işindən uzaqlaşdığını söyləyib: "Gənc yaşlarımdan həm ana olmuşam, həm də sənətə gəlmişəm. Ailə qurduğum zamandan təxminən 5 il səhnədə görünmədim. Köhnə tamaşalarda gəlib iştirak etsəm də, yeni repertuarda yer ala bilmirdim. Həmin dövr serialların daha çox çəkilən dövrü idi. Ekranlardan uzaqlaşsam da, hamı seirallara çəkilməyə məni dəvət edirdi. Bütün seriallar üçün uyğun obraza çevrilmişdim. Övladlarımın səhhəti ilə bağlı 5 il hər şeydən uzaqlaşmışdım. Ancaq "Bəyaz həyat" serialı ilə ekranlara geri döndüm. "Yanmış körpülər" serialı da həmin dövrdə izləyicilər tərəfindən çox sevilməyə başladı".

## *Türkan Vəlizadə ailə qurur?*



**Türkan Vəlizadə toyunda hansı müğənninin toy aparmağını istədiyini deyib.**

Adalet.az bildrir ki, o, bu seçimi valideynlərinə həvale edib: "Mənim fikrimdə bir neçə müğənni olsa da, bilirəm ki, valideynlərimin seçdiyi müğənni olacaq. Bizdə həmişə belə olur analar, atalar qərar verirlər.

Ancaq düşünürəm ki, onlar mənimlə danışıb, məsləhətləşməlidirlər. Ortaq seçim olmalıdır. Ən çox Rüfət Axundovun toy aparmağını bəyənirəm. Səsi, seçdiyi mahnıları, ifaları, ansamblın müşayəti olduqca ürəkaçandır".

**Əntiqə**

***TƏBRİK!***



**Aprelin 11-də 8 yaşın tamam oldu. Bu 8 ildə bizə yaşatdığın sevincə görə Allahıma minnətdaram. Uca Tanrım səni həmişə öz nəzərində saxlasın, Atilla kişi! Sənin doğum gününü Nigar, Aysu, Nərgiz, Fateh və bütün doğmaların ürəkdən təbrik edir. Həmin təbriki də baban Əbülfət Mədətoğlu sənə çatdırır, Atilla Babəkoğlu!**

**"Atam" - deyib çağırıram atamın -**
**Daşıyırsan, yaşadırsan soyunu...**
**Nəticəsi - sən sadə bir adamın -**
**Qucaqlaya bilmədi o, boyunu!**

**Pardaxlanır içimdəki ümidlər,**
**Artır sənə hər gün mənim inamım...**
**Sən məktəbdə qazandığın biliklər -**
**Göstərir ki, sabahına inanım!**

**Dəcəlliyin, istəklərin təbii**
**Bu yaşında seçilirsən hər kəsdən!**
**Əzmkar ol, həmi də saf əməlli -**
**Öz yolunda düşmə heç vaxt həvəsdən!**

**Adın kimi uğurun da seçilsin,**
**Öndə ol sən, hər bir zaman, Atilla!**
**Doğmaların fərəhlənib sevinsin -**
**Qürur duysun yaşatdığın adınla!**

## *Hacı Nazim: "Ulduz olmaqdan qorxmuşam"*



**"Müğənni, bəstəkar Hacı Nazim səhnə fəaliyyəti ilə bağlı etiraflar edib.**

Adalet.az xəbər verir ki, o, ulduz olmaqdan qorxduğunu söyləyib:

"İstəsəydim ulduz olardım. Bilirsiniz ki, bunu edəcək qüdrətdəyəm. Bir obraz yaradıb, gəmin obrazla insanlara özümü sevdirə bilərdim. Amma bunu etmədim. Bunu etsəydim, gərək toxunulmaz olardım. O zaman da öz həmkarlarımın yanında olub, onlara dəstək ola bilməyəcəkdim. Ulduz olsadım indi sahib olduğum çox şeyi itirəcəkdim. Amma mən bu halımla daha rahatam".

## *Aktyor: "O qapılar üzümə bağlıdır"*

**Aktyor İbrahim Çingiz atası əməkdar artist Çingiz Əhmədovla bağlı etiraf edib**

Adalet.az xəbər verir ki, o, uzun zaman atasının tanınmış adam olduğunu gizlədib:

"Nə orta məktəbdə, nə də ali məktəbə atamın adından istifadə etmişəm. Bununla bağlı heç bir yerdə danışmamışam. Bu, həmişə mənə artıq yük kimi görünüb. Yalnız 22 yaşımdan sonra atamın kimliyi haqda danışmışam. Uşaqlıq illərim başqa bir dövr idi. İnsanlar sənət adamlarına böyük dəyər verirdilər.

Bilirdim ki, atam üçün hər yerdə qapılar açıqdır. Bu da mənə çətinlik yaradır. Bilirsən ki, həmin qapılar üzünə bağlıdır və o qapıları sən özün açmalısan".

**Əntiqə**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Səmədov Ramiz Seyfəddin oğlunun adına verilmiş **Şəhid ailəsi üzvünün vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

***

27.10.2005-ci il tarixdə 0405-X1-001 nömrə ilə Ədliyyə Nazirliyinin Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Xaçmaz bölgə şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış Rəhimoba sudan istifafəedənlər birliyinin nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

***

15.12.2006-ci il tarixdə 0406-XQ2-010 nömrə ilə Ədliyyə Nazirliyinin Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Xaçmaz bölgə şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış Çarxı sudan istifafəedənlər birliyinin şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 274
Çapa imzalanmışdır: 16.04.2026